SAHİL HÜSEYNOV

# DÖVLƏT ƏRAZİ QURULUŞUNUN HÜQUQİ TƏNZİMLƏNMƏSİ PROBLEMLƏRİ

- 28463 -

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"Elm və təhsil"
Bakı-2022

67.400(5Az)
H 96

***Elmi redaktor:*** **Nazim Cəfərli**
*Hüquq elmləri doktoru, professor*

***Rəyçilər:*** **Ayxan Rüstəmzadə**
*Hüquq elmləri doktoru, dosent*
**Şöhlət Kərimov**
*Hüquq elmləri üzrə fəlsəfə doktoru, dosent*

**Hüseynov Sahil Zahir oğlu**
**Dövlətin ərazi quruluşunun hüquqi tənzimlənməsi problemləri.**
**Bakı, "Elm və təhsil", 2022, 216 səh.**

Kitab müstəqil Azərbaycan Respublikasında dövlətin ərazi quruluşunun yaranması və hüquqi tənzimlənməsi problemlərinin tədqiqinə həsr edilmişdir. Dövlətin ərazi quruluşunun yaranmasının nəzəri əsasları, ən qədim zamanlardan bugünədək xalqın həyatında baş vermiş tarixi hadisələr və bu hadisələrin nəticəsi kimi miras qalmış ziddiyyətli ərazi problemləri ardıcıllıqla nəzərdən keçirilmişdir.

Üç fəsildən ibarət olan tədqiqat əsərinin birinci yarımfəslində ərazi quruluşunun ümumi anlayışı, onun yaranması mərhələləri, Azərbaycan Respublikasının və xarici dövlətlərin ərazi quruluşunu tənzimləyən konstitusion müddəaların müqayisəli xarakteristikası verilmişdir.

İkinci fəsildə ərazi quruluşunun hüquqi tənzimlənməsi problemləri muxtar respublikanın, inzibati ərazi vahidlərinin və bələdiyyələrin timsalında nəzərdən keçirilmişdir.

Üçüncü fəsildə dövlətin ərazi quruluşunun prinsipləri və onun təmin edilməsinin konstitusion-hüquqi tənzimlənməsi istiqamətləri işıqlandırılır.

4702000000
N-98-2022 qrifli nəşr

© "Elm və təhsil", 2022

## Mündəricat

Giriş ........ 4
**I FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏTİN ƏRAZİ QURULUŞUNUN TARİXİ VƏ HÜQUQİ ASPEKTLƏRİ**
1.1 Dövlətin ərazi quruluşunun ümumi anlayışı ........ 18
1.2 Azərbaycan dövlətinin ərazi quruluşunun yaranması və inkişafı mərhələləri ........ 53
1.3 Xarici ölkələrdə dövlətin ərazi quruluşunun yaranmasının konstitusion xarakteristikası ........ 78
**II FƏSİL. AZƏRBAYCAN DÖVLƏTİNİN ƏRAZİ QURULUŞUNUN KONSTİTUSİYA ƏSASLARI**
2.1 Ərazi quruluşunun konstitusion-hüquqi tənzimlənməsi ........ 98
2.2 Naxçıvan Muxtar Respublikasının ərazisinin konstitusion-hüquqi statusu ........ 116
2.3 İnzibati-ərazi vahidlərinin hüquqi vəziyyət ........ 126
2.4 Bələdiyyələrin ərazilərinin hüquqi əsasları ........ 142
**III FƏSİL. DÖVLƏTİN ƏRAZİ QURULUŞUNUN ƏSAS PRİNSİPLƏRİ VƏ ONUN SABİTLİYİNİN TƏMİN EDİLMƏSİNİN KONSTİTUSİON-HÜQUQİ VASİTƏLƏRİ**
3.1 Azərbaycan Respublikasının ərazi quruluşunun hüquqi prinsipləri ........ 154
3.2 Dövlətin ərazi quruluşunun sabitliyinin təmin edilməsinin konstitusion-hüquqi mexanizmləri ........ 170
**Nəticə** ........ 186
**İstifadə olunmuş ədəbiyyatın siyahısı** ........ 195

## GİRİŞ

Konstitusiya hüququnda dövlətin ərazi quruluşuna müstəsna əhəmiyyət verilməsi ərazinin dövlətdən ayrılmayan maddi varlıq və xalqın hakimiyyətinin həyata keçirildiyi məkan kimi nəzərdən keçirilməsi ilə əlaqədardır. Ərazinin mövcud olması və həmin ərazidə əhalinin məskunlaşması dövlət hakimiyyətinin həyata keçirilməsinin ilkin şərtləri hesab olunur. Dövlətin ərazi quruluşunun yaranmasının və inkişafının tarixi aspektlərinin öyrənilməsi müasir Azərbaycan Respublikası əhalisinin ölkə Konstitusiyasının 11-ci maddəsi ilə təsbit edilmiş ərazi üzərində suverenlik hüququnun əsaslandırılması üçün mühüm əhəmiyyət kəsb edir. Konstitusiyanın müqəddiməsində göstərilmişdir ki, Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, məskunlaşdığı tarixi ərazidə dövlət qurmaq hüququndan istifadə edərək, Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyətini bəyan edir. Azərbaycan Respublikasının dövlət suverenliyinin, ərazi bütövlüyünün və dövlət sərhəddinin toxunulmazlığının təmin edilməsi sahəsində hüquqi, təşkilati və iqtisadi yönümlü tədbirlərin həyata keçirilməsinin əsas





məqsədi dövlətin ərazi quruluşunun sabitliyinə nail olmaqdan ibarətdir.

Azərbaycan Respublikasının ərazi təşkili məsələlərinin konstitusion-hüquqi həlli, dövlət hakimiyyətinin məkan hüdudlarının müəyyən edilməsi və onun sabitliyinin təmin edilməsi dövlətin daxili və xarici siyasətinin başlıca istiqamətlərindən biridir. Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsində Azərbaycan Respublikasının ərazisinin fiziki-coğrafi əlamətlər üzrə tərkibi, dövlət sərhədlərinin dəyişdirilməsinə dair tələblər əks etdirilir, respublikanın ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi prinsipləri təsbit edilir. Konstitusiyanın bu normaları Azərbaycan dövlətinin özünün təbii, tarixi ərazisi üzərində suverenlik hüququnu, eləcə də unitar dövlət kimi onun Azərbaycan Respublikası Konstitusiyası ilə nəzərdə tutulmuş meyarlara uyğun ərazi quruluşunu tənzimləmək vəzifəsini təsdiq edirlər. Eyni zamanda istinad edilən Konstitusiya maddəsinin təhlilindən yer səthinin əsas komponentləri kimi qurunun və yerin təkinin dövlət ərazisinin tərkibinə daxil edilməməsi, eləcə də Azərbaycan Respublikasının inzibati-siyasi meyarlara əsaslanan ərazi quruluşunun müəyyən edilməsinə dair müddəaların konstitusion norma ilə nəzərdə tutulmaması dövlətin ərazi quruluşunun tənzimlənməsi sahəsində həll edilməsi zəruri olan bir sıra problemlərin mövcudluğunu ortaya qoyur.

Monoqrafiya Azərbaycan Respublikasının ərazi quruluşunun yaranması və inkişafı prosesinin ən qədim za-

manlardan bugünədək xalqın həyatında baş vermiş hadisələrin nəticələri kimi miras qalmış ziddiyyətli ərazi problemləri ilə səciyyələndiyini təsdiq edir. Müasir mərhələdə Azərbaycan Respublikasının ərazi quruluşunun sabitliyinin təmin edilməsi, o cümlədən 1988-2020-ci illərdə işğal olunmuş Qarabağ torpaqları üzərində Azərbaycan Respublikasının suverenlik hüququnun bərpa olunması, Xəzər dənizində su ərazisi hüdudlarının beynəlxalq hüququn prinsipləri əsasında müəyyən edilməsi kimi problemlərin həlli cəmiyyətin əvvəlki tarixi mərhələlərdə məruz qaldığı ərazi itgilərinin və xüsusilə, son dövrlərdə qarşılaşdığı ərazi mübahisələrinin yaranması səbəblərini konstitusion-hüquqi qaydada təhlil etmədən və qiymətləndirmədən mümkün deyildir. Dövlətin ərazi quruluşunu tənzimləyən konstitusion normanın təkmilləşdirilməsi və ərazi rejiminin sabitliyinin təmin edilməsinin hüquqi mexanizmlərinin yaradılması ilə bağlı problemlərin Azərbaycan Respublikasının konstitusiya hüququ çərçivəsində kifayət qədər tədqiq olunmaması və onların həlli yollarının əsaslandırılması zəruriliyinin bu tədqiqatın istiqaməti qismində seçilməsinə həlledici təsir göstərmişlər.

Azərbaycan Respublikasının ərazi quruluşunun konstitusion-hüquqi əsaslarının elmi tədqiqinə həsr olunmuş ayrıca tədqiqat işi indiyədək yerinə yetirilməmişdir. Lakin, buna baxmayaraq, ərazi quruluşu ilə bağlı məsələlər təkcə hüquqşünasları deyil, həm də dövlət rəhbərlərini və siyasətçiləri mübahisəli ərazi məsələlərinin həlli istiqa-





mətlərinin axtarılması ilə ciddi məşğul olmağa məcbur edir. Müasir Azərbaycan Respublikasının ərazi quruluşunun konstitusion əsasları, ərazi quruluşunun ayrı-ayrı komponentləri Azərbaycan Respublikası Konstitusiyasının şərhinə həsr olunmuş əsərlərdə, "Konstitusiya hüququ", "İnzibati hüquq", "Ekologiya hüququ" və "Coğrafiya" fənləri üzrə dərsliklərdə işıqlandırılmışdır. Xüsusilə, Azərbaycan Respublikasının müasir mərhələdə qarşılaşdığı ərazi mübahisələrinin ədalətli həlli üçün mühüm metodoloji əhəmiyyətə malik olan nəzəri müddəalar Z.A. Əsgərovun, İ.M. Cəfərovun, N.H. Cəfərlinin, R.F. Məmmədovun, Ş.M. Əliyevin və başqa müəlliflərin Azərbaycan Respublikasında dövlətçiliyin inkişaf mərhələlərinə və konstitusiya hüququna həsr olunmuş əsərlərində əsaslandırılmışdır. Dövlət ərazisinin tərkibinin və hüquqi təbiətinin, dövlət sərhədlərinin hüquqi rejiminin, habelə Xəzər dənizinin beynəlxalq-hüquqi statusunun öyrənilməsi üçün L.H. Hüseynovun Azərbaycan Respublikasının beynəlxalq-hüquqi mövqeyini əks etdirən müvafiq materiallar əsasında hazırladığı "Beynəlxalq hüquq" adlı dərslik xüsusi əhəmiyyət kəsb edir.

Sovet dövrünün elmi ədəbiyyatında dövlət hakimiyyətinin ərazi təşkili məsələlərinin həllinə geniş yer verilirdi. Həmin dövrün hüquqşünaslarından Y.Q. Barseqovun, B.M. Klimenkonun, A.M. Ladıjenskinin, V.A. Rjevskinin, İ.P. Trayninin, N.A. Uşakovun, V.S. Şevtsovun və başqalarının tədqiqatları dövlətin ərazi quruluşunun elmi əsaslarının yaradılmasında mühüm rol oynamışlar.

Müasir rus tədqiqatçılarından S.N. Baburinin, İ.N. Barsisin, D.A. Bıstrovanın, V.İ. Vasilevin, A.B. Venqerovun, A.V. Direqanovanın, D.A. Kerimovun, E.İ. Kozlovanın, O.E. Kutafinin, N.B. Pastuxovanın, N.L. Peşinin, N.V. Postoyovun, B.A. Straşunun, N.S. Timofeevin, B.N. Toporninin, İ.A. Umnovanın, V.İ. Fadeevin, S.N. Xaryuçinin, V.E. Çirkinin, E.S. Şuqrinanın, B.S. Ebzeyevin və başqalarının elmi əsərlərində "ərazi" və "ərazi quruluşu" anlayışlarının siyasi-hüquqi aspektləri nəzərdən keçirilir, Rusiya Federasiyasının ərazi quruluşunun yaranması və inkişafı mərhələləri işıqlandırılır, federasiya subyektlərinin ərazi quruluşu ilə bağlı problemləri tədqiq olunur, dövlətin ərazi rejiminin konstitusion-hüquqi təminatlarının yaradılması məsələlərinin həllinin hüquqi əsasları müəyyən edilir.

Azərbaycan Respublikasının ərazi quruluşunun konstitusion-hüquqi aspektlərinin tədqiqi üçün yuxarıda göstərilənlərlə yanaşı xarici ölkələrin konstitusiya hüququ mütəxəssislərinin elmi əsərləri böyük əhəmiyyət kəsb etmişdir. Qərbdə geniş yayılmış "beynəlxalq mülkiyyət nəzəriyyəsi"-nin nümayəndələrindən Labandın, Rozenin, Tsutelmanın, Martensin, Oppenqeymin, Layterpaxtın və başqalarının elmi əsərlərində dövlətin əraziyə münasibətdə suverenlik hüququnun həyata keçirilməsinə və ərazinin dövlətin beynəlxalq-hüquqi mülkiyyəti olmasına dair müddəalar əsaslandırılır.

Ərazi və onun növləri, dövlət ərazisinin və sərhədlərinin hüququ rejimi, dövlətin dəniz məkanının hüdudlarının müəyyən edilməsi ilə əlaqədar məsələlərin öyrənilməsi üçün K. Basların, S. Burçinin, K. Meçhlemin, S. Dinarın, E.D. Brounun tədqiqat işləri mühüm əhəmiyyətə malikdirlər.

Monoqrafiyada istinad edilən Azərbaycan, Rusiya və digər ölkə hüquqşünas alimlərinin əsərləri Azərbaycan Respublikasının ərazi quruluşunun tənzimlənməsi ilə bağlı məsələlərin həllində elmi mənbə rolunu oynaya bilər ki, bu da həmin mənbələrə tənqidi yanaşmanı istisna etmir.

Monoqrafiya qarşısında qoyulmuş başlıca məqsəd Azərbaycan Respublikasının ərazi quruluşunun yaranması və inkişafı ilə əlaqədar münasibətlərin konstitusion-hüquqi vasitələrlə tənzimlənməsi vəziyyətini qiymətləndirmək və dövlət ərazisi rejiminin sabitliyinin təmin edilməsi mexanizmlərini əsaslandırmaqdan ibarətdir.

Monoqrafiya Azərbaycan Respublikasının konstitusiya hüququnda ilk dəfə olaraq dövlətin ərazi quruluşunun konstitusion əsaslarının öyrənilməsi və onun təhlükəsizliyinin təmin edilməsinin hüquqi mexanizmlərinin yaradılmasına dair elmi-praktiki əhəmiyyətli nəticələrin və təkliflərin əsaslandırılması ilə müəyyən edilir.

Azərbaycan Respublikasında dövlətin ərazi quruluşunun yaranması və inkişafının əsas mərhələlərinin tədqiqinə sistemli yanaşma ərazinin konstitusion-hüquqi aspektlərinin: ərazi quruluşunu müəyyən edən tarixi faktların və hadisələrin, unitar və federativ dövlətlərdə ərazi məsələlərinin (ərazi vahidlərinin və ərazi növlərinin) hü-

quqi rejiminin, ərazi quruluşunun tənziminin konstitusion-hüquqi prinsiplərinin, habelə dövlət quruluşunun daxili və xarici sabitliyin təmin olunmasında ərazi amilinin rolunun kompleks təhlili vasitəsilə aydınlaşdırılmasına imkan verir.

Tarixçi alimlərin erməni mənbələrinə əsaslanan əsərlərinin Azərbaycanın tarixi ərazisinə dair müddəaların, habelə müasir Azərbaycan Respublikasının ərazi quruluşunu tənzimləyən konstitusion-hüquqi normaların tədqiqatın mövzusu çərçivəsində keçirilən ekspertizası dövlətin ərazi quruluşunun sabitliyinin təmin edilməsinin konstitusion-hüquqi mexanizmlərinin təkmilləş-dirilməsi zəruriliyini ortaya qoyur.

Tədqiqat işinin elmi yeniliyini müəyyənləşdirən əsas müddəalar və təkliflər aşağıdakılardır:

1. Konstitusiya hüququnda "ərazi quruluşu" anlayışı dövlətin ərazisinin konstitusiya və qanunlarla müəyyən edilən fiziki-coğrafi və inzibati-siyasi əlamətlərə görə müvafiq hissələrə bölünməsi ilə bağlı münasibətləri ifadə edir.

2. Tarixi məlumatların təhlili cənubda İkiçayarası, şimalda Dərbənd, şərqdə Xəzər dənizi, qərbdə Tiflis, Batum, Qars-Ərzurum məntəqələri arasındakı məkanda oğuz türk tayfası tərəfindən yaradılmış dövlətlər ayrı-ayrı dövrlərdə ərazi itgiləri ilə üzləşmişlər:

-birinci ərazi itgisi - Şumer şəhər-dövlətlərinin ərazisinin eramızdan əvvəl II minilliyin başlanğıcında Babil dövləti tərəfindən işğal edilməsi;





-ikinci ərazi itgisi - eramızdan əvvəl I minilliyin ortalarında Midiya şahlığının ərazisinin farslar tərəfindən işğal edilməsi;

-üçüncü ərazi itgisi - XII əsrin əvvəlində Tiflis müsəlman əmirliyinin ərazisinin gürcü çarlığına tabe edilməsi;

-dördüncü ərazi itgisi - Şimali Azərbaycanın ərazisinin XIX əsrin əvvəllərində Çar Rusiyası tərəfindən işğal edilməsi, Borçalı sultanlığının ərazisinin gürcülərə verilməsi;

-beşinci ərazi itgisi - azərbaycanlıların ən qədim dövrlərdən məskunlaşdığı Dərbənd və onun ətrafındakı ərazilərin 1850-1860-cı illərdə Rusiyanın ərazi vahidi elan edilməsi;

-altıncı ərazi itgisi - 1918-1919-cu illərdə İrəvan xanlığının ərazisinin ermənilərə verilməsi;

-yeddinci ərazi itgisi - 1920-1924-cü illərdə Azərbaycanın Şərur-Dərələyəz, Zəngəzur və Göyçə ərazilərinin SSRİ rəhbərliyi tərəfindən Ermənistana verilməsi;

-səkkizinci ərazi itgisi - Dağlıq Qarabağın və onun ətraf rayonlarının ərazisinin 1988-2020-cü illərdə Ermənistan tərəfindən işğal edilməsi.

Keçmiş zamanlarda Azərbaycan xalqının həyatında ərazi itgiləri ilə nəticələnmiş hadisələrin baş verməsi səbəblərinin təhlili əsasında onun indiki dövrdə qarşılaşdığı ərazi problemlərinin ədalətli həll edilməsi və gələcəkdə ərazi itgilərinin təkrarlanmasının qarşısının alınması, habelə qədimdən məskunlaşdığı ərazidə dövlət yaratmaq

hüququnun təsbit edilməsi üçün siyasi əhəmiyyətli nəticələr çıxarıla bilər.

3. Xarici dövlətlərin (ABŞ-ın, Fransanın) ərazi quruluşunun tənzimlənməsi təcrübəsi nəzərə alınmaqla Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı problemlərinin səmərəli həll edilməsi məqsədilə inzibati-ərazi sistemində "region" komponentindən istifadə edilməsi və ərazi qurumlarının mütəşəkkilliyi səviyyəsindən asılı olaraq, onların statusunun keçid rejimli ərazilərə münasibətdə fərqləndirilməsi barədə təklif irəli sürülür.

4. Azərbaycan Respublikasının inzibati-ərazi bölgüsünü müəyyən edən normanın Əsas Qanunda təsbit edilmədiyi əsas götürülərək, "Azərbaycan Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikasının, rayonların, respublika tabeliyində olan şəhərlərin əraziləri Azərbaycan Respublikasının vahid ərazisini təşkil edir" məzmunda normanın Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin II hissəsinə əlavə edilməsi və "muxtar ərazi vahidi" anlayışının "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununda təsbit edilməsi məqsədəuyğun hesab edilir.

5. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının inzibati-hüquq sisteminin müstəqil subyekti olduğuna görə, onun muxtariyyətliyinin konstitusion əsaslarının möhkəmləndirilməsini təmin edən aşağıdakı müddəaların:

1) "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının rayon





bölgüsünü və ərazi vahidlərinin sərhədlərini müəyyən edərək Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir" məzmunda müddəanın Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II ("Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi") hissəsinə əlavə edilməsi;

2) "Naxçıvan Muxtar Respublikasının rayon bölgüsünün və ərazi vahidlərinin sərhədlərinin müəyyən edilməsi" məzmunda müddəanın Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci ("Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlər") maddəsinin I hissəsinə əlavə edilməsi zəruridir.

6. Eyni yaşayış məntəqəsinin ərazi vahidi, inzibati ərazi vahidi, inzibati ərazi dairəsi və bələdiyyə adlandırılması yerlərdə dövlət idarəetməsinin həyata keçirilməsində pərakəndəlik yaradır. Hər bir ərazinin funksional təyinatı ilə bağlı məsələnin konstitusiya hüququ çərçivəsində həllinin zəruriliyi etiraf edilməlidir.

7. Ərazi vahidlərinin yaradılması, ləğv edilməsi, onların adlandırılması və adlarının dəyişdirilməsi, sərhədlərinin müəyyən edilməsi və dəyişdirilməsi kimi çoxsaylı məsələlərin düzgün həll edilməsi üçün ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələri hazırlanarkən istinad edilən "Azərbaycan SSR rayonlarının dürüstləşdirilmiş sərhədlərinin qrafik təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1960-cı il 24 mart tarixli Fərmanı ilə təsdiq edilmiş növbətçi xəritənin kompleks təftişi zəruridir.

8. Azərbaycan Respublikasında bələdiyyələrin ərazi məsələlərinin həllində konstitusion-hüquqi tənzimetmənin rolunun gücləndirilməsi üçün elmi leksikona "ərazi özünüidarə vahidi" anlayışı daxil edilir. Bu məqsədlə "Ərazi özünüidarə vahidi-hüdudlarında bələdiyyə hakimiyyəti orqanlarının yaradıldığı ərazi vahididir (şəhər, qəsəbə, kənd)"-məzmunda müddəanın "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununun (13 iyun 2000-ci il) 2-ci ("Bu qanunda istifadə olunan əsas anlayışlar") maddəsinə əlavə olunması təklif edilir.

9. Bələdiyyələrin yaradılması, birləşməsi, birgə fəaliyyəti, ayrılması və ləğv edilməsi ilə əlaqədar münasibətlərin vahid qanun əsasında tənzimlənməsi zəruridir. Bunun üçün hazırda qüvvədə olan "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Qanunun adının aşağıdakı məzmunda yeni redaksiyada verilməsi və bələdiyyələrin yaradılması qaydalarını müəyyən edən normaların bu qanunla təsbit edilməsi məqsədəuyğundur:

- "Bələdiyyələrin yaradılması, birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında".

10. Dövlətin ərazi varisliyi ərazi quruluşunun tənziminin ilk konstitusion-hüquqi prinsipi hesab edilərək, daxili və xarici mənbələrdən qaynaqlanan çoxsaylı ərazi münaqişələrinin varis dövlətin ərazi iddiaları təmin edilməklə aradan qaldırılmasına dair müddəa əsaslandırılır.





11. Azərbaycan Respublikasının ərazi quruluşunun sabitliyinə mənfi təsir göstərən amillər aşağıdakılardır:

-respublikanın ayrı-ayrı bölgələrində məskunlaşan milli azlıqların müəyyən hissəsinin xaricdən qaynaqlanan milli separatçılığa məruz qalması;

-Azərbaycan Respublikasının ərazi quruluşunu yaradan inzibati ərazi vahidlərinin adlarının siyahısının Konstitusiya ilə təsbit edilməməsi;

-yerli icra hakimiyyətinin və yerli özünüidarənin həyata keçirilməsinin məkan hüdudlarının təyin edilməsinin konstitusion-hüquqi meyarlarının olmaması;

-Azərbaycanla Ermənistan arasındakı münasibətlərin real sülh prosesinə çevrilməsi sahəsində ciddi problemlərin mövcud olması;

-Azərbaycan Respublikasının su ərazisinin hüdudlarını və xüsusilə, Xəzər dənizində sovet dövründə istismar edilmiş kontinental şelfə münasibətdə varisliyini müəyyən edən beynəlxalq-hüquqi təminatların məhdudluğu.

Azərbaycan Respublikasının ərazi quruluşunun daxili və xarici sabitliyinin təmin olunmasının aşağıdakı konstitusion-hüquqi mexanizmləri təklif edilir:

1. Azərbaycan Respublikası ərazisinin ayrı-ayrı cinayətkar qrupların separatçılıq fəaliyyəti nəticəsində parçalanması təhlükəsinin milli azlıqların məskunlaşdığı bölgələrdə vətəndaşların sosial-mədəni ehtiyaclarının dövlət təminatının gücləndirilməsi yolu ilə aradan qaldırılması.

2. 1988-1994-cü illərdə Azərbaycan Respublikasının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş 14

rayonunun hüquqi müqəddaratının 2020-ci ildə həllindən sonra Azərbaycan Respublikasının tabeliyində olan muxtariyyət qurumunun, rayonların və respublika tabeli şəhərlərin adlarının bütöv siyahısının Azərbaycan Respublikasının Konstitusiyasında birbaşa təsbit edilməsi.

3. Yerli icra hakimiyyətinin və yerli özünüidarənin həyata keçirilməsinin ərazi hüdudlarının konstitusion-hüquqi qaydada əsaslandırılmasının ilkin şərti kimi həmin orqanların funksiyalarını və qarşılıqlı fəaliyyətinin istiqamətlərini müəyyən edən "Bələdiyyələrlə yerli icra hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi.

4. Beynəlxalq ümumi hüququn ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, güc tətbiq etməmək, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsiplərinə uyğun olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nəticələrinin Azərbaycan Respublikası Konstitusiyası və beynəlxalq müqavilələrlə nəzərdə tutulan hüquqi vasitələrin tətbiq edilməsi yolu ilə aradan qaldırılması.

5. Xəzər dənizinin sahilyanı dövlətləri arasında son 22 il ərzində həll edilməyən ərazi mübahisələrini aradan qaldırmaq üçün 12 avqust 2018-ci ildə Aktau şəhərində imzalanmış "Xəzər dənizinin hüquqi status haqqında" Konvensiyada Xəzər dənizinin hüquqi rejiminin beynəlmiləlləşməsi (əvvəlki iki sahil dövləti olan dənizdən beş sahil dövləti olan dənizə çevrilməsi) ilə əlaqədar olaraq onun statusunun, dənizin dibi və burada yerləşən ehtiyatlar üzərində müstəsna hüquqların sahilyanı dövlətlər



-28463-



arasında beynəlxalq dəniz hüququnun normalarına uyğun tənzimlənməsinin məqsədəmüvafiqliyi əsaslandırılmışdır.

Monoqrafiyada irəli sürülmüş müddəalar və təkliflər Azərbaycan Respublikasının ərazi quruluşunun təhlükəsizliyinin təmin edilməsi üçün mühüm hüquqi vasitə rolunu oynaya bilər. Tədqiqatın nəticələri Azərbaycan Respublikasının ərazi quruluşunun yaranması və inkişafı ilə bağlı tarixi, siyasi məlumatların təhlilinə əsaslandığına görə, dövlətin ərazi quruluşunun möhkəmləndirilməsi üzrə qanunvericiliyin təkmilləşdirilməsi, təşkilati və iqtisadi yönümlü tədbirlərin əsaslandırılması üçün böyük əhəmiyyət kəsb edir.

Tədqiqatın nəticələri qanunvericilik fəaliyyətində, dövlətin xarici siyasətinin ərazi ilə bağlı müddəalarının əsaslandırılmasında, habelə universitetlərdə və kolleclərdə dövlət və hüquq tarixi, konstitusiya hüququ, beynəlxalq hüquq, politologiya fənlərinin tədrisi prosesində elmi mənbə kimi istifadə edilə bilər.

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

# I FƏSİL

# AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏTİN ƏRAZİ QURULUŞUNUN TARİXİ VƏ HÜQUQİ ASPEKTLƏRİ

### *1.1 Dövlətin ərazi quruluşunun ümumi anlayışı*

Dünyanın istənilən dövlətində ərazi quruluşuna müstəsna əhəmiyyət verilməsi ənənəyə çevrilmişdir. Ümumən qəbul edilmişdir ki, ərazi insanların məskunlaşdığı məkandır. Konstitusiya hüququ elmində dövlət quruluşunun forması - dövlət hakimiyyətinin ərazi cəhətdən təşkili kimi qiymətləndirilir və bütünlükdə dövlətlə onun hissələri, mərkəzi və yerli dövlət hakimiyyət orqanları arasında qarşılıqlı münasibətləri ifadə edir. Dövlətin istənilən formada ərazi quruluşu özündə ölkənin əhalisinin məskunlaşdığı yeri, ümumi ərazisini, habelə əhalinin idarə edilməsini həyata keçirən xalq hakimiyyətini birləşdirir. Beləliklə, xalq hakimiyyəti ərazi anlayışı ilə bilavasitə əlaqədardır. Bu anlayışın çoxcəhətliliyi onun həm dövlətdən ayrılmayan maddi varlıq və həm də ölkə əhalisinin öz hakimiyyətini həyata keçirdiyi məkan kimi nəzərdən keçirilməsi ilə müəyyən edilir.

Dövlət ərazisi və onun tərkib hissələri arasında qarşılıqlı münasibətlərin xarakterinə uyğun olaraq dövlət





quruluşunun unitar və federativ formalarını fərqləndirmək lazımdır.

Unitar dövlət quruluşu dövlət hakimiyyətinin vahid sisteminin mövcudluğunu ehtiva etdiyi halda, federativ dövlət iki paralel sistemin olması ilə səciyyələnir. Unitar dövlətlər, bir qayda olaraq, yalnız inzibati ərazilərə bölünürlər və ona görə də "sadə" dövlətlər hesab edilirlər. Federasiyalarda hakimiyyət ərazi cəhətdən elə mürəkkəb tərkibdə təşkil edilir ki, burada federasiyanın subyektləri dövlətəbənzər qurumlar şəklində tanınmaqla mərkəzi hakimiyyətə münasibətdə unitar dövlətlərdə olan müstəqillik əlamətlərinə malik olurlar. Unitar və ya federal dövlətin ərazisinin bir hissəsində milli dövlət hakimiyyətini federal dövlətin və ya unitar dövlətin ali hakimiyyət orqanlarının müəyyən etdiyi hüdudlarda müstəqil həyata keçirən muxtar vahidlər (muxtar respublika, muxtar vilayət, muxtar mahal) yaradılır. Beləliklə, dövlətin mürəkkəb tərkibi onun tərkibində mərkəzi hakimiyyətdən asılılıq dərəcəsinə görə fərqlənən ərazi qurumlarının mövcud olması ilə şərtlənir.

Ərazi qurumu - hüdudlarında dövlət hakimiyyətinin və ya yerli özünüidarənin həyata keçirildiyi dövlət ərazisinin ayrılmış tərkib hissəsidir. Hər bir ərazi qurumunun əsası onun ərazisindən və həmin ərazidə yaşayan əhalidən ibarətdir. Ərazi qurumları özündə hüquq normaları ilə təsbit edilmiş hüquq və öhdəliklər sistemini cəmləşdirən müəyyən statusa malikdirlər. Bu hüquq normaları dövlət tərəfindən təyin edilir. Eyni zamanda müasir şəra-

itdə bir çox hallarda ərazi vahidlərinin özlərinin zəruri hüquqyaradıcı səlahiyyətlərə malik olmalarını da inkar etmək mümkün deyildir.

Ümumnəzəri planda ərazi qurumlarının malik olduqları hüquq və vəzifələrin həcmindən, məzmunundan və hədlərindən, dövlət idarəetməsinin təşkili səviyyəsindən asılı olaraq aşağıdakı üç növünü fərqləndirirlər:

- dövlət ərazi qurumları;
- muxtar ərazi vahidləri (muxtar respublika, muxtar vilayət və s.)
- inzibati ərazi vahidləri (rayon, şəhər, qəsəbə, kənd)

İnzibati ərazi qurumu - hüdudlarında dövlət hakimiyyəti orqanlarının fəaliyyət göstərdiyi, bəzi hallarda yuxarı dövlət orqanı tərəfindən yaradılan dövlətin ərazisinin ayrılmış tərkib hissəsidir. İnzibati qurumun hakimiyyət orqanı konstitusiya ilə müəyyən edilmiş səlahiyyət çərçivəsində müvafiq ərazinin hüdudlarında qüvvəyə malik olan normativ aktlar qəbul edir.

Tarixən dövlətin yaranması ilk növbədə onun məkan hüdudlarının mövcud olub-olmaması məsələsinin həlli ilə şərtləndirilirdi. İ.M.Cəfərovun fikrincə, özü-özlüyündə ərazi dövləti doğurmur. O, yalnız dövlət hakimiyyətinin şamil edildiyi məkan hüdudlarını müəyyən edir.[1] Ərazinin mövcud olması və həmin ərazidə əhalinin məskunlaşması dövlət hakimiyyətinin həyata keçirilməsinin ilkin şərtləri hesab olunur. Ölkənin inzibati-ərazi bölgüsü

[1] Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı, 2010, s.66





və ərazi qurumlarının yaradılması dövlət hakimiyyətinin səmərəli təşkil edilməsi zərurətindən irəli gəlir.

Konstitusion-hüquqi tədqiqatın məqsədinə uyğun olaraq ərazilərin təsnifatı ilə bağlı məsələnin əsaslandırılması və həll edilməsi zəruridir. Ərazilərin müxtəlif meyarlar əsasında fərqləndirilməsi məsələsinə hüquqi tədqiqatlarda geniş yer verilir. Ərazi növlərinin fərqləndirilməsi üçün birinci meyar dövlət ərazisinin tərkibini yaradan hissələrdən hər birinin mövcud olduğu məkan hüdudlarından asılı olaraq müəyyən edilə bilər.[1] Ərazinin və ona bərabər tutulan obyektin dövlətin ərazisi hüdudunda və ya ondan kənarda mövcud olmasından asılı olaraq beynəlxalq münasibətlərdə onun aşağıdakı növlərini fərqləndirmək məqsədəuyğundur:

a) dövlət ərazisi;
b) beynəlxalq rejimi olan ərazi;
c) qarışıq rejimi olan ərazi;
d) keçid rejimi olan ərazi;

Dövlət ərazisi - yer səthinin müəyyən dövlətin suverenliyi altında olan və başqa dövlətlərin ərazilərindən sərhədlə ayrılan hissəsidir. Dövlətin ərazisinin tərkibinə daxildir: a) quru ərazisi; b) daxili sular; c) ərazi suları; ç) quru ərazisinin, daxili suların və ərazi sularının təki; d) quru ərazisinin, daxili suların və ərazi sularının üzərində yerləşən hava məkanı.[2] Qeyd etmək lazımdır ki, yer kü-

[1] Brown E.D. The International Cases on the Sea.Vob.1-2. Dartmouth.1994,p.159
[2] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, Qanun nəşriyyatı, 2012, s.54

rəsinin müəyyən hissəsinin coğrafi məkan kimi dövlətin suverenliyi altında olan ərazi hesab edilməsi dövlət ərazisinin tərkibinə bir sıra digər obyektlərin də aid edilməsini istisna etmir. Belə ki, beynəlxalq hüquq mövqeyindən dövlətin bayrağı altında hərəkət edən dəniz və hava gəmiləri, xarici ölkələrdəki səfirliklərin və konsulluqların binaları, teleqraf kabelləri, enerji ötürücüləri, boru kəmərləri, dövlətə məxsus olan və onun ərazisi hüdudlarından kənarda yerləşən (quruda, suda, kosmosda və s.) digər obyektlər dövlət ərazisinə bərabər tutulan obyektlərdir. Açıq dəniz, Antarktida, onların üzərindəki hava sahəsi və kosmik fəza dövlət ərazisinə daxil edilir. Kontinental şelfin xüsusi stasusuna əsasən, burada sahilboyu ərazidə dövlət öz suveren hüquqlarını müstəqil həyata keçirir.

Beynəlxalq ərazilərə dövlətin ərazisinin hüdudlarından kənarda yerləşən quru və su məkanları, habelə tərkibində müstəsna iqtisadi zonaları və kontinental şelfi birləşdirən milli yurisdiksiyalı zona aid edilir. Bu tipli ərazilərin statusu beynəlxalq hüquqla müəyyən edilir və dövlətin suverenliyi həmin ərazilərə şamil edilmir.

Qarışıq rejimli ərazilərin sırasına Dünya okeanının məkanına aid edilən müstəsna iqtisadi zonalar, kontinental şelf və ona bitişik zona daxil edilir. Bu ərazilərin statusunun fərqli cəhəti ondan ibarətdir ki, onlar dövlət ərazisinin tərkibinə daxil edilmir, lakin sahilyanı dövlətlər həmin ərazilərdə canlı və mineral resursların kəşfiyyatı,





hasilatı və mühafizəsi məqsədilə suveren hüquqlarını və yurisdiksiyasını həyata keçirirlər.

Keçid rejimli ərazilərə icarəyə verilən torpaq və ya su sahələr, işğal altında olan ərazilər və s. aid edilir. Bu cür ərazilər üzərində suverenlik hüququ icarədara, ərazini işğal edən dövlətə keçmir. İcarə müqaviləsinin müddəti başa çatdıqda, dövlətlər arasında sülh müqaviləsi bağlandıqdan sonra ərazi üzərində dövlətin sahiblik hüququ bərpa olunur.

Ərazinin konstitusion-hüquqi kateqoriya kimi təhlilinə həsr olunmuş bütöv tədqiqat işləri olduqca azdır. Hüquqşünaslar yalnız Konstitusiyanın ərazi quruluşuna dair müddəalarının şərhində dövlət ərazisinin müvafiq hissələri və onların statusu haqqında fikir əsaslandırırlar. Müasir tədqiqatçıların əksəriyyəti ölkənin inzibati-ərazi bölgüsü, ərazi bütövlüyü və toxunulmazlığı, yerli özünüidarənin ərazi cəhətdən təşkili ilə əlaqədar ayrı-ayrı məsələləri araşdırmağa meyl göstərirlər.

Cəfərli N.H. "Səfəvilərin dövlət quruluşu" mövzusunda yazdığı dissertasiyada Səfəvilər dövlətinin suverenliyi altında olan ərazinin hüdudları, ölkənin inzibati-ərazi bölgüsü haqqında elmi əhəmiyyətli müddəalar əsaslandırmışdır. [1]

Əsgərov Z.A. "Konstutusiya hüququ" kitabında ərazini konstitusion-hüquqi kateqoriya kimi nəzərdən keçirir və unitar dövlətlərdə dövlət ərazisinin mərkəzdən bir-

[1] Cəfərli N.H. Səfəvilərin dövlət quruluşu. Diss...hüq. elm. dokt.,Bakı, 2002, s. 78.

başa asılı olaraq inzibati-ərazi vahidlərinə bölünməsinin zəruriliyini təsdiq edir.[1]

Cəfərov İ.M. ərazini dövlət hakimiyyətinin şamil edildiyi məkan hüdudları kimi müəyyən edir, Azərbaycan Respublikasının ərazisinin tərkibində beş əsas hissənin (quru hissə, daxili sular, sahil və ya ərazi suları, sərhəd çayları və gölləri, Azərbaycan Respublikasının sərhəddi daxilində olan yer səthi və su üzərində olan hava boşluğu) dövlətin suverenliyi altında olmasını əsaslandırır.[2]

Nağıyev F.T. "Konstitusiya hüququ" kitabında unitarizmin xüsusiyyətlərinin nəzəri təhlili əsasında Azərbaycan Respublikasının hakimiyyətin ərazi cəhətdən təşkilinə görə mürəkkəb unitar dövlət olması barədə nəticə çıxarır.[3]

Əliyev Ş.M. Azərbaycan Respublikası Konstitusiyasının dövlət ərazisinə dair müddəalarının elmi-praktiki kommentariyasında dövlətin ərazisi qismində Respublikanın tam və müstəsna suverenliyi altında olan quru, su və hava məkanını nəzərdən keçirir, Azərbaycanın Xəzər dənizində ərazi sularının xarici sərhəddinin müəyyən edilməsi ilə əlaqədar yaranmış vəziyyəti təhlil edir və yerin təkinin Konstitusiyanın dövlət ərazisinin tərkibini tənzimləyən maddəsi ilə nəzərdə tutulmadığını diqqət mərkəzində saxlayır.[4]

---

[1] Əsgərov Z.A. Konstitusiya hüququ.Dərslik.Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2011, s. 96-99.
[2] Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı, 2010, s. 65-67
[3] Nağıyev F.Konstitusiya hüququ. Mühazirə mətnləri. Bakı, Qanun, 2009, s. 41
[4] Əliyev Ş. Bələdiyyələrin səlahiyyətləri genişlənir-"Xalq Qəzeti",№ 34 (24904), 13 fevral 2005-ci il. s. 39-45.





Hüseynov L.H. hüquq elminin "ərazi" kateqoriyasının məzmunun beynəlxalq hüquq normalarına istinad etmədən öyrənilməsinin mümkün olmadığını nəzərə alaraq dövlət ərazisinin yer kürəsinin quru və su səthi, yerin təki, bütün hava məkanı, habelə kosmik fəza və orada yerləşən göy cisimlərindən ibarət olması və hüquqi rejiminə görə bütün bu ərazinin:

1) dövlət ərazisi;
2) beynəlxalq rejimi olan ərazi;
3) qarışıq rejimi olan ərazi növlərinə ayrılması barədə müddəa əsaslandırır.[1]

Göründüyü kimi, hüquqşünaslar Azərbaycan Respublikası Konstitusiyasının dövlət ərazisinin tərkibinə dair müddəasını olduğu kimi təhlil etmiş və hakimiyyətin ərazi cəhətdən təşkilinə görə Azərbaycan Respublikasının unitar dövlət olduğunu göstərmişlər.

Müasir Azərbaycan Respublikasının çoxsaylı ərazi problemlərinin SSRİ-nin ərazi quruluşundan miras qalması mübahisəsizdir. Həmin problemlərin həlli yollarının əsaslandırılmasında tanınmış sovet alimlərinin və hazırki rus tədqiqatçılarının ərazinin hüquqi rejimi haqqında elmi fikirlərinin nəzərə alınması olduqca əhəmiyyətlidir. Sovet hüquqşünaslarından Y.Q. Barseqovun, B.M. Klimenkonun, A.M. Ladıjenskinin, V.A. Rjevskinin, İ.P. Trayninin, N.A. Uşakovun, V.S. Şevtsovun və başqalarının tədqiqatları dövlətin ərazi quruluşunun elmi əsasları-

---

[1] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, Qanun nəşriyyatı, 2012, s. 54.

nın yaradılmasında mühüm rol oynamışdır. Bu tədqiqatların mərkəzində duran və böyük mübahisələrə səbəb olmuş əsas məsələ dövlət ərazisinin təyinatının müəyyən edilməsi ilə bağlı olmuşdur. Qərbdə geniş yayılmış "beynəlxalq mülkiyyət nəzəriyyəsi"nin (Laband, Rozen, Tsutelman, Martens, Oppenqeym, Layterpaxt və başqaları) dövlət ərazisinin dövlətin beynəlxalq-hüquqi mülkiyyəti olmasına dair müddəası sovet hüquqşünasları tərəfindən birmənalı qarşılanmamışdır. Misal üçün, A.M. Ladjenskiy hesab edirdi ki, "beynəlxalq-hüquqi əqdlərdə ərazi məkan hüdudu deyil, hüquqi obyekt kimi iştirak edir. Dövlət isə ərazinin mülkiyyətçisi rolunda çıxış edir".[1] B.M. Klimenko ərazinin hüquqi təbiəti haqqında məsələdə oxşar mövqe tuturdu. O, yazır: " Müəyyən ərazi hər hansı dövlətə mənsubdursa, deməli, o, həmin ərazinin mülkiyyətçisidir".[2]

SSRİ-də ərazinin sosialist mülkiyyəti obyekti olmasına dair bəzi hüquqşünasların irəli sürdükləri müddəa Y.Q.Barseqov tərəfindən rədd edilmişdir. Onun fikrincə, torpaq və dövlətin ərazisi fərqli anlayışlar olduğu üçün, dövlətin ərazisi üzərində deyil, yalnız torpaq üzərində dövlət-hüquqi mülkiyyəti haqqında danışmaq mümkün-

---

[1] Ладыженский А.М. Юридическая природа территориального верховенства. М., Вестник МГУ, 1948, s.43).
[2] Клименко Б.М. Государственная территория. Вопросы территории и практики международного права. М., 1974, с. 6.





dür.[1] Ərazinin mülkiyyət obyekti olmasına oxşar tənqidi münasibəti N.A.Uşakov da bildirmişdir.[2]

Cəmiyyətin dövlət təşkilinin zəruri şərti kimi dövlətin ərazi quruluşu əhalinin mərkəzdə və yerlərdə hakimiyyət aparatı ilə əlaqəsini təmin etmək məqsədi güdür.[3] Ərazi dövlət şəklində təşkil olunmuş cəmiyyətin həyatının maddi əsasıdır, hər bir dövlətin mövcudluğunun zəruri şərtidir. [4]

Dövlətin suverenliyinin realizə edilməsi forması kimi ərazi üstünlüyünü tədqiq edərək V.S.Şevtsov belə bir nəticəyə gəlir ki, dövlət hakimiyyətinin hər hansı ərazi hüdudlarında realizə edilməsi heç də o demək deyil ki, bu ərazi həmin dövlətə mənsubdur.[5] Dövlət icarədar qismində özünün hakimiyyətini məhdudlaşdırılmış hüdudlarda xarici dövlətin ərazisində həyata keçirirsə, icarəyə götürülən ərazi icarədar-dövlətin ərazisinin bir hissəsinə çevrilmir.

Dövlət ərazisinin hüquqi rejiminin düzgün müəyyən edilməsi sahəsində müasir rus hüquqşünas alimlərinin tədqiqatlarının nəticələrinin nəzərə alınması müstəqil Azərbaycan Respublikasının ərazi quruluşunun elmi

---

[1] Барсегов Ю. Г. Территория в международном праве. М., Госюриздат, 1958, s. 63-64.
[2] Ушаков А.Н. Суверенитет в современном международном праве. М., 1997, s. 109.
[3] Сысоева Е.А. Категория «территория» в правовой теории и практике законодательного регулирования федеративного устройства современной России: дисс.... канд. юрид. наук. М., 2008, s. 17.
[4] Трайнин И.П. Вопросы территории в государственном праве. // Известия АН СССР, 1947, № 4, с.217).
[5] Шевцов В.С. Государственный суверенитет (вопросы теории). М., Изд-во «Наука», 1979, s. 87).

əsaslarının yaradılması və inkişaf etdirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. 1991-ci ilin sonunda İttifaq müqaviləsi pozulduqdan sonra müttəfiq respublikalarda, o cümlədən Azərbaycan Respublikasında və Rusiya Federasiyasında həyata keçirilən konstitusion-hüquqi islahatların istiqamətlərinin eyni olması və Rusiya Federasiyasının keçmiş SSRİ-nin hüquqi varisi kimi tanınması müstəqil Azərbaycan Respublikasında dövlət quruculuğu və onun hüquqi institutlarının yaradılması ilə bağlı problemlərin həllində Rusiyanın elmi potensialından istifadə edilməsi üçün zəruri şərtləridir.

SSRİ-nin ərazisində yaranan yeni müstəqil dövlətlər, o cümlədən, Azərbaycan Respublikası konstitusion-hüquqi islahatların gedişində yeni mərhələdə xalqın suverenliyinin mahiyyətinin ərazi amili ilə əlaqəliliyinin əsaslandırılması, dövlətin daxili ərazi quruluşunu əks etdirən müddəanın yeni Konstitusiyada təsbit edilməsi, dövlətin ərazi quruluşunu yaradan ərazi vahidlərinin hüquqi statusunun müəyyən edilməsi, mərkəzi hakimiyyətlə ərazi vahidləri arasında qarşılıqlı münasibətlərin tənzimlənməsi kimi məsələlərlə qarşılaşdılar. Şübhəsiz ki, göstərilən məsələlərin düzgün həll edilməsinə inkişaf etmiş ölkələrin dövlət quruculuğu sahəsində təcrübəsini, hüquqşünas alimlərin konstitusion suverenlik və ərazi quruluşu institutlarının hüquqi məzmununu əks etdirən fikirlərini nəzərə almadan nail olmaq mükün deyildir. Bu mövqedən yuxarıda qaldırılan məsələlərin həlli istiqamətlərinin müəyyən edilməsi üçün akademik B.N.Toporninin





elmi rəhbərliyi altında hazırlanmış "Rusiya Federasiyasının Konstitusiyası: Elmi-praktiki şərh" (Moskva, 1997) kitabın müddəalarının mühüm əhəmiyyət kəsb etməsini etiraf etmək lazımdır. Müəlliflərin fikrincə, hər bir dövlətin ərazisi tərkib hissələrinə bölünür ki, bu da həmin dövlətin daxili quruluşunu, onun ərazi quruluşunu müəyyən edir.[1] Onlar Rusiya Federasiyası Konstitusiyasının 5-ci maddəsinin 1-ci hissəsini şərh edərək Rusiya Federasiyasının bütün ərazisinin onun subyektlərinin ərazilərinin cəmindən ibarət olması barədə nəticə çıxarırlar.[2]Qeyd etmək lazımdır ki, axırıncı müddəanı nəzərə alaraq Azərbaycan Respublikası Konstitusiyasının 11-ci ("Ərazi") maddəsinin II hissəsini şərh etməklə tam fərqli nəticə almaq mümkündür. Bu məsələ dissertasiya işinin II fəslinin birinci paraqrafında nəzərdən keçiriləcək.

O.E. Kutafin suverenliyi yalnız həqiqətdə mövcud olduğu halda dövlətin ayrılmaz əlaməti kimi nəzərdən keçirir, keçmiş SSRİ-nin və müasir Rusiya Federasiyasının dövlət quruluşuna istinadən suveren olmayan muxtar respublikaların keçmiş SSRİ-nin tərkibində respublikalar kimi Rusiya Federasiyasının tərkibində dövlət statusuna malik olmasının mümkünlüyünü etiraf edir.[3]

---

[1] Конституция Российской Федерации: Научно-практический комментарий. Под ред. акад. Б.Н. Топорнина. М., Юристъ, 1997, s. 108.

[2] Конституция Российской Федерации: Научно-практический комментарий. Под ред. акад. Б.Н. Топорнина. М., Юристъ, 1997, s.108

[3] Чиркин В.И. Государственная власть субъектов федерации. // Государственная власть и местное самоуправление. 2000, № 10, с. 83-84.

V.N. Çirkin federativ dövlətdə hakimiyyətin ərazi cəhətdən iki səviyyəyə: federasiya hakimiyyətinə və onun subyektinin hakimiyyətinə ayrılmasının qanunauyğunluğunu əsaslandırır.[1]

O.E. Kutafinin və V.N. Çirkinin irəli sürdüyü müddəalar unitar quruluşa malik olan dövlətlə onun tərkibində olan muxtar ərazi vahidi (muxtar respublika) arasında qarşılıqlı münasibətlərin konstitusion-hüquqi qaydada tənzimlənməsi üçün mühüm əhəmiyyət kəsb edir.

S.N.Baburin dövlət ərazisinin tərkibi (geoloji-coğrafi quruluşu) və dövlətin ərazi strukturu (siyasi-hüquqi mənada) anlayışlarının fərqliliyini fərz edir, ərazilərin aşağıdakı meyarlar üzrə təsnifatını əsaslandırır:

- sivilizasiyaların tarixi inkişafı;
- dünyanın dini təsviri;
- dövlətlərarası hüquqi münasibətlərdə hüquqi rejim;
- milli (daxili) hüquqda konstitusion mövqe; (90 s. 72-76)

S.N.Baburinin tədqiqatlarının nəticələrini nəzərə almaqla dövlətin ərazi quruluşunun müəyyən edilməsi, MDB ölkələrinin, o cümlədən, Azərbaycan Respublikasının mövcud ərazi problemlərinin düzgün həllinə nail olmaq mümkündür.

Rusiyalı tədqiqatçılardan E.S.Şuqrina "inzibati ərazi vahidinin (yaşayış məntəqəsinin) ərazisi" və "bələdiyyə qurumu ərazisi" anlayışlarının fərqləndirilməsini təklif

[1] Чиркин В.И. Государственная власть субъектов федерации. // Государственная власть и местное самоуправление. 2000, № 10, с.85.





edir.[1] Xüsusilə bu tədqiqatın nəticələrinin nəzərə alınması sayəsində Azərbaycan Respublikasının qanunvericilik sistemində "inzibati ərazi vahidlərinin ərazisi" və "bələdiyyə ərazisi" anlayışlarının tətbiq edilməsi sahəsində mövcud olan ziddiyyətlərin aradan qaldırılması mümkün ola bilər.

Dövlətin sərhədləri daxilində süni ərazilər, xüsusi təyinatlı inzibati ərazi vahidlərinin əraziləri kimi yeni ərazi vahidlərinin konstitusion-hüquqi statusunun müəyyən edilməsi istiqamətində D.A. Bıstrovanın "Rusiya Federasiyasının konstitusiya hüququnda ərazi" mövzusunda yerinə yetirdiyi tədqiqat işi özündə bir sıra mühüm nəzəri-praktiki əhəmiyyət kəsb edən müddəaları əks etdirir.[2]

Şübhəsiz ki, Konstitusiyanın müddəaları və hüquqşünasların həmin müddəalarla bağlı şərhləri dövlətin əsaslarının, o cümlədən,ərazi quruluşunun hərtərəfli konstitusion-hüquqi tədqiqi üçün mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda 1988-ci ilədək Azərbaycanın suverenliyi altında olmuş ayrı-ayrı ərazi hissələrinin statusu böyük dəyişikliklərə məruz qalmışdır ki,bu da onların hüquqi xarakteristikasının yenidən müəyyən edilməsi zəruriliyini ortaya qoyur. Belə ki, 1988-1994-cü illərdə respublikanın quru ərazisinin 20%-i Ermənistan tərəfindən işğal edilmiş, Azərbaycanın tərkibində mövcud olmuş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistan tərəfindən "Dağlıq

[1] Шугрина Е.С. Муниципальное право. М., 2009, s. 107.
[2] Быстрова Д.А. Территория в конституционном праве Российской Федерации. Дисс…канд. юрид. наук. М., 2010, с. 11.

Qarabağ Respublikası" elan edilmiş və eyni zamanda Dağlıq Qarabağın muxtar vilayət statusu AR Ali Soveti tərəfindən ləğv edilmişdir. Qeyd etmək lazımdır ki, işğal olunmuş ərazilərdə Azərbaycan dövlətinin suverenliyi işğalçıya keçmir və həmin ərazinin əvvəlki siyasi-hüquqi statusunun bərpa olunması məsələsi dövlətlərarası münasibətlərin predmetinə çevrilir. Azərbaycan Respublikası ilə Ermənistan arasında ərazi mübahisələrinin həlli istiqamətində son illər ərzində həyata keçirilən hərbi-siyasi xarakterli tədbirlərin yaxın gələcəkdə iki ölkə arasında sülh müqaviləsinin bağlanması ilə nəticələnməsi şübhə doğurmur. Bütün bunlar göstərir ki, 1988-1994-cü illərdə Azərbaycan Respublikasının işğal edilmiş ərazilərini öz statusuna görə keçid rejimi olan ərazilər hesab etmək mümkündür. Azərbaycanın işğal altında qalan ərazisinə tətbiq edilə bilən keçid rejiminin müddəti müharibənin sona yetməsi və işğalla bağlı münasibətlərin müqavilə qaydasında ləğv edilməsindən bilavasitə asılıdır.

Məlumdur ki, 25 yanvar 2002-ci ildə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Qəbələ Radiolakasiya Stansiyasının (RLS) statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında saziş imzalanmışdır. Qeyd etmək lazımdır ki, Qəbələ RLS-lə bağlı müqavilənin müddətinin 2012-ci il dekabrın 24-də başa çatması və müvafiq ərazidə icarə rejiminin aradan qaldırılması və Azərbaycan Respublikasının suverenliyi altında olan həmin ərazinin əvvəlki statusunun bərpa edilməsi nəticələnmişdir.





2011-ci ildən KİV-lərlə əhaliyə təqdim edilən "Xəzər adaları" adlı layihənin həyata keçirilməsi nəticəsində 2012-2023-cü illərdə Xəzər dənizində, Bakıdan 25 km cənubda yerləşən, 41 adadan ibarət 2000 hektar sahəni əhatə edən süni arxipelaq yaradılacaq. Layihə ilə süni adalarda 1 milyon nəfər insanın yaşaması üçün şəhər salınması planlaşdırılır. Xəzər dənizinin Azərbaycan sektorunda süni adaların yaradılması və bu adaların ərazisində 1 milyonluq əhali üçün hesablanmış müasir tipli şəhərin salınması şübhəsiz ki, Azərbaycan Respublikasının ərazi quruluşunda və inzibati ərazi bölgüsündə bir sıra ciddi dəyişikliklərin aparılmasına gətirib çıxaracaq. Hər şeydən əvvəl süni adaların ərazisinin dövlət ərazisi tərkib hissəsi kimi tanınması ilə əlaqədar məsələ konstitusion-hüquqi cəhətdən həll edilməlidir.

Dövlətin ərazi quruluşunun konstitusion-hüquqi tədqiqində coğrafi cəhətdən unitar dövlətin mərkəzi ərazisi ilə həmsərhəd olmayan və xarici ölkələrin əhatəsində yerləşən anklav ərazisinin hüquqi vəziyyəti ilə bağlı məsələ diqqəti cəlb edir. Azərbaycan Respublikasından cənubi-qərbdə yerləşən Naxçıvan Muxtar Respublikası özünün ərazisinə görə Azərbaycan üçün anklav hesab edilir. Unitar dövlət quruluşlu Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi kimi Naxçıvana muxtar dövlət statusunun verilməsi müstəsna olaraq coğrafi əsaslar, yəni ərazinin üç xarici dövlətin (İran, Türkiyə, Ermənistan) əhatəsində yerləşməsi və geosiyasi səbəblər nəzərə alınmaqla mümkün olmuşdur. Muxtar dövlətin ərazisinin

Azərbaycanın yurisdiksiyası altında olmasına baxmayaraq, muxtar ərazi vahidinin mülkiyyətində olan quru və su sahələri, yeraltı sahələr və hava sahələri, habelə onlara bərabər tutulmuş obyektlərin hüquqi müqəddaratının həlli, mərkəzlə muxtar respublika arasında rabitə və nəqliyyat əlaqələrinin səmərəli təşkili, habelə muxtar respublikanın beynəlxalq hüququn subyektləri ilə qarşılıqlı münasibətlərinin tənzimlənməsi, yaxud mərkəzin qəbul etdiyi aktların tətbiqi ilə əlaqədar yaranan problemlərin həlli qeyri-standart xarakter daşıdığından, mərkəzlə muxtar ərazi vahidi arasında ərazi münasibətlərinin tənziminin konstitusion-hüquqi vasitələrinin və üsullarının sabit sisteminin yaradılması zəruriliyi etiraf olunmalıdır.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında indiyədək öz həllini tapmamış mübahisəli ərazi məsələsi Azərbaycan Respublikasının ərazisində yerləşən və 1954-cü ildən otlaq ərazi qismində Dağıstan MSSR-ə müvəqqəti verilmiş Uryanoba və Xraxoba kəndlərinin sakinlərinin hüquqi statusunun müəyyən edilməməsi ilə bağlıdır. Həmin kəndlərin Dağıstan MSSR-in Məhərrəmkənd rayonunun Yeni Aul kəndinin inzibati tabeliyinə verilməsini nəzərdə tutan SSRİ Nazirlər Sovetinin 1954-cü ildə qəbul etdiyi qərar 1984-cü ilədək qüvvədə olmuş və 1984-cü ildə Azərbaycan SSR Nazirlər Soveti onun fəaliyyət müddətini 2004-cü ilədək uzatmışdı. Göstərilən müddətin bitməsinə baxmayaraq Uryanoba və Xraxoba kəndləri Azərbaycanın inzibati tabeliyinə verilməmiş və Rusiya Federasiyası həmin kəndlərin əraziləri üzərində





özünün yurisdiksiyasını həyata keçirməkdədir. Nəzərə almaq lazımdır ki, Uryanoba və Xraxoba kəndlərinin əraziləri Azərbaycan Respublikasının suverenliyi altındadır və həmin kəndlərin sakinləri Rusiya Federasiyasının vətəndaşları hesab olunurlar. Bu problemin 2004-cü ildən həll edilməməsinin başlıca səbəbini Azərbaycan torpaqlarının keçən əsrin ortalarından Dağıstan MSSR-ə verilməsini təsdiq edən SSRİ Nazirlər Sovetinin və Azərbaycan SSR Nazirlər Sovetinin qərarlarının qəbul və icra edilməsi sahəsində lazımi şəffaflığın olmaması və yerli əhalinin məlumatlandırılmaması ilə izah etmək mümkündür. Rəsmi Moskva isə öz tərəfindən 2004-cü ildən qüvvədən düşmüş İttifaq hökumətinin qərarına münasibət bildirmək əvəzinə Azərbaycanın şimal-şərqində ləzgi əhalisinin problemini ön plana çəkmiş və bu yolla Azərbaycanın Uryanoba və Xraxoba kəndlərinin Rusiyanın inzibati tabeliyində qalmasını əbədiləşdirməyə çalışır.

Lakin, bu məsələnin düzgün həllinə Azərbaycanın şimal-şərq rayonlarının yerli əhalisinin konstitusion hüquqlarının kütləvi surətdə pozulmasını əsas götürərək Uryanoba və Xraxoba kəndləri üzərində Azərbaycan Respublikasının suverenlik hüququnun bərpa olunmasını təmin edən hüquqi aktin qəbul edilməsi yolu ilə mümkündür. Bu baxımdan "Xaçmaz rayonunun Xraxoba kəndinin Palıdlı kəndi adlandırılması haqqında" Azərbaycan Respublikası Qanununun (22 noyabr 2013-ci il) qəbul edilməsi və 10 dekabr 2013-cü ildən qüvvəyə minməsi

həmin ərazi üzərində dövlətin suverenlik hüququnun həyata keçirilməsini təmin edir.

Milli təhlükəsizlik və ya müdafiə mülahizələrinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərin yerləşməsi ilə şərtləşdirilmiş xüsusi rejimli dövlət idarəetməsinin tətbiq edilməsi zərurəti ilə əlaqədar bəzi ərazi vahidləri, habelə ayrı-ayrı milli təhlükəsizlik və ya müdafiə təyinatlı ərazilər qapalı elan edilə bilər.

Azərbaycan Respublikasının Prezidentinin 24 avqust 2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Ərazi vahidlərinin, ayrı-ayrı milli təhlükəsizlik və ya müdafiə təyinatlı ərazilərin qapalı elan edilməsi və xüsusi rejimli dövlət idarəetmənin tətbiq edilməsi Qaydaları" na əsasən torpaq və mülkiyyət məsələlərinin həlli müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə razılaşdırmaqla qapalı ərazinin hüdudları Azərbaycan Respublikası Nazirlər Kabinetinin vəsatətində göstərilməlidir. Qapalı ərazinin hüdudları Azərbaycan Respublikasının ərazi vahidlərinin və ya inzibati ərazi vahidlərinin sərhədləri ilə uyğun gəlməyə bilər.

Xüsusi obyektin fəaliyyətinin və əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə vətəndaşların qapalı əraziyə giriş-çıxışı, orada daimi yaşaması, habelə qapalı ərazinin üzərindən uçuşlar məhdudlaşdırılır, xüsusi obyektin ətrafında qadağan zonaları müəyyən edilir.

Qapalı ərazidə yerli əhalinin sosial-mədəni və digər tələbatlarının ödənilməsi və ya istehsal fəaliyyəti ilə məşğul olan müəssisə, idarə və təşkilatlar fəaliyyət göstərir-





lər. Əraziyə qapalı statusu verilənədək orada fəaliyyət göstərmiş hüquqi şəxslər başqa ərazilərə köçürülməlidir və köçürmə prosesində onlara vurulmuş zərər qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilməlidir.

Qapalı ərazilərdə xarici fiziki və hüquqi şəxslərin iştirakı ilə yaradılmış və xarici investisiyalı hüquqi şəxslərin olmasına və fəaliyyət göstərməsinə yol verilmir.

Qapalı ərazidə xüsusi rejimli dövlət idarəetmə xüsusi obyektin rəhbəri, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin yerli bölməsinin rəisi ilə birlikdə müvafiq inzibati ərazi vahidinin icra hakimiyyətinin başçısı tərəfindən təmin edilir. Torpaq və torpaqdan istifadə, mülkiyyət məsələləri qapalı ərazilərin xüsusiyyətləri nəzərə alınmaqla müvafiq qanunvericiliklə tənzimlənilir. Xüsusi obyekt yalnız dövlət mülkiyyətində olan və ya qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət mülkiyyətinə alınmış torpaqlarda yerləşə bilər.

Göründüyü kimi, qapalı ərazilərin sosial-iqtisadi inkişafı ilə bağlı məsələlərin həllində yerli icra hakimiyyətləri ilə bələdiyyələrin qarşılıqlı fəaliyyətinin hüquqi rejiminin müəyyən edilməməsi diqqətdən kənarda qalmışdır.

Dövlətin daxili və xarici funksiyalarının həyata keçirilməsi ilə əlaqədar olaraq zəruri hallarda dövlət ərazisinin ayrı-ayrı yerlərində fövqəladə vəziyyət tətbiq edilir. Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsi ilə dövlət ərazisinin bu və ya digər hissəsində fövqəladə vəziyyətin tətbiq edilməsi üçün aşağıdakılar əsas hesab edilir:

1) təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji və başqa qəzalar baş verdikdə;

2) Azərbaycan Respublikasının ərazi bütövlüyünün pozulmasına, dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə yönəldilən hərəkətlər edildikdə;

3) zorakılıqla müşayiət olunan kütləvi iğtişaşlar yarandıqda, vətəndaşların həyatı və təhlükəsizliyi, yaxud dövlət təsisatlarının normal fəaliyyəti üçün qorxu törədən digər münaqişələr meydana gəldikdə.

Fövqəladə vəziyyət Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilir.

Fövqəladə vəziyyətin tətbiq edilməsi, şərtləri və əsasları "Fövqəladə vəziyyət haqqında"Azərbaycan Respublikasının Qanunu (8 iyun 2004-cü il) ilə tənzimlənir.

Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin hüquqi rejimini müəyyən edən müddəalar aşağıdakılardır:

1. Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazinin hüdudları və onun qüvvədə olduğu müddət Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilir;

2. Fövqəladə vəziyyətin qüvvədə olduğu müddət ərzində onun tətbiq edildiyi ərazidə ictimai asayişin, dövlət mühafizəsi altında olan obyektlərin, habelə əhalinin həyat fəaliyyətini və nəqliyyatın işini təmin edən tədbirlər "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun (8 iyun 2004-cü il) 8-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada həyata keçirilir;

3. Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin konstitusion hüquq





və azadlıqlarının, habelə mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi şəxslərin hüquqları və qanuni mənafeləri qanunla müəyyən edilmiş qaydada məhdudlaşdırılır;

4. Fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə yaradılan xüsusi idarəetmə orqanları öz səlahiyyətləri daxilində fövqəladə vəziyyət rejiminin təmin olunması məsələlərinə dair icra olunması məcburi sayılan əmr və sərəncamlar vermək hüququna malikdir;

5. Azərbaycan Respublikası ərazisinin 25 faizindən çoxunda fövqəladə vəziyyət elan edildikdə, həmçinin fövqəladə vəziyyətin ləğv edilməsindən sonra 3 ay müddətində referendum və ya seçkilər, yaxud yerli rəy sorğusu keçirilə bilməz.

Yuxarıda ifadə olunan müddəaların təhlili fövqəladə vəziyyətin Azərbaycan Respublikasının bütün ərazisində deyil, yalnız ayrı-ayrı yerlərində tətbiqini nəzərdə tutan qanunvericilik aktlarının qüsurluluğunu qeyd etməyə əsas verir. Belə ki, təbii fəlakətlər, epidemiyalar, epizootiyalar, böyük ekoloji qəzalar öz miqyasına görə ölkənin bütün ərazisini əhatə edə bilər və bu halda fövqəladə vəziyyət rejiminin bütünlükdə ölkə üzrə tətbiq edilməsi istisna edilməməlidir. Bundan savayı Azərbaycan Respublikası Prezidentinin fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında Fərmanının Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 24 və ya 72 saat ərzində təsdiq edilməsi fövqəladə vəziyyətin tətbiq edildiyi ərazidə təcili xilasetmə və bərpa tədbirlərinin yubadılması ilə nəticələnir.

Ona görə də, Azərbaycan Respublikası Prezidenti tərəfindən fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında Fərmanın Azərbaycan Respublikası Milli Məclisi tərəfindən bu məsələyə dair qərar qəbul etməsi prosedurlarının sadələşdirilməsinin zəruriliyini etiraf etmək lazımdır.

Azərbaycan Respublikası Konstitusiyasının 111-ci maddəsinə və "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununa (6 yanvar 1994-cü il) uyğun olaraq Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı yerlərində müharibə vəziyyəti elan olunduqda və ya Azərbaycan Respublikasına silahlı hücum və ya təcavüz təhlükəsi olduqda hərbi vəziyyət tətbiq edilir.

Hərbi vəziyyət Azərbaycan Respublikası Prezidentinin fərmanı əsasında tətbiq edilir. Fərmanda hərbi vəziyyətin tətbiq edilməsinin əsasları, hərbi vəziyyət tədbirlərinin siyahısı və hədləri, hüquq və azadlıqların müvəqqəti məhdudiyyətlərinin tam siyahısı, hərbi vəziyyət tədbirlərinin həyata keçirilməsi üçün cavabdeh olan dövlət orqanları və onların səlahiyyətləri, hərbi vəziyyət tətbiq olunan ərazinin sərhədləri və fərmanın qüvvəyə minməsi vaxtı göstərilir.

Hərbi vəziyyət şəraitində dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyəti, habelə insan və vətəndaş hüquqları və azadlıqları məhdudlaşdırılır, mülkiyyət formasından asılı olmayaraq kommersiya təşkilatlarının iş rejimi dəyişdirilir. Müdafiə ehtiyaclarının yerinə yetirilməsini təmin etmək məqsədilə vətəndaşların, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə-





lərin, idarələrin, təşkilatların və onların rəhbərlərinin üzərinə əlavə vəzifələr (məsələn, işçilərin iş vaxtından artıq işə cəlb olunması, əmək müqaviləsinin bağlanması və xitam edilməsi, müəssisə və təşkilatların ehtiyatlarının hərbi vəziyyətin ehtiyacları üçün səfərbərliyə alınması və s.) qoyulur.

Hərbi vəziyyət rejiminin pozulması qanunvericilikdə nəzərdə tutulmuş cinayət, inzibati intizam və maddi məsuliyyətə səbəb olur.

Beləliklə, hərbi vəziyyət tətbiq olunan ərazi dövlət ərazisi statusunu özündə saxlamaqla, xüsusi hüquqi tənzimləmə vasitələrinin və metodlarının köməyi ilə əvvəlki sülh vəziyyətindən müharibə vəziyyətinə gətirilir və müharibə dövrünün tələblərinə uyğun olaraq istifadə olunur.

Azərbaycan Respublikası dövlət sərhədinin müəyyən edilməsi və onun qorunmasının təmin olunması ilə bağlı münasibətlər "Azərbaycan Respublikasının dövlət sərhəddi haqqında" Azərbaycan Respublikasının Qanunu (9 dekabr 1991-ci il) ilə tənzimlənir. Qanunun "Sərhədboyu rejim" adlanan üçüncü fəslinin normalarına uyğun olaraq Azərbaycan Respublikasının dövlət sərhəddində lazımi qaydanı təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti sərhədboyu zona və sərhədboyu zolaq müəyyən edir. Sərhədboyu zonanın hüdudları sərhədyanı rayonların ərazisində, yerli şəraitdən asılı olaraq müəyyən edilir. Sərhədboyu zonanın tərkibinə Azərbaycan Respublikasının ərazi və daxili suları da

daxil edilir. Eni 1 kilometrədək olan sərhədboyu zolaq bilavasitə Azərbaycan Respublikasının dövlət sərhəddi xətti boyunca quru hissələrdə və ya sərhədboyu çayların, göllərin və başqa sututarların sahilləri boyunca müəyyən edilir. Sərhədboyu zona və sərhədboyu zolaq dövlət ərazisinin tərkibinə daxildir.

Dövlət sərhədlərinin mühafizəsi üçün zəruri şəraitin yaradılması sərhədboyu rejimlə təmin olunur. Sərhədboyu rejim Azərbaycan Respublikasının vətəndaşlarının və başqa şəxslərin gəlməsi, müvəqqəti yaşaması, bir yerdən başqa yerə getməsi, işlərin görülməsi, motorlu və motorsuz gəmilərin yanalma körpülərində uçota alınması və saxlanması, Azərbaycan Respublikasının ərazi və daxili sularında onların üzməsi və hərəkət etməsi qaydalarını tənzimləyir.

Azərbaycan Respublikasının dövlət sərhəddindən keçən dəmiryolu, avtomobil, dəniz, çay, hava nəqliyyatı ilə əlaqəsini və başqa əlaqələri sərhəd qoşunları sərhədburaxılış məntəqələrində Azərbaycan Respublikasının qanunvericiliyinə və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrinə uyğun olaraq həyata keçirir. Azərbaycan Respublikası dövlət sərhəddinin buraxılış məntəqələrində sərhəd qoşunlarının nəzarət-buraxılış məntəqələri və gömrük idarələri yaradılır.

Sərhəd çaylarının, göllərinin və digər sututarlarının Azərbaycan Respublikasına məxsus hissəsində gəmiçilik, sudan istifadənin başqa növləri, müxtəlif hidroqurğular tikilməsi, digər işlərin görülməsi, Azərbaycan Respublikasının dövlət sərhəddində torpaqlardan, meşələrdən, heyvanlar aləmindən istifadə edilməsi, filizçıxarma, geoloji axtarışlar və digər təsərrüfat fəaliyyəti Azərbaycan Respublikasının qanunlarına, beynəlxalq müqavilələrə uyğun olmalı və Azərbaycan Respublikasının dövlət sərhəddində lazımi qayda təmin olunması şərtilə həyata keçirilməlidir.





Hüququn ayrı-ayrı sahələrində "gömrük ərazisi" və "gömrük sərhəddi" anlayışlarından istifadə edilməsi dövlət ərazisinin tərkibində gömrük ərazisinin xüsusi hüquqi rejimi olan ərazi kimi nəzərdən keçirməyə əsas vermir. Bu müddəanın düzgünlüyünü təsdiq etmək üçün Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 3-cü maddəsinin ("Gömrük ərazisi və gömrük sərhəddi") aşağıdakı iki müddəasına istinad etmək kifayətdir:

1) "3.1. Azərbaycanın Respublikasının ərazisi vahid gömrük ərazisidir";

2) "3.5. Sərbəst zonaların perimetrləri istisna olmaqla, gömrük sərhəddi Azərbaycan Respublikasının dövlət sərhəddi ilə üst-üstə düşür".

Xüsusi iqtisadi zonanın ərazisi dövlət ərazisinin xüsusi hüquqi rejimin tətbiq edildiyi məhdud hissəsidir. Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması və idarə edilməsi, həmin zonalarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı hüquqi və iqtisadi münasibətlər "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının Qanunu (14 aprel 2009-cu il) ilə tənzimlənir.

Xüsusi iqtisadi zonanın yaradılmasının məqsədi xüsusi hüquqi rejimin və müasir texnologiyaların tətbiqi əsasında rəqabət qabiliyyətli yeni istehsal və xidmət sahələrinin təşkili yolu ilə Azərbaycan Respublikasında sahibkarlığın və bütövlükdə iqtisadiyyatın inkişafını sürətləndirməkdir. Xüsusi hüquqi rejim dedikdə, sahibkarlıq fəaliyyətinin güzəştli şərtlərlə həyata keçirilməsi üçün xüsusi iqtisadi zona ərazisində onun rezidentlərinə (Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq dövlət qeydiyyatına alınmış və xüsusi iqtisadi zonanın qeydiyyat şəhadətnaməsini almış hüquqi və fiziki şəxslərə) tətbiq edilən rejim nəzərdə tutulur.

Xüsusi iqtisadi zonanın yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti tərəfindən qəbul edilən qərarda xüsusi iqtisadi zonanın yaradılmasının məqsədi, təyinatı, fəaliyyət müddəti və maliyyələşdirmə mənbələri müəyyən edilir.Xüsusi iqtisadi zonanın yaradılması haqqında qərarda müəyyən edilmiş müddət bitdikdən sonra ləğv edilir.

Xüsusi iqtisadi zonanın idarə olunması və inkişaf etdirilməsi iqtisadi zonanın administrasiyası və müsabiqə yolu ilə seçilmiş operator tərəfindən həyata keçirilir.

Xüsusi iqtisadi zonanın ərazisində dövlət mülkiyyətində olan torpaq sahələri üzərində dövlət idarəetməsi xüsusi iqtisadi zonanın fəaliyyət müddətində xüsusi iqtisadi zonanın adminstrasiyası tərəfindən həyata keçirilir.

Xüsusi iqtisadi zonada icra və yerli özünüidarəetmə (bələdiyyə) orqanları öz səlahiyyətlərini xüsusi iqtisadi





zona haqqında qanunvericiliyin tələblərini nəzərə almaqla həyata keçirirlər.

Müəyyən landşaft zonası üçün tipik və ya nadir əraziləri onların bütün komponentləri ilə birlikdə təbii vəziyyətdə qoruyub saxlamaq və təbiətin qorunmasının elmi əsaslarını işləyib hazırlamaq məqsədilə yaradılan dövlət qoruqları dövlət əraziləri sistemində xüsusi hüquqi rejimi ilə fərqlənən ərazilər hesab edilirlər. Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun normalarına uyğun olaraq dövlət qoruqlarının istifadəsinə verilmiş torpaq sahələri, yerin təki və su sahələri onların hüdudlarındakı bütün təbiət obyektləri ilə birlikdə təsərrüfat istismarından çıxarılır. Dövlət qoruqlarında onların təyinatı ilə əlaqədar olmayan, təbiət komplekslərini pozan və təbiət obyektlərinin vəziyyəti üçün təhlükəli olan təsərrüfat fəaliyyəti qadağan edilir. Dövlət təbiət qoruğu hansı obyektlərin qorunması üçün yaradılmışsa, həmin obyektlərdən istifadə qadağan edilir. Məsələn, "Azərbaycan Respublikasının Qarayazı Dövlət Təbiət Qoruğu haqqında" Əsasnaməyə (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 3 avqust tarixli 148 nömrəli qərarı ilə təsdiq edilmişdir) uyğun olaraq qoruğun torpaqlarından, habelə onun hüdudlarında olan sudan, bitki və heyvanlar aləmindən təsərrüfat məqsədləri üçün istifadə edilməsi qadağandır.

Təbiət obyektlərinin dövlət tərəfindən mühafizə edilməsi sahəsində başlıca vəzifə onları elmi, mədəni-maarif

və estetik məqsədlər üçün təbii vəziyyətində saxlamaqdan ibarətdir. "Azərbaycan Respublikasının Dövlət təbiət və biosfer qoruqlarının ümumi Əsasnaməsi" (Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir) qlobal ekoloji monitorinqin həyata keçirilməsi üçün fəaliyyət göstərən və ya yenidən təşkil edilən dövlət təbiət qoruqlarına dövlət təbiət biosfer qoruqları statusu verir və dövlət təbiət bisofer qoruqları beynəlxalq biosfer rezervatlar sisteminə daxil edilməsinin mümkünlüyünü təsbit edir.

"Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanununa (24 mart 2000-ci il) əsasən dövlət təbiət və biosfer qoruqlarının təşkili üçün ayrılmış torpaq sahələri onların daimi istifadəsinə verilir.

Dövlət təbiət və biosfer qoruqlarının əraziləri respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazilərə xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilir.

Dövlət təbiət və biosfer qoruqlarında təbiət qoruq fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, bu ərazilərin perspektiv inkişafı şəbəkəsinin müəyyən edilməsi, mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsi məqsədi ilə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı aparılır.

Azərbaycan Respublikası Konstitusiyasının 14-cü maddəsində göstərilir ki, təbii ehtiyatlar hər hansı fiziki





və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur. Buradan aydındır ki, ölkənin bütün ərazisində yerləşən torpaq sahələri əsas təbii sərvət kimi Azərbaycan Respublikasına mənsubdur, bu isə həmin sərvət üzərində mülkiyyət hüququnun ayrılmasını istisna etmir.

Azərbaycan Respublikası Konstitusiyasının və Torpaq Məcəlləsinin normalarına uyğun olaraq Azərbaycan Respublikasında torpaq sahələri üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyət növləri mövcuddur.

Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 46-cı maddəsinə əsasən dövlət mülkiyyətində olan torpaqlara aşağıdakılar daxildir:

-dövlət hakimiyyət orqanlarının yerləşdiyi torpaqlar, dövlət obyektlərinin, dağ-mədən sənayesinin, təsdiq edilmiş faydalı qazıntı yataqlarının, vahid energetika sisteminin, magistral boru kəmərlərinin, nəqliyyat, rabitə və müdafiə obyektlərinin, dövlət sərhəd zolaqlarının, mühüm meliorasiya və su təsərrüfatı obyektlərinin yerləşdiyi torpaqlar;

- yay və qış otlaqlarının, mal-qara düşərgələrinin və köç yollarının torpaqları;

- meşə fondu torpaqları;

- Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin su fondu torpaqları;

- Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 80-130 metrlik zolağının altında olan torpaqlar;

- təbiəti mühafizə, təbii-qoruq, sağlamlaşdırma istirahət (rekreasiya), tarix-mədəniyyət təyinatlı torpaqlar, habelə üzərində təsərrüfat fəaliyyəti qadağan edilmiş qanunla qorunan digər ərazilərin torpaqları;

- dövlət elmi-tədqiqat və tədris müəssisələrinin, onların təcrübə bazalarının, maşın-sınaq stansiyalarının, dövlət sort-sınaq xidmətinin, toxumçuluq və damazlıq təsərrüfatlarının torpaqları;

-dövlət müəssisə, idarə və təşkilatlarının daimi istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş torpaqlar;

-dövlət ehtiyat fondu torpaqları;

Göstərilən torpaqlar dövlətin müstəsna mülkiyyətindədir, həmin torpaqlar qanunvericiliklə müəyyən olunmuş qaydada istifadəyə və icarəyə verilə bilər.

Azərbaycan Respublikasının Konstitusiyasının 142-ci maddəsində Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş ərazilərdə yerli özünüidarənin bələdiyyələr tərəfindən həyata keçirilməsinə dair müddəa təsbit edilmişdir. Torpaq üzərində bələdiyyə mülkiyyəti, "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanununa (16 iyul 1996-cı il) uyğun olaraq müvafiq ərazi vahidi daxilində dövlət mülkiyyətində saxlanılan və xüsusi mülkiyyətə verilən torpaqlar çıxılmaqla qalan torpaqlar, habelə qanunvericiliklə müəyyən edilmiş qaydada başqa torpaq mülkiyyətçilərindən bələdiyyələrə keçən torpaqlar hesabına yaranır.





Bələdiyyə mülkiyyətinə verilən torpaqlara daxildir: ümumi istifadədə olan torpaqlar; fiziki və hüquqi şəxslərin istifadəsində olan torpaqlar; ehtiyat fondu torpaqları.

Bələdiyyə mülkiyyətində olan torpaqlara sərəncam verilməsini, həmin torpaqların istifadəsi və mühafizəsi sahəsində idarəetməni bələdiyyələr həyata keçirirlər.

Torpaq üzərində hüquqi və fiziki şəxslərin xüsusi mülkiyyət hüququ dövlət və bələdiyyə torpaqlarının özəlləşdirilməsi, alqı-satqısı, vərəsəliyə keçməsi, bağışlanması, dəyişdirilməsi və torpaqla bağlı digər əqdlərin, habelə hüquqi şəxslərin nizamnamə (pay) fonduna verilməsi əsasında yaranır.

Torpaq, yerin təki, sular, Xəzər dənizinin sahilyanı şelfi Azərbaycan xalqının milli sərvəti və Azərbaycan Respublikasının mülkiyyətidir.Bu mülkiyyət bilavasitə dövlətin, Naxçıvan Muxtar Respublikasının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin mülkiyyətində olan torpaqlardan ibarətdir. Diqqəti özünə cəlb edən cəhət ondan ibarətdir ki, müstəqil ərazi qurumu kimi Naxçıvan Muxtar Respublikasının torpaq üzərində mülkiyyət hüququ Azərbaycan Respublikasının Torpaq Məcəlləsində və "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanununda (16 iyul 1996-cı il) təsbit edilməmişdir. Məlumdur ki, muxtar respublika muxtariyyətin dövlət-siyasi forması olub, unitar dövlətin (Azərbaycan Respublikasının) ərazisinin bir hissəsində özünüidarə forması (ərazi muxtariyyəti) kimi təsis edilir.

Azərbaycan Respublikasının tərkibində muxtar respublika olduğu halda, "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununda "muxtar ərazi vahidi" anlayışı göstərilmir. Qeyd edək ki, həmin qanunda ərazi vahidləri kimi yalnız rayon, şəhər, qəsəbə və kənd qeyd olunmuşdur.

Yuxarıda ifadə olunanlar Naxçıvan Muxtar Respublikasının ərazisinin hüquqi rejiminin konstitusion-hüquqi mövqedən müəyyən edilməsi ilə bağlı bir sıra problemlərin mövcud olduğunu təsdiq edir.

Dövlətin və bələdiyyələrin mülkiyyətində olan torpaqların istifadəyə və icarəyə verilməsi, habelə dövlət ehtiyacları üçün bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq üzərində mülkiyyət, istifadə və icarə hüquqlarına xitam verilməsi yolu ilə həmin torpağın mülkiyyətçidən könüllü və ya məcburi qaydada əvəzi ödənilməklə dövlət tərəfindən satın alınması qaydaları Azərbaycan Respublikasının Torpaq Məcəlləsi və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında " Azərbaycan Respublikasının Qanunu (20 aprel 2010-cu il) ilə nəzərdə tutulmuşdur. Bu cür əqdlərin icra edilməsi nəticəsində icarəyə verilən və satın alınan torpaq sahələrinin hüquqi rejimi dəyişilir və həmin torpaqların keçid rejimi olan ərazilərə aid edilməsini məqsədəmüvafiq hesab etmək mümkündür.

Yuxarıda göstərilən tədqiqatlar Azərbaycan Respublikasında dövlətin ərazi quruluşunun konstitusion-hüquqi əsaslarının öyrənilməsində elmi mənbə rolu oynaya bilər





ki, bu da həmin mənbələrə tənqidi münasibət bildirməsini istisna etmir.

Dövlətin ərazi quruluşunun elmi-nəzəri anlayışının tədqiqini aşağıdakı müddəalarla yekunlaşdırmaq mümkündür.

1. Ərazi-yer səthinin hər hansı dövlətin suverenliyi altında olan və dövlət hakimiyyətinin həyata keçirilməsinin məkan hüdudlarını müəyyən edən hissəsidir. Dövlətin mövcudluğu ilə ərazi arasında asılılıq birtərəfli ola bilər: müəyyən ərazi olmadan dövlət mövcud ola bilməz, ərazi dövlətin olub-olmamasından asılı olmayaraq həmişə mövcuddur.

2. Dövlətin ərazisinin tərkib hissələrə bölünməsi onun ərazi quruluşunu yaradır. Bu baxımdan dövlətin bütün ərazisi onun subyektlərinin ərazilərinin cəmindən ibarətdir. Dövlətin ərazisinin öz fiziki-coğrafi vəziyyətinə görə ayrı-ayrı hissələrə (fiziki komponentlərə) bölünməsi onun coğrafi quruluşunu ifadə edir. Fiziki-coğrafi mövqedən quru ərazi, daxili sular, ərazi suları, quru ərazisinin, daxili suların və ərazi sularının təki, habelə quru ərazisinin, daxili suların və ərazi sularının üzərində yerləşən hava məkanı dövlət ərazisinin tərkib hissələridir.

Azərbaycan Respublikasının ərazisi Naxçıvan Muxtar Respublikasının və inzibati-ərazi vahidlərinin ərazilərinin cəminə bərabər olmaqla, öz tərkibində quru ərazini, daxili suları, ərazi sularını, habelə onların altında yerləşən təki və üzərindəki hava məkanını birləşdirir.

3. Dövlətin ərazisi dövlət hakimiyyətinin məkan hüdudlarında və ya ondan kənarda mövcud olmasından asılı olaraq beynəlxalq münasibətlərdə aşağıdakı növlərə ayrılır:

- dövlət ərazisi;
- beynəlxalq rejimi olan ərazi;
- qarışıq rejimi olan ərazi;
- keçid rejimi olan ərazi;

4. Ölkənin idarə edilməsi sisteminin düzgün qurulması mərkəzi hakimiyyətdən asılılıq dərəcəsinə görə fərqlənən ərazi qurumlarının mövcud olması ilə şərtlənir.

Ərazi qurumu- hüdudlarında dövlət hakimiyyətinin və yerli özünüidarənin həyata keçirildiyi Azərbaycan Respublikasının ərazisinin ayrılmaz tərkib hissəsidir.

Dövlət idarəetməsinin təşkili səviyyəsindən asılı olaraq ərazi qurumlarına aşağıdakılar aid edilir:

- Azərbaycan Respublikasının dövlət ərazisi;
- muxtar ərazi vahidi;
- inzibati ərazi vahidləri.

5. Torpaq, yerin təki, sular, Xəzər dənizinin sahilyanı şelfi Azərbaycan xalqının milli sərvəti və Azərbaycan Respublikasının mülkiyyətidir. Bu mülkiyyət bilavasitə dövlətin, Naxçıvan Muxtar Respublikasının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin sərəncamında olan sərvətlərindən ibarətdir. Tədqiqat Naxçıvan Muxtar Respublikasının mülkiyyət hüququnun Azərbaycan Respublikasının Torpaq Məcəlləsində və "muxtar ərazi vahidi" anlayışının "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununda təsbit edilmədiyini təsdiq edir.





6. Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini elan etdikdən sonra xalq hakimiyyətinin ərazi amili ilə əlaqələndirilməsi, dövlətin ərazi quruluşunu əks etdirən müddəanın Konstitusiya ilə təsbit edilməsi, ərazi vahidlərinin və ayrı-ayrı ərazi növlərinin hüquqi statusunun təyin edilməsi, ərazi mübahisələrinin həll edilməsi ilə bağlı çoxlu sayda problemlərin mövcudluğu ilə qarşılaşmışdır ki, bu da dissertasiya işinin 2-ci fəslində aparılan tədqiqatın predmetini təşkil edir.

## *1.2 Azərbaycan dövlətinin ərazi quruluşunun yaranması və inkişafı mərhələləri*

Dövlətin ərazi quruluşunun öyrənilməsi bu anlayışın mənşəyinin aydınlaşdırılmasından başlanır. Tədqiq olunan məsələnin tarixinə müraciət edərək, qeyd etmək lazımdır ki, dövlət quruluşunun tərkib elementləri hesab edilən ərazi, dövlət hakimiyyəti və əhali haqqında anlayışlar bəşər sivilizasiyasına çoxdan məlumdur. Özünün suveren hüququnu realizə edən Azərbaycan xalqı dövlətin qurulması, ölkənin idarə olunması və əhalinin həyat fəaliyyətinin təmin edilməsi ilə bağlı problemlərin həll edilməsi kimi məsələlərlə müxtəlif tarixi mərhələlərdə, xüsusilə son dövrlərdə qarşılaşmışdır. Əvvəlki dövrlərdə xalqın həyatında baş vermiş hadisələr və bu hadisələrin

nəticəsi kimi miras qalmış mübahisəli hakimiyyət və ərazi məsələləri yalnız müasir tədqiqatçıları deyil, həm də dövlət rəhbərlərini və siyasətçiləri böhranlı vəziyyətdən çıxmaq yollarının axtarışı ilə ciddi məşğul olmağa məcbur edir.

Bununla birlikdə, Azərbaycanın ən qədim zamanlardan indiyədək itirilmiş ərazilərinin miqyasının daima artması diqqətdən yayınmır. Respublikada müxtəlif etnik toplumların məskunlaşdığı ərazilərin inzibati cəhətdən idarə olunması sahəsində xeyli tarixi təcrübə qazanılmasına baxmayaraq, xarici dövlətdən idarə olunan bəzi separatçı ünsürlər müstəqil Azərbaycan dövlətinin ərazisinin parçalanması istiqamətində fəaliyyət göstərirlər.

Yuxarıda ifadə olunanlar Azərbaycan Respublikasının ərazi-dövlət sisteminin səciyyələndirilməsində inzibati ərazi quruluşunun müxtəlif tarixi mərhələlərdə öyrənilməsinin və ayrı-ayrı dövrlər arasında tarixi əlaqələrin əsaslandırılmasının əsas istiqamət olmasını təsdiq edir.

Sovet hakimiyyəti illərində bu əlaqə süni surətdə və saxta dəlillərlə əsaslandırılırdı ki, bunun da nəticəsində cəmiyyətin əvvəlki tarixi mərhələlərdə idarə olunması və inzibati ərazi bölgüsü haqqında elmi əhəmiyyət kəsb edə bilən məlumatlar dövlət və hüquq tarixindən silinirdi.

İfadə olunan kontekstdə qeyd etmək lazımdır ki, Azərbaycan ərazisi ən qədim zamanlardan Avropa və Asiya arasında yerləşən mühüm geostrateji region kimi tanınmışdır. Bu regionun tarixi-coğrafi xüsusiyyətləri öz ifadəsini həmin regionun ərazisində məskunlaşmış xalq-





ların taleyində tapdı. Hazırda geniş yayılmış mübahisə və münaqişələrdə onların bir çox iştirakçıları hər hansı elmi əsası olmayan dəlillərdən istifadə edərək, özlərinin bu və ya digər ərazi üzərində tarixi suveren hüquqlarının mövcud olmasını iddia edirlər.

Regionun həqiqətən onu digərlərindən fərqləndirə bilən siyasi, sosial, mədəni xarakterli müəyyən tarixi sabit xüsusiyyətləri vardır. Bu, ilk növbədə region xalqlarının tarixi talelərinin, milli-mədəni ənənələrinin, mentalitetinin, təkamül yollarının yaxınlığıdır. Bu xüsusiyyətlər Azərbaycanın tarixi inkişaf mərhələlərində özünü biruzə vermişdir. Etnik-milli qrupların və xalqların yaranması və birləşməsi prosesinin də özünəməxsus səbəbləri (xarici təcavüzdən birgə müdafiə, padişahlar arasında nigah, xarici borcların qaytarılmaması, təbii fəlakətlər nəticəsində əhalinin irimiqyaslı itkilərə məruz qalması və s.) vardır. Etnik qrupların və xalqların yaranması, yaşaması və birləşməsi heç də həmişə dövlətin fəaliyyəti ilə birbaşa əlaqədə olmamışdır.

Dövlətin ərazi quruluşunun yaranmasının və inkişafının tarixi aspektlərinin öyrənilməsi müasir Azərbaycan Respublikası əhalisinin ölkə Konstitusiyasının 11-ci maddəsi ilə təsbit edilmiş ərazi üzərində suverenlik hüququnun obyektivliyinin əsaslandırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Ərəb, yunan, iran və türk mənbələri qədim zamanlarda Azərbaycan ərazisində müxtəlif dövrlərdə Şumer, Manna, Midiya, Atropoten, Albaniya, Aran, İran, Xəlifət,

Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər, Eldənizlər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi və başqa dövlətlərin mövcud olması haqqında məlumatlarla zəngindir.

Qədim Şumer dövlətinin Azərbaycanla bağlılığı 20-ci əsrin 60-cı illərində SSRİ Elmlər Akademiyasının təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Kültəpə nahiyəsində aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş təsərrüfat-ticarət arxivi, habelə amerika, ingilis, fransız və sovet tarixçi-arxeoloq alimlərinin şumerlilərin İkiçayarasının cənubuna Urmiyyə gölü hövzəsindən gəlmiş insanlardan ibarət olması barədə elmi mülahizələri ilə təsdiq edilir.[1] Şumerdə dövlətin ərazi quruluşunun əsasını onun bütün ərazisinin şəhər-dövlətlər üzrə bölgüsü təşkil edirdi. Ölkənin idarə olunması, təsərrüfat fəaliyyətinin və ticarətin təşkili ayrı-ayrı şəhər-dövlətlərə həvalə olunmuşdu.

Şumerlilərin İkiçayarasında əldə etdikləri bütün nailiyyətlərin, o cümlədən dövlətçilik və hakimiyyətin ərazi cəhətdən təşkili siteminin yaranması və inkişafı sahəsində dörd minillik fəaliyyətinin qədim Azərbaycanla əhəmiyyətli dərəcədə əlaqəli olması şübhə doğurmur. Eyni zamanda yaranma tarixi indiyədək dəqiq müəyyən edilməyən və müasir Bakının İçərişəhər adlanan qalasının Qədim Şumerin şəhər-dövləti və əyalət mərkəzi kimi qə-

[1] Həsənov M.B. Azərbaycan tarixi. Bakı, "Bilik" nəşriyyatı, 2012, s. 210.





bul edilib-edilməməsi məsələsinin dövlət və hüquq tarixi elmində öz həllini tapmaması diqqətdən yayınmır.

Eramızdan əvvəl II minilliyin başlanğıcında Mesopatomiyanın bütün ərazisində suveren qədim Babil dövləti yarandı və bununla da Şumer dövlətinin ilk qurucuları olan oğuz-türk tayfalarının İkiçayarasındakı ərazilərdə yaratdıqları inzibati-ərazi sistemi ləğv edildi. Bütün aşağı Mesopatomiya Babil dövlətinin tabeliyinə keçdi. Babil dövlətinin yaranması ilə oğuz-türk xalqı tarixdə özünün birinci ərazi itgisi ilə üzləşdi.

Tarixi mənbələr bizim eradan əvvəl 850-590-cı illərdə Azərbaycanda mövcud olmuş Manna dövlətinin ərazisinin vilayətlərdən (canişinliklərdən) ibarət olması və onların hökmdarın təyin etdiyi canişinlər tərəfindən idarə edildiyini təsdiq edir.[1]

İran tarixinə həsr olunmuş tədqiqat işlərində eramızdan əvvəl X-XI əsrlərdə İran yaylasında qədim dövlət qurumu İranın indiki şimal-qərbini və Azərbaycanı əhatə edən Midiya dövlətinin bərqərar edildiyi göstərilir.[2] Paytaxtı Ekbatan (müasir Həmədan) olan Midiya dövləti şimal-şərqdə Amu-Dəryaya qədər, cənubda İran körfəzinə qədər, qərbdə Kiçik Asiyanın bir hissəsini (Ərzurum, Qars, Ərzincan) və şimal qərbdə isə Dərbənd və Tiflisə qədər olan əraziləri əhatə etmişdir. Dövlətin inzibati ida-

[1] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009, s. 65.
[2] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009, s. 54.

rə sisteminin əsasını ayrı-ayrı tayfaların məskunlaşdığı əyalətlər üzrə ərazi bölgüsü təşkil edirdi.

Eramızdan əvvəl I minilliyin ortalarında fars tayfaları Midiya şahlığına qarşı mübarizədə qalib gələrək, Əhəməni dövlətinin yaradılmasına və böyük imperiyaya çevrilməsinə nail oldular. Əhəmənilər imperiyasının tərkibinə Fars vilayəti, Azərbaycan, Babil, Suriya, Fələstin, Misir və digər ərazilər daxil edilmişdi. İmperiyanın bütün ərazisi satraplıqlara (əyalətlərə) bölünmüş və bu satraplıqlara İran padişahı tərəfindən təyin edilən satraplar başçılıq edirdilər.[1]

Miladdan əvvəl Makedoniyalı İskəndərin ordusunun Şərqə yürüşü nəticəsində Əhəməni dövlətinin süqut etməsinə baxmayaraq, o, fəaliyyət göstərdiyi dövrdə Əfqanıstanla həmsərhəd olan yarımsəhra ərazilərdə yaşayan farsların kütləvi surətdə qərbə, yəni Xəzər dənizinin cənub sahilindən cənub körfəzinə qədər uzanan Turan ərazilərinə köçürülməsinə müvəffəq olmuşdu. Bununla da oğuz-türk mənşəli Azərbaycan əhalisi tarixdə ikinci dəfə ərazi itgisinə məruz qaldı.

Tarixi mənbələrdən məlum olduğu kimi, Makedoniyalı İskəndərin Şərqə yürüşü eramızdan əvvəl 323-cü ildə böyük sərkərdənin vəfat etməsi səbəbindən onun yaratdığı imperiyanın dağılması ilə nəticələndi.[2] Bundan sonra

[1] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009, s. 77.
[2] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009, s. 77.





Azərbaycan ərazisində iki dövlət- şimalda Alban, cənubda isə Atropaten dövləti yarandı.

Atropaten dövləti əsasən Cənubi Azərbaycan torpaqlarını əhatə edirdi. Tarixçilər Ermənistan və İberiya torpaqlarının bir hissəsinin Atropaten hüdudlarına daxil olduğunu iddia edirlər.[1]

Alban dövlətinin hüdudları haqqında antik dövrün qaynaqlarında bu ölkənin cənubda Araz çayından başlayaraq şimalda Qafqaz dağlarına qədər, qərbdə İberiyadan şərqdə Xəzər dənizinə qədər ərazini əhatə etməsi barədə məlumatlar verilib.[2]

Atropaten və Alban dövlətlərinin ərazi quruluşlarının şərhində diqqətdən yayınmayan mühüm cəhət odur ki, müəlliflər hər iki dövlətin ərazisinin Ermənistanla həmsərhəd olması barədə yanlış fikrin formalaşdırmağa və yayılmasına daha çox meyl göstərirlər[3] Unudulmamalıdır ki, Yunan-İran müharibələri zamanı Balkanlardan qovulan "hay" adlanan etnik toplum tarixdə ilk dəfə olaraq yalnız 1918-ci ildə İrəvan xanlığının ərazisində Rusiyanın havadarlığı ilə Hayıstan adlı dövlət yaratmağa nail olmuşdur. Belə olan halda Azərbaycan tarixi kitablarının müəllifləri qarşısında iki min il bundan əvvəl Qafqaz, Kiçik Asiya və İran hüdudlarında mövcud olmamış Ermənistan dövlətinin hansı xalq tərəfindən və hansı ərazidə yaradılması ilə əlaqədar məsələyə aydınlıq gətirilməsi tə-

[1] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009,s. 114.
[2] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009,s. 114.
[3] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009,s. 116-117.

ləbi qoyulur. Hesab edirik ki, Azərbaycan tarixi dərsliklərində Atropaten və Alban dövlətlərinin Ermənistan adlanan dövlətlə həmsərhəd olmasına dair ifadə olunmuş müddəalar müəllifləri erməni olan mənbələrdən (məsələn, uydurma "Erməni coğrafiyası"-ndan) götürülmüşdür.

Eramızın üçüncü əsrinin 60-cı illərində İranda Sasani sülaləsinin idarə etdiyi imperiya bərqərar edildi. Tarixi mənbələrdə Atropaten, Alban, İberiya kimi ölkələrin Sasanilərə tabe olması bildirilir.[1]

Eramızın V əsrinədək Qəbələ Albaniyanın paytaxtı, alban hökmdarları və alban episkopunun iqamətgahı olmuş, paytaxt Bərdə şəhərinə köçürüldükdən sonra isə ölkənin ən iri siyasi-inzibati, dini-inzibati, ticarət-sənətkarlıq və mədəni mərkəzlərindən biri olaraq qalmışdır. V-VII əsrlərdə Sasani imperiyasının hüdudlarında Albaniya əyalətinin inzibati mərkəzi kimi Bərdə mühüm strateji məntəqə hesab edilirdi.[2]

Tarixi mənbələrdə Qəbələ və Bərdə ilə yanaşı Naxçıvanın I əsrdən VI əsrədək Albaniyada şəhər və vilayət olması göstərilir. 591-ci il müqaviləsinə görə Naxçıvan bilavasitə İrana tabe edilmişdir.[3]

Sasani imperiyasının tarixinə dair məlumatları özündə cəmləşdirən mənbələrdə Rəvan əyalətinin adı ümu-

[1] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009, s. 117.
[2] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009, s. 50-51.
[3] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009, s. 51).





miyyətlə inkar olunur, onun əvəzinə Ananiy Şirakatsinin "Erməni coğrafiyası"-ndan götürülmüş yer adları və xüsusilə mövcudluğu bəlli olmamış "Ermənistan" Albaniya ilə həmsərhəd olan məkan kimi təsvir olunmuşdur. Tarixçilər və hüquqşünaslar Qafqaz və İran hüdudlarında mövcud olmuş dövlətlər və onların əraziləri haqqında tarixi-arxeoloji tədqiqatlardan götürülmüş məlumatlardan istifadə edərkən, bu məlumatların erməni saxtakarlığına məruz qalmasının mümkünlüyünü unutmamalıdırlar. Ermənilərin son 250 il ərazində Qafqaz hüdudlarında ərazi almaq və orada dövlət qurmaq məqsədilə üzərində erməni dilində yazı və işarə həkk olunmuş daş parçasını və ya gildən düzəldilmiş materialı həmin ərazilərdəki qədim abidələrin özül hissəsinə yapışdırmaq, "Ermənistan" adlanan ölkənin adını Azərbaycan və İran ərazilərindəki daş kitabələrin mətnlərində göstərilən ölkələrin sırasına daxil etmək, eləcə də başqa xalqların qədim dövrlərə aid abidələrini mənimsəmək kimi əməlləri tənqidçi-publisistlərin nəzərindən yayınmamışdır.[1]

Bizim eranın 7-ci əsrində Ərəbistan yarımadasında islam dininin və ilk müsəlman ruhani dövlətin–Xilafətin yaranması bəşər sivilizasiyasının tarixində yeni mərhələnin başlanğıcını qoydu. Ərəb istilaları nəticəsində Xilafət Ərəbistan yarımadası, İraq, İran, Qafqaz, Orta Asiya, Su-

[1] Величко В.Л. Кавказ: Русское дело и междуплеменные вопросы. Баку, «Элм», 1990, s. 68-69.

riya, Fələstin, Misir, Şimali Afrika, Priney yarımadası və Sind ərazilərini əhatə edən böyük dövlətə çevrildi.

Ərəblər Qafqaz Albaniyası və Atropatenanı işğal etdikdə burada mövcud olmuş inzibati ərazi bölgüsünü və idarəetmə aparatını dəyişmədilər. Onlar yalnız canişinliyi əmirliklə əvəz edərək onu idarə edən şəxsi əmir elan etməklə kifayətləndilər. Mənbələrdə ərəblərin başlıca olaraq Ərdəbil, Beyləqan, Dərbənd, Bərdə, Naxçıvan, Marağa və başqa şəhərlərdə, yəni başlıca mahal mərkəzlərində tam döyüş vəziyyətində saxladıqları qoşunlara arxalanaraq əyalətləri idarə etdikləri bildirilir.[1]

Azərbaycanın ərazi quruluşunun yaranması məsələsi tədqiq edilərkən tarixi qaynaqların məzmununda ermənilərin mənafeyinə uyğun yol verilmiş saxtakarlıqlar diqqəti cəlb edir. Məsələn, tarixçilər bu günədək hesab edirlər ki, Aranın bir hissəsi olan Qarabağ "Aqvan" adlanırdı.[2] Rus tənqidçi-publisisti Veliçko isə Qafqaz Albaniyasının ermənicə Aqvan adlandırıldığını istinad etdiyimiz tarix kitabının nəşrindən 105 il əvvəl, yəni 1904-cü ildə özünün Qafqaza həsr etdiyi əsərində göstərmişdir.[3]

Erməni mənbələrinə əsaslanan tarixçilər qeyd edirlər ki, VIII əsrin başlanğıcında Qafqazın işğal olunmuş torpaqlarında ərəblərin tam hakimiyyətinin bərqərar olması ilə vassallığını itirən və bir dövlət kimi ləğv edilən Albaniya ərəb vilayəti Arana çevrildikdə, "Ərminiyə" adlandırılmış və ərəb işğalı zonasını idarə edən canişinin qərargahı ermənilərin baş şəhəri Dvində yerləşdirilmişdir.[1] Müəlliflər Xilafət asılılığı dövründə Cənubi Azərbaycanın paytaxtının Ərdəbil, 744-cü ildən isə Marağa, Aranın paytaxtının və 654-cü ildən bütün Qafqaz ərəb canişinliyinin iqamətgahının Bərdə olduğunu qeyd edirlər.[2]

Ərəb xilafətinin 9-cu əsrin ikinci yarısında tənəzzülündən sonra Azərbaycan ərazilərində mövcud olmuş Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəki hakimliyi, Səlcuqlar, Eldənizlər, Monqollar, Elxanilər-Hülakular, Teymurilər, Osmanlılar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və başqa türk-islam sülalələrinin idarə etdikləri eyni adlı dövlətlər təkcə Azərbaycanın deyil, eyni zamanda bütün Yaxın və Orta Şərqin dövlətçilik tarixində həlledici rol oynadılar. Azərbaycanın ərazisi yüzilliklər ərzində bu dövlətlərin əksəriyyətinin mərkəzi vilayəti, Təbriz isə paytaxtı olmuşdur.[3] XI-XIX əsrlərdə Yaxın və Orta Şərqin böyük türk-islam imperatorluqlarının bir çoxunun məhz Azərbaycan–türk mənşəli sülalələr tərəfindən idarə olunmasına baxmayaraq, tarixçilərin adlandırdıqları Azərbaycan dövlətçiliyi tarixinin həlledici intibah dövründə xalqın ən qədim zaman-

---

[1] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009, s. 138.
[2] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009, s. 132.
[3] Величко В.Л. Кавказ: Русское дело и междуплеменные вопросы. Баку, «Элм», 1990, s. 66.





---

[1] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009, s. 96.
[2] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009, s. 200.
[3] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2004,s. 18.

lardan üzləşdiyi ərazi itgilərinin miqyası daha da genişləndi.

Bu itgilərin sırasına aşağıdakıları aid etmək məqsədəuyğundur:

Birincisi, XI əsrin ikinci yarısında Böyük Səlcuq imperatorluğunun tənəzzülə uğraması Qafqazda Gürcü çarlığı başda olmaqla, xristian etnik tayfaların fəallaşması üçün zəmin yaratdı. 1121-ci ildə gürcülər, qıpçak türkləri, alanlar və Qərbi Avropa səlibçilərinin birləşmiş qüvvələri Səlcuq qoşunlarını məğlub etdilər. 1122-ci ildə Tiflis müsəlman əmirliyi ləğv edildi və onun tabeliyində olan ərazi gürcülərin sahibliyinə keçdi.[1] Tiflisin qədim Aran ərazisinin ayrılmaz hissəsi olması, ərəb səyyahlarının Aranın ən böyük şəhərlərinin sırasında Bərdə və Dərbənddən sonra Tiflisdən bəhs etməsi barədə

İkincisi, Azərbaycanın şimal ərazilərinin Çar Rusiyası tərəfindən işğal olunması və müstəmləkəyə çevrilməsi. Səfəvi dövlətinin süqutundan sonra Azərbaycanın xanlıqlara parçalanması Cənubun isti dənizlərinə doğru can atan Çar Rusiyasının təcavüzkar planlarının həyata keçirilməsi üçün əlverişli şərait yaratdı. Azərbaycanın şimal torpaqlarının Çar Rusiyası tərəfindən ilhaq edilməsi Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələri ilə təsbit edildi. Tarixçilərin fikrincə, bu müqavilələrin bağlanması ilə müstəqil Azərbaycan dövlətlərinin-xanlıqların və sultanlıqların varlığına son qoyuldu. Ölkə iki im-

[1] Həsənov M.B. Azərbaycan tarixi. Bakı, "Bilik" nəşriyyatı, 2012, s. 86.





peratorluq arasında bölüşdürüldü: Şimali Azərbaycan Rusiyaya, Cənubi Azərbaycan isə Azərbaycan-türk əsilli Qacarlar sülaləsinin idarə etdiyi İran şahlığına qatıldı.[1]

Çar Rusiyası Şimali Azərbaycanı müstəmləkəyə çevirərək Azərbaycan xalqını öz tarixi torpaqları üzərində suverenlik hüququndan məhrum etdi. Azərbaycan əhalisinin öz vətənində yaşaması üçün böyük təhlükə yarandı. Çar Rusiyası Azərbaycanın ərazisi üzərində müstəmləkəçilik hüququnu əbədiləşdirmək məqsədilə Cənubi Qafqazda xristian amilini fəallaşdıraraq keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" yaratmış və qonşu ölkələrdə yaşayan ermənilərin bu vilayətə köçürülməsini təmin etmişdir. Bununla da Azərbaycan torpaqlarında gələcək erməni dövlətinin yaradılmasının bünövrəsi qoyuldu. Eyni zamanda, Rusiya imperiyasının mərkəzi rayonlarından Azərbaycana köçürülən xristianların sayı xeyli artırıldı.

Beləliklə, 19-cu əsrin birinci yarısında Şimali Azərbaycanın bütün ərazisi Rusiya imperiyasının tərkibinə qatılmış, əvvəllər mövcud olmuş xanlıqların ilk mərhələdə dövlət hakimiyyəti məhdudlaşdırılmış və sonra isə ləğv edilmişdir. 1819-1828-ci illərdə ləğv edilmiş xanlıqların əraziləri əyalətlərə çevrilmiş və komendantlar tərəfindən idarə olunurdu. Bu cür tədbirləri həyata keçirməklə müstəmləkəçilər işğal etdikləri Azərbaycan torpaqlarının al-

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı. "Lider nəşriyyat", 2004, s. 23.

tında və üstündə mövcud olan təbii sərvətlərin (neft mədənlərini, duz ehtiyatlarını, balıq vətəgələrini, kənd təsərrüfatı məhsullarını) maneəsiz talan edərək Rusiyaya daşınılmasına müvəffəq oldular.

XIX əsrin əvvəlində Azərbaycanın şimal torpaqlarının Rusiya imperiyası tərəfindən ilhaq edilməsi ilə bağlı məsələləri araşdıran tarixçilər, siyasətçilər və hüquqşünaslar etiraf etməlidirlər ki, rus müstəmləkəçilərinin Azərbaycana qarşı işğalçılıq siyasətinin bəzi ünsürləri (elementləri) məzmunca 15-18-ci əsrlərdə İran şahlığının Azərbaycana münasibətlərində tətbiq etdikləri üsullar təkrarlanır. Müasir tarixçilər ermənilərin kütləvi surətdə Çar Rusiyasının havadarlığı ilə Şimali Azərbaycan torpaqlarına köçürülməsini Azərbaycan xalqının həyatı üçün son dərəcə böyük təhlükə törədən hadisə kimi qiymətləndirirlər. Tədqiqatçılar eyni məzmunlu ittihamı Şərqi Gürcüstanla birlikdə Azərbaycanın Qazax, Şəmşəddil, Borçalı, Pambək torpaqlarının Rusiyaya birləşdirilməsi haqqında Rusiya Çarının 12 sentyabr 1801-ci il tarixli Manifestinin müddəalarının həyata keçirilməsi ilə əlaqədar olaraq irəli sürürlər.[1] Buna bənzər üsulla Qazax, Şəmşəddil və Borçalı mahalları 1736-cı ildə Nadir şah tərəfindən Kartli hakiminin tabeliyinə verilmişdi. Azərbaycan xalqı üçün torpaq itgisi ilə nəticələnən bu cür hadisələrin müqayisəli təhlilindən düzgün nəticə çıxarılmalıdır. 1736-cı ildə Azərbaycanın Qazax, Şəmşəddil və Borçalı mahallarının

[1] Həsənov M.B. Azərbaycan tarixi. Bakı, "Bilik" nəşriyyatı, 2012, s. 221.





əraziləri Kartli-Kaxetiya çarlığının tabeliyinə verildi və bununla da Nadir şahın hakimiyyətə gəlməsini etirazla qarşılamış yerli əhali cəzalandırıldı. 1801-ci ildə isə Qazax, Şəmşəddil və Borçalı mahalları cənubun isti dənizlərinə və subtropiklərinə can atan Çar Rusiyasının işğalçılıq siyasətinin qurbanlarına çevrildilər.

İşğal olunmuş ərazilərdə inzibati-hüquqi xarakterli islahatların həyata keçirilməsinə baxmayaraq, Rusiya hökuməti Azərbaycanda müsəlman əhalisini dövlət hakimiyyət orqanları yaratmaq hüququndan məhrum etmiş və azərbaycanlılara dövlətçilik ənənələrini unutdurmağa səy göstərmişdir. İnzibati-ərazi islahatları aparılarkən əhalinin milli tərkibi və maraqları nəzərə alınmırdı.

Müstəmləkəçi hakimiyyətin yerli əhali ilə yaxınlığını təmin etmək üçün inzibati islahatın sonrakı mərhələsində Azərbaycanın inzibati-ərazi bölgüsündə bir sıra dəyişikliklər edildi. 1850-1860-cı illərdə Dərbənd quberniyası ləğv edilmiş, Dərbənd və azərbaycanlıların ən qədim dövrlərdən məskunlaşdığı digər Dağıstan torpaqlarının adları işğal olunmuş Azərbaycan bölgələrinin siyahısından çıxarılmış, Dağıstanın tərkibinə daxil edilməklə Çar Rusiyasının ərazi vahidi elan olunmuşlar. Çar hökuməti 1859-cu ildə Şamaxıda zəlzələnin baş verməsi nəticəsində əhalinin və şəhər təsərrüfatının məruz qaldığı irihəcmli itgilərin aradan qaldırılması üçün külli miqdarda vəsaiti Şamaxı şəhərinin bərpasına yönəltməkdən vaz keçərək Şamaxı quberniyasının mərkəzi aparatının Bakı şəhərinə köçürülməsi və bu yolla Bakı quberniyasının yaradılma-

sına qərar verdi. Quba və sonradan yaradılmış Cavad və Göyçay qəzaları Bakı quberniyasının tərkibinə daxil edildi. 1868-ci ildə Bakı, Tiflis və İrəvan quberniyalarından alınmış ərazilər hesabına mərkəzi Yelizavetpol (Gəncə) şəhəri olmaqla Yelizavetpol quberniyası yaradıldı. Şuşa, Yelizavetpol və Zəngəzur qəzaları, 1874-cü ildə təşkil edilmiş Ərəş, eləcə də 1883-cü ildə yaradılmış Cəbrayıl və Cavanşir qəzaları da Yelizavetpol quberniyasının tərkibinə daxil edilmişdi. Müstəmləkə hakimiyyətinin möhkəmləndirilməsi məqsədilə Qafqaz canişinliyi ləğv edildi. Bütünlükdə Cənubi Qafqazın idarəsi mülki hissə üzrə rəisə həvalə olundu. Çar Rusiyasının Cənubi Qafqazda müstəmləkə hakimiyyətinin möhkəmləndirilməsinə xidmət etmiş inzibati-ərazi bölgüsü 1917-ci il fevral inqilabının gedişində çarizmin devrilməsi, Azərbaycanda milli-azadlıq hərəkatının genişlənməsi və Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə pozuldu. Əsasən gürcü menşeviklərinin və erməni millətçilərinin təşəbbüsü ilə 1917-ci il noyabrın 15-də yaradılan müstəqil "Zaqafqaziya hökümətı "85 gün, Zaqafqaziya Seyminin 1918-ci il aprelin 22-də elan etdiyi "Cənubi Qafqaz federativ respublikası" 34 gün yaşadı. Müstəqil Zaqafqaziya hökumətinin (Zaqafqaziya Komisarlığının, sonralar isə Zaqafqaziya Seyminin) təsir dairəsindən kənarda qalan, bolşevik-daşnak qrupunun yuva saldığı Bakı şəhərində 1917-ci il noyabrın 2-də təsisçilərinin əksəriyyəti erməni daşnaqlarından ibarət olan Bakı Soveti adlanan bolşevik hökuməti yaradıldı. Bolşevik-daşnak birliyi Bakıda və Respublika-





nın digər yerlərində azərbaycanlıların kütləvi qırğınlarını törətmiş, yerli əhalinin hüquqları və mənafeləri ilə hesablaşmadan qısa zamanda ölkənin təbii sərvətlərinin talan edilməsinə nail olmuşdur.

1918-ci ilin yazında Cənibi-Qafqazda ictimai-siyasi vəziyyətin gərginləşməsi, eləcə də Zaqafqaziya Seyminin və hökumətinin daxilində ziddiyyətlərin artması nəticəsində hər iki qurumun fəaliyyətinə xitam verildi. 1918-ci ilin mayın 27-də yaradılmış Müvəqqəti Milli Şura Azərbaycanın müstəqil dövlət elan edilməsi haqqında qərar qəbul etdi. Milli Şura tərəfindən 1918-ci ilin mayın 28-də qəbul edilmiş "İstiqlal Bəyannaməsi" müstəqil Azərbaycan dövlətinin Zaqafqaziyanın cənubi-şərq hissəsini təşkil edən ərazisində suverenlik hüququnu təsbit etdi.

1919-cu ilin mayında cənub bölgəsində erməni-bolşevik qruplaşmalarının havadarlığı ilə qondarma "Muğan Sovet Respublikası"nın yaradılması, Bakının və ətraf bölgələrin erməni-bolşevik işğalı altında qalması Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini ləngidirdi. 1918-ci ilin iyul-sentyabr aylarında Azərbaycan-Osmanlı hərbi qüvvələrinin "Sentrokaspi" hərbi qüvvələri və Bakı kommunasının ermənilərdən ibarət ordusuna qarşı apardığı döyüşlər Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətinin respublikanın bütün ərazisində bərqərar edilməsi ilə nəticələndi.

Özünün daxili və xarici siyasətini İstiqlal Bəyannaməsindən irəli gələn vəzifələrin həllinə yönəldərək, Azərbaycan hökuməti demokratik dövlət quruculuğu, iqtisa-

diyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində bir sıra tədbirlər həyata keçirdi və Azərbaycanın müstəqil dövlət kimi dünya birliyi tərəfindən tanınmasına nail oldu."İstiqlal Bəyannaməsi" Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğunu təsdiq etməklə bərabər, onun bütün fəaliyyətinə hüquqi təminat verən qanun rolunu oynamışdır. Bu "Bəyannamə" yeni yaradılan dövlətin fəaliyyətinin ümumi istiqamətlərini tənzimləyə bilən müddəaları özündə cəmləşdirərək, həm də dövlətin Azərbaycan əhalisi qarşısında məsuliyyətini müəyyən etmişdir.

Müstəmləkə zülmündən azad olmuş ölkənin müdafiəsinin və ərazi bütövlüyünün təmin edilməsi Azərbaycan Xalq Cümhuriyyəti qarşısında duran ən başlıca vəzifə idi. Lakin belə bir vəzifə "İstiqlal Bəyannaməsi"ndə nəzərdə tutulmurdu. Azərbaycan Milli Şurası müstəqil dövlətin ərazisi haqqında müddəanı Bəyannamənin 1-ci bəndində aşağıdakı məzmunda təsbit etmişdir: "Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət hüququna malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir".[1]

Son illər ərzində ali məktəb müəllimləri və tələbələri üçün nəzərdə tutulmuş dərsliklərdə 1918-ci ildə baş vermiş ərazi itgilərilə əlaqədar olaraq yeni açılmış hallar üz-

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2004, s. 27.





rə münasibət birmənalı şəkildə bildirilmir. Məsələn, prof. T.T.Vəliyevin ümumi redaktəsilə ali məktəblər üçün yazılmış "XX əsr Azərbaycan tarixi" adlı dərslikdə qeyd edilir ki, "... 1918-ci ilin mayında Ermənistan dövlətini yaratmaq üçün ona münasib paytaxt lazım idi. Azərbaycan Milli Şurası İrəvan şəhərini siyasi mərkəz etməkdən ötrü ermənilərə güzəştə getdi. Bu addım Azərbaycan Milli Şurasının və yeni yaranan Azərbaycan dövlətinin ilk səhvlərindən biri idi.[1]

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda hazırlanmış "İrəvan xanlığı" adlı əsərdə göstərilir ki, 1918-ci il mayın 29-da Azərbaycan Xalq Cümhuriyyəti xalqın iradəsini nəzərə almadan böyük dövlətlərin təzyiqi ilə öz ərazisində paytaxtı qədim Azərbaycan şəhəri İrəvan və ərazisi 9,5 min kv km olmaqla erməni dövləti yaradılmasına razılıq verdi.[2]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ermənilərə əvvəllər ərazi güzəştlərinin olunduğunu təəssüflə xatırladaraq göstərmişdir ki, İrəvan şəhərini Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi 1918-ci ildə Ermənistana hədiyyə edibdir.[3]

Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən 1918-ci ildə İrəvan şəhəri və onun ətraflarını əhatə edən ərazinin ermənilərə, Borçalı və ona bitişik ərazinin gürcülərə veril-

[1] XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009, s. 206.
[2] İrəvan xanlığı.Rusiya işğalı və ermənilərin şimali Azərbaycan torpaqlarına köçürülməsi.Bakı, Azərbaycan, 2010,s. 583-584.
[3] Xarici dövlətlərin konstitusiyaları. Bakı, Qanun, 2010, s. 3.

məsi Azərbaycanın ümumi ərazisinin 113,9 min kv km-dən 97,3 min kv km-dək azalması ilə nəticələndi.

Tarixçilər 1918-ci ildə Azərbaycanın 16,6 min kv km ərazi itgisinə məruz qalmasının başlıca səbəbləri kimi böyük dövlətlər tərəfindən Azərbaycana təzyiq göstərilməsini, Cənubi Qafqazda müsəlman əhalisinin tərk-silah edilməsini, Rusiyanın Cənubi Qafqazı türk-müsəlman əhalidən "təmizləmək" siyasəti aparmasını, erməni terrorçu dəstələrinin Rusiya tərəfindən silahlandırılmasını, regionun ən çoxsaylı əhalisi olan azərbaycanlılara qarşı soyqırımların və deportasiyaların başlanmasını göstərirlər.[1]

Tarixçilərin mövqeyində həqiqətin bəzi əlamətlərinin olmasını inkar etməyərək, qeyd etmək lazımdır ki, Azərbaycanın tarixi ərazilərinin ermənilərə və gürcülərə verilməsi ilə bağlı məsələləri döyüş meydanlarında və sülh müqavilələrinin bağlanması qaydasında deyil, 1918-ci ilin fevralın 10-dan 1918-ci ilin mayın 27-dən fəaliyyət göstərmiş Zaqafqaziya Seyminin iclaslarında, 1918-ci ilin martın 14-dən aprelin 14-dək davam etmiş Trabzon konfransında, habelə 1918-ci ilin mayında keçirilmiş Batum konfransında həll olunurdu. Zaqafqaziya Seyminin tərkibində müsəlman partiyaları blokunun çoxluq təşkil etdiyini Azərbaycan fraksiyasının Seymdə 4 partiyaya məxsus 44 millət vəkili ilə təmsil olunduğunu və digər tərəfdən 1917-ci il oktyabr inqilabından sonra vətəndaş müha-

[1] Azərbaycan tarixi.Yeddi cilddə.V cild (1900-1920-ci illər).Bakı, "Elm", 2008, s. 78).





ribəsi girdabına düşmüş Sovet Rusiyasının Qafqazda cərəyan edən proseslərə təsirinin zəiflədiyini nəzərə alsaq, itirilən İrəvan-Borçalı torpaqlarının hüquqi müqəddaratının, məhz, iclaslarda və konfranslarda həll edildiyini etiraf etmək mümkündür.

1920-ci il aprelin 28-də Bakıda Azərbaycan Sovet Sosialist Respublikasının (Azərbaycan SSR) yaradılması Azərbaycanın torpaq itgilərinin çoxalması ilə nəticələndi. 1920-ci il avqustun 10-da bolşeviklərlə ermənilər arasında bağlanmış sazişə əsasən, Azərbaycan xalqının iştirakı və razılığı olmadan qədim Azərbaycan torpağı Şərur-Dərələyəz mahallarının mühüm hissələri, 1924-cü ildə Göyçə və Zəngəzur mahalları, habelə Mehri bölgəsi ermənilərə verildi.[1]

Yeni yaradılan Azərbaycan SSR-in ərazisi 86,6 min kv.km müəyyən edildi. Azərbaycanda Sovet hakimiyyətinin qurulması Azərbaycan Xalq Cümhuriyyətindən qalan ərazi daha 10,6 min kv km-ə qədərinin itirilməsi ilə nəticələndi. Beləliklə, 1918-ci ildən Azərbaycan ərazisində yaradılmış və ərazisi 16,6 min kv km olan Ermənistan dövləti sovet rejiminin və Kremldə yuva salmış ermənilərin səyləri ilə Azərbaycandan daha 10,6 min kv.km ərazi qoparmağa müvəffəq oldu.

1922-ci ildə Zaqafqaziya Sovet Sosialist Federativ Respublikasının (ZSSFR) və SSRİ-nin yaranması, Azərbaycan

[1] İrəvan xanlığı.Rusiya işğalı və ermənilərin şimali Azərbaycan torpaqlarına köçürülməsi.Bakı, Azərbaycan, 2010, s. 584.

SSR-in bu xarici dövlət birliklərinin tərkibinə daxil olması, 1924-cü ildə Azərbaycanın ərazisində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının və Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması respublikanın inzibati-ərazi bölgüsündə bir sıra dəyişikliklərlə müşayiət olunmuşdur ki, bu da öz əksini 1927 və 1937-ci illərdə qəbul olunmuş Azərbaycan SSR konstitusiyalarında tapmışdır.

Azərbaycanın müttəfiq respublika statusu ilə SSRİ-nin tərkibində olduğu 1922-1991-ci illərdə respublika ərazisinin kəmiyyət göstəricisi (1969-1982-ci illərdə ermənilərə verilmiş nisbətən kiçik ölçülü Zəngilan, Laçın, Kəlbəcər və Qazax rayonlarının torpaq sahələri istisna təşkil etməklə) dəyişikliklərə məruz qalmamışdır. Qeyd etmək lazımdır ki, M.S.Qorboçov 1985-ci ildə SSRİ KP MK-nın Baş katibi və eyni zamanda Sovet dövlətinin rəhbəri vəzifəsinə keçdikdən sonra Ermənistan SSR-in rəhbərləri Moskvanın fəal köməyi ilə "Böyük Ermənistan"ın yaradılması planının gerçəkləşdirilməsi məqsədilə Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistanla birləşdirilməsi istiqamətində siyasi, ideoloji və terror xarakterli tədbirlər həyata keçirməyə başladı. İttifaq dövlətinin Qafqazda ayrıseçkilik siyasəti erməni millətçilərinin Azərbaycana qarşı qafil müharibə hazırlığının yüksəldilməsi və Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni milli separatçılıq fəaliyyətinin genişləndirilməsi üçün əlverişli şərait yaratdı. Başda M.S.Qarbaçov olmaqla sovet rəhbərliyinin ermənipərəst mövqe tutması 1988-1993-cü illərdə Azərbaycanın ərazisinin 20 faizinin hissəsinin Ermənistanın





silahlı qüvvələri tərəfindən işğal olunmasında həlledici rol oynadı. İşğal altında olan ərazi 13210 kv km ərazi 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı Azərbaycana qaytarıldı və bununla da Azərbaycan dövlətinin həmin ərazilər üzərində suverenlik hüququ bərpa olundu.

Azərbaycan dövlətinin ərazi quruluşunun yaranması və inkişafı məsələlərinin tədqiqində respublikanın suverenlik hüququ altında olan dəniz məkanlarının öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Müasir Azərbaycan Respublikasının SSRİ-nin hüquqi varislərindən biri olması Xəzər dənizinin beynəlxalq-hüquqi statusunun müəyyən edilməsi, 1921-1940-cı illər Sovet-İran müqavilələrinə xitam verilməsi, Xəzərin Azərbaycana aid sektorunun sərhədlərinin delimitasiyası, dəniz dibi ərazinin sahilyanı ölkələr arasında bölgüsü kimi məsələlərin həllində müstəqil mövqedən çıxış etmək imkanı verir. Qeyd etmək lazımdır ki, Azərbaycan dövlətinin suveren ərazisinin tərkibinə aid edilən daxili suların və ərazi sularının (ərazi dənizinin) sərhədlərinin Azərbaycan Respublikasının Su Məcəlləsinin və xüsusilə "Azərbaycan Respublikasının dövlət sərhəddi haqqında" Qanunun (9 dekabr 1991-ci il) normaları əsasında müəyyən edilməsi Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasının tələblərinə uyğundur və bu da digər Xəzəryanı ölkələrin ərazi hüquqlarını pozmur.

İttifaq müqaviləsi 1991-ci ildə pozulduqdan sonra Xəzəryanı ölkələrin qarşılaşdıqları əsas mübahisə Xəzər dənizində təbii sərvətlərin kəşfiyyatı və istismarı məqsədilə kontinental şelf üzərində suveren hüquqlarının həyata

keçirilməsi ilə bağlıdır. 1982-ci il Konvensiyasına görə kontinental şelfin xarici sərhəddi ərazi dənizinin enini ölçmək üçün qəbul olunmuş başlanğıc xətlərindən hesablanmaqla, 350 dəniz milindən artıq olmamalıdır.[1] Aydındır ki, orta eni 320 km-ə bərabər olan Xəzər dənizində istənilən sahilyanı ölkə üçün kontinental şelfin sərhəddinin həmin meyar əsasında təyin edilməsi yolverilməzdir. Odur ki, 2018-ci ilin avqust ayının 12-də Aktau şəhərində "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan liderləri tərəfindən imzalanması Xəzər dənizinə münasibətdə sahilyanı dövlətlərin hüquq və öhdəliklərinin tənzimlənməsinə əlverişli şərait yaradır.

Yuxarıda istifadə olunanlara əsasən belə bir nəticəyə gəlmək mümkündür ki, dövlətin ərazisinin bütövlüyü, onun bütün quru və su ərazi hissələri üzərində suverenlik hüququnun təmin edilməsi xeyli dərəcədə Dağlıq Qarabağ və onun ətraf rayonlarının torpaqlarının işğaldan azad edilməsinə dair sülh müqaviləsinin bağlanmasından və eləcə də Xəzər dənizinin Azərbaycan sektorunun sərhədlərini müəyyən edən Konvensiyanın şərtlərinin yerinə yetirilməsindən asılıdır.

Aparılan tədqiqat Azərbaycan Respublikasının ərazi quruluşunun yaranması və inkişafının ən qədim zamanlardan bu günədək xalqın həyatında baş vermiş tarixi hadisələr və bu hadisələrin nəticəsi kimi miras qalmış ziddiyyətli ərazi problemləri ilə səciyyələndiyini təsdiq edir. Qədim mənbələrdə cənubda İkiçayarası ilə, şimalda Dərbənd, şərqdə Xəzər dənizi ilə, qərbdə Tiflis, Batum, Qars-Ərzurum məntəqələri arasında yerləşən Turan ərazisi üzərində oğuz türkləri tərəfindən yaranmış və ayrı-ayrı tarixi mərhələlərdə suverenlik hüququna malik olmuş dövlətlər növbə ilə ərazi itgilərinə məruz qalmışlar:

- birinci ərazi itgisi - Şumer dövlətinin ərazisinin eramızdan əvvəl II minilliyin başlanğıcında Babil dövləti tərəfindən işğal edilməsi;
- ikinci ərazi itgisi - eramızdan əvvəl I minilliyin ortalarında Midiya şahlığının fars tayfaları tərəfindən məhv edilməsi və Əhəmənilər dövlətinin qurulması;
- üçüncü ərazi itgisi - XII əsrin əvvəllərində Səlcuq imperatorluğunun süqut etməsi nəticəsində Tiflis müsəlman əmirliyinin ləğv edilməsi və onun ərazisinin 1122-ci ildə gürcü çarlığının tabeliyinə keçməsi;
- dördüncü ərazi itgisi - Şimali Azərbaycanın XIX əsrin əvvəllərində Çar Rusiyasının müstəmləkəsinə çevrilməsi;
- beşinci ərazi itgisi - azərbaycanlıların ən qədim dövrlərdən məskunlaşdığı Dərbənd və onun ətrafındakı ərazilərin 1850-1860-cı illərdə Rusiyanın ərazi vahidi elan edilməsi;
- altıncı ərazi itgisi - Azərbaycan Milli Şurası tərəfindən qəbul edilmiş "İstiqlal Bəyannaməsi" nin 1-ci bəndinə uyğun olaraq Azərbaycan Xalq Cümhuriyyətinin ya-

[1] Litlus Beyhuq, s. 246

radılması, İrəvan xanlığının ərazisinin ermənilərə, Borçalı sultanlığının ərazisinin gürcülərə bağışlanması;

- yeddinci ərazi itgisi - sovet rəhbərliyinin razılığı ilə 1920-1924-cü illərdə Azərbaycan SSR-in Şərur - Dərələyəz, Zəngəzur və Göyçə mahallarının ərazilərinin Ermənistana verilməsi;

- səkkizinci ərazi itgisi - Dağlıq Qarabağın və onun ətraf rayonlarının 1988-1994-cü illərdə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması.

Azərbaycan Respublikasının ərazi quruluşunun yaranması və inkişafı problemlərinin tədqiqindən irəli gələn müddəaları ümumləşdirərək belə bir nəticəyə gəlmək olar: Dağlıq Qarabağ və onun ətraf rayonlarının torpaqlarının işğaldan azad edilməsi, Xəzər dənizinin hüquqi statusunun de-yure müəyyən edilməsi məsələlərinin beynəlxalq müqavilələrə uyğun həll edilməsi Azərbaycan dövlətinin ərazi bütövlüyünün, onun bütün quru və su ərazi hissələri üzərində suverenlik hüququnun bərpa olunmasının həlledici amillərdir.

### *1.3. Xarici ölkələrdə dövlətin ərazi quruluşunun yaranmasının konstitusion xarakteristikası*

Dövlətlərin bir-birindən sərhədlə ayrılması, dünyanın əksər ölkələrinin qarşılaşdığı ərazi mübahisələrinin həllində maneələrin və çətinliklərin daima mövcud olması ərazi anlayışının geosiyasi amilə çevrilməsi ilə nəticələnmişdir. 1813-1920-ci illərdə Çar Rusiyasının müstəmləkə-





si və 1920-1991-ci illərdə SSRİ-nin tərkibində müttəfiq respublika statusuna malik olmuş Azərbaycan Respublikası əvvəlki dövrlərdən miras qalmış ərazi problemlərinin həllində ciddi çətinliklərlə üzləşir. Ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, müstəqil Azərbaycan Respublikasının ərazi əsaslarının möhkəmləndirilməsi və qonşu ölkələrlə ərazi mübahisələrinin beynəlxalq qaydalara uyğun həll edilməsi xeyli dərəcədə xarici dövlətlər tərəfindən ərazi quruluşunun yaranması sahəsində əldə edilən təcrübənin nəzərə alınmasını zəruri edir.

Ərazi bölgüsü tarixən müxtəlif amillərlə, o cümlədən: təbii-coğrafi, milli və ya əhalinin etnik və məişət tərzinin xüsusiyyətləri, demoqrafik xarakterli amillər, ölkənin və onun ayrı-ayrı hissələrinin səmərəli idarə olunması sisteminin yaradılması zərurəti ilə şərtləndirilir. Hər bir ölkənin ərazi quruluşunun yaranmasında iqtisadi, tarixi, siyasi və hərbi xarakterli amillərin, mədəni ənənələrin olduqca mühüm rol oynaması diqqəti cəlb edir.[1]

Xarici ölkə konstitusiyalarının əksəriyyəti dövlətlərin ərazilərinin vahidliyini və bölünməzliyini təsbit edir. Məsələn, İtaliya Respublikasının Konstitusiyasının 5-ci maddəsinə uyğun olaraq vahid və bölünməz olaraq, respublika, yerli muxtariyyətləri tanıyır, dövlətin səlahiyyəti dairəsinə daxil olan sahələrdə ən geniş inzibati mərkəzləşdirməni həyata keçirir, öz qanunvericiliyinin prinsip və

---

[1] Доленко Д.В. Политика и территория. Основы политического регионоведения. Саранск, 2000, s. 86-88.

metodlarını bu muxtariyyət və mərkəzləşdirmənin tələblərinə uyğunlaşdırır.

Xarici ölkələrin konstitusion ərazi quruluşunun tənziminə bir neçə yanaşma mövcuddur:

1. Dövlətin ərazisinin tərkibinin ayrı-ayrı siyasi-ərazi hissələrinin məcmusu kimi müəyyən edilməsi. Məsələn, Avstriya Konstitusiyasının 3-cü maddəsinə görə, Federasiyanın ərazisi özündə Federasiya torpaqlarının ərazilərini birləşdirir. İtaliya, Almaniya, Macarıstan, Latviya, Belarus və bir sıra digər ölkələrdə dövlət ərazisinin tərkibi konstitusion-siyasi mövqedən müəyyən edilir.

2. Dövlət ərazisinin tərkibinin fiziki-coğrafi mövqedən müəyyən edilməsi. Azərbaycan, Estoniya, İrlandiya, Portuqaliya və Xorvatiya respublikalarının konstitusiyalarında dövlət ərazisinin tərkibi fiziki mühitin komponentlərinin məcmusu kimi göstərilir.

3. Dövlətin ərazi quruluşunun konstitusion norma ilə inzibati-siyasi və fiziki-coğrafi mövqelərdən müəyyən edilməsi. Məsələn, Rusiya Federasiyası Konstitusiyasının (12 dekabr 1993-cü il) 67-ci maddəsinə görə Rusiya Federasiyasının ərazisi onun subyektlərinin ərazisinin məcmusundan ibarət olmaqla, özündə daxili suları və ərazi dənizini, onların üzərində yerləşən hava məkanını birləşdirir.

4. Dövlətin ərazisinin tərkibinin konstitusion tənziminin olmaması. Gürcüstan, Moldova, Finlandiya respublikalarının konstitusiyalarında ölkənin ərazi quruluşuna dair norma təsbit edilmir. Bunun səbəbini həmin ölkələ-





rin məruz qaldıqları ərazi itgilərinin bərpa olunmamasında görmək mümkündür.

Yuxarıda ifadə olunanlar xarici dövlətlərin ərazi quruluşunun öyrənilməsinin iki başlıca istiqamətini qeyd etməyə əsas verir:

1) dövlətin ərazi quruluşunun inzibati-siyasi mövqedən araşdırılması;

2) dövlətin ərazi quruluşunun fiziki-coğrafi komponentlərinin öyrənilməsi;

Konstitusion-hüquqi tədqiqatın məqsədinə uyğun olaraq xarici dövlətlərin daxili quruluşunun ərazi aspektlərinə nəzər salaq. Qeyd etmək lazımdır ki, dövlətdaxili ictimai-siyasi quruluşun ərazi münasibətləri, hər şeydən əvvəl, unitar dövlətin qanunlarının tətbiq edildiyi və dövlət orqanlarının fəaliyyət göstərdiyi məkanla əlaqədardır. Bu cür yanaşmanın gerçəkliyinin parlaq sübutunu dövlətlərarası münasibətlərin suveren subyektlərinin, yaxud əhali qruplarının (toplumlarının) birləşməsi vasitəsilə tarixən yaranmış unitar dövlətlərin hüquq normalarında görmək olar.[1] Onların sırasına, məsələn, İngiltərənin Şotlandiya ilə birləşməsi haqqında 1 may 1707-ci il Aktı, İtaliya Respublikasının 22 dekabr 1947-ci il tarixli Konstitusiyası, Polşa Respublikasının 2 aprel 1997-ci il tarixli Konstitusiyası, Türkiyə Cümhuriyyətinin 12 sentyabr 1980-cı il tarixli Anayasası və s. aid edilə bilər.

[1] Левин И.Д. Суверенитет. М., Юридический центр пресс, 2003, s.76.

Böyük Britaniyaya aid aktda ərazi haqqında müddəalar bir neçə dəfə təkrarlanaraq, xüsusilə, qeyd edilmişdir ki, İngiltərənin və Şotlandiyanın krallıqlarının hər ikisi 1707-ci il mayın 1-də Böyük Britaniya adı altında həmişəlik bir krallıqda birləşəcəklər (m.1). Bu aktla müəyyən olunmuşdur ki, Şotlandiyada və İngiltərədə ticarət fəaliyyətini, rüsumların və aksizlərin tutulmasını tənzimləyən qanunların fərqli olması mümkündür, lakin vətəndaşların hüquqları və azadlıqlarına, dövlətin daxili və xarici siyasətinə və mülki tənzimetməyə aid qanunlar Birləşmiş Krallığın bütün ərazisində eyni olmalıdır.

Müasir Böyük Britaniyanın ərazisi dörd subyektin (ölkənin): İngiltərənin, Şotlandiyanın, Uelsin və Şimali İrlandiyanın ərazilərinin birləşməsindən əmələ gəlmişdir. Bu ölkələrdən hər birinin özünəməxsus milli-tarixi ənənələri və inzibati-ərazi bölgüsü vardır.

"Yerli idarə haqqında Akta" uyğun olaraq Böyük Britaniyanın bütün ərazisi (Böyük London və adalar çıxılmaqla) qraflıqlara( İngiltərə, Uels, Şimali İrlandiya) və ərazi yerli idarə vahidlərinə (Şotlandiya) bölünür. Qraflıqlar öz növbəsində dairələrdən ibarət olmaqla, inzibati sistemin sonrakı səviyyəsini təşkil edir.

Böyük London (əhalisi 7 mln.adam) 32 rayondan və London Sitidən ibarətdir. Şəhər dairələri, bələdiyyə şəhər-burqları, şəhər-qraflıq inzibati-ərazi sisteminin komponentlərini təşkil edirlər.





Böyük Britaniyanın XVIII-XX əsrlərdə mövcud olmuş inzibati-ərazi quruluşunun sabitliyini qiymətləndirərək aşağıdakı nəticələrə gəlmək mümkündür:

birincisi, Böyük Britaniya imperiyasının inzibati-ərazi sisteminin ayrı-ayrı komponentlərinin tətbiq edildiyi müstəmləkə əraziləri XX əsrin ortalarında bütün dünyada baş vermiş milli-azadlıq hərəkatının təsiri altında itirilmişdir;

ikincisi, Şimali İrlandiya və Şotlandiya xalqlarının Böyük Britaniyanın tərkibindən çıxmağa meyl göstərməsi bu ölkənin ərazi quruluşunun gələcəkdə dəyişilməsi ehtimalını heç də azaltmır.

Fransanın ərazi quruluşu Fransa Respublikası Konstitusiyasının (4 oktyabr 1958-ci il) 1-ci maddəsinə uyğun olaraq öz müqəddəratını azad təyin etmə aktı ilə bu Konstitusiyanı qəbul edən respublika və sərhədxarici xalqların birləşməsi əsasında yaranmışdır. Konstitusiyada ümumi hüquq rejiminə tabe olan subyektlərin sırasına dövlət və dövlət idarələri ilə yanaşı ərazi kollektivləri də aid edilir (m.72). Fransada ərazi kollektivləri respublikanın idarə olunmasının dövlət səviyyəsi ilə yerli səviyyə arasında aralıq mövqe tutan regionlardır. Ərazi kollektivi inzibati ərazi vahidi kimi ümumi idarəetmə prinsiplərinə tabedir. Fransanın ərazi kollektivlərinin aşağıdakı iki formasını fərqləndirmək lazımdır: birincisi, ümumi hüquq normalarının təsiri altına düşən kommunalar, departamentlər və regionlar; ikincisi, xüsusi statusa malik olan Paris regionu, Korsika kollektivləri, sərhədxarici departa-

mentlər və ərazilər. Ərazi kollektivinin əlamətləri qismində onun xüsusi statusu, ərazinin inzibati tabeliliyi və ümumi məqsədli təyinatı qəbul olunmuşdur.[1] Fransa Respublikası unitar dövlətdir və mürəkkəb ərazi quruluşuna malikdir. Əsas inzibati-ərazi vahidlərinə aiddir: kommuna, kanton, dairə, departament və region.

İnzibati-ərazi bölgüsünün aşağı həlqəsi kommunadır. Kommuna ərazi bölgüsünün əsas komponentidir. Müasir Fransa Respublikasında 37 minə yaxın kommuna mövcuddur. Kommuna müəyyən ərazidə məskunlaşan əhalinin birliyi olmaqla dövlət inzibati-ərazi strukturunun birinci həlqəsini təşkil edir.

İnzibati-ərazi sisteminin ikinci həlqəsi kantondur. Bu termin İsveçrənin inzibati-hüquq sistemində mövcud olan "kanton" anlayışı ilə oxşar cəhətlərə malikdir. Fərq ondan ibarətdir ki, İsveçrədə kanton federasiyanın subyekti olduğu halda, Fransada kanton bir neçə kommunanın birliyi kimi yaradılır. Kantonun yaradılmasında başlıca məqsəd tabelikdə olan ərazidə dövlət işlərinin səmərəli idarə olunmasını təmin etməkdir. Kantonda bir neçə kommunaya xidmət edə bilən notarius, hakim, jandarm sahəsi, çağırış məntəqəsi vardır.

Dairə 100-150 kommunını birləşdirir. Fransanın bütün ərazisində 300-dən çox dairə mövcuddur. Dairəyə hökumət tərəfindən təyin olunan dövlət məmuru və ya subprefekt rəhbərlik edir.

[1] Брэбан Г. Французское административное право. Перевод с французского. М., 1988, s. 89.





Fransanın inzibati ərazi sisteminin dördüncü komponenti 400-ə yaxın kommunanı, yaxud 35 kantonu birləşdirən və departament adlanan iri ərazi vahididir. Departamentdə seçkili yerli özünüidarə orqanı-baş şura fəaliyyət göstərir. Baş şuraya cari rəhbərliyi hökumət tərəfindən təyin edilən prefekt həyata keçirir.

Fransanın ən iri inzibati-ərazi vahidi regiondur. Region üzrə dövlət idarəetmə funksiyasını-regional şura həyata keçirir. Regionlar bir çox əsrlər ərzində Fransada mövcud olmuş əyalətlərin ərazilərində yaradılmışlar. Regiona ümumi rəhbərliyi prefekt həyata keçirir. O, eyni zamanda inzibati mərkəzi regionun mərkəzi hesab olunan ən iri departamentin prefektininin səlahiyyətlərinin daşıyıcısı hesab olunur.

Göründüyü kimi, Fransada kifayət qədər mürəkkəb inzibati-ərazi quruluşu mövcuddur ki, bu da ölkənin idarə olunmasında əks-mərkəzləşmənin daha da genişlənməsinə gətirib çıxarır. I Napoleonun hakimiyyəti zamanı yaradılmış inzibati bölgü şəbəkəsi 1982-ci ildə "Qeyri-mərkəzləşdirilmiş ərazi kollektivlərinin hüquqları və azadlıqları haqqında" Qanun qəbul edildikdən sonra həyata keçirilən inzibati islahatların gedişində qismən dəyişikliklərə məruz qalmışdır. Əgər XVIII əsrin sonunda Fransada 84 departament mövcud olmuşdursa, indi onların sayı 95-ə çatmışdır. İnzibati ərazi vahidlərinə tarixən

mәna kәsb etmәyәn neytral adlar (mәsәlәn, çayların, göllәrin vә digәr coğrafi yerlәrin mәlum adları) verilir.

Azәrbaycanda, Fransanın inzibati-әrazi sisteminin bәzi elementlәrinin (mәsәlәn, regionun) tәtbiq edilmәsi mümkündür. Fikrimizcә, respublikanın bütün әrazisi aşağıdakı regionlara bölünә bilәr: Bakı-Abşeron, Quba-Xaçmaz, Şәki-Zaqatala, Şamaxı-Şirvan, Gәncә-Qazax, Aran, Yuxarı Qarabağ, Lәnkәran-Astara, Naxçıvan. Regionun әrazisinin tәrkibinә sistemli tabeçilik prinsipi üzrә rayonu, şәhәri, qәsәbәni vә kәndi aid etmәk mәqsәdәuyğundur. Statistik mәcmuәlәrdә, habelә Azәrbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair dövlәt proqramlarında regional mәsәlәlәr geniş işıqlandırılır, dövlәt orqanlarının regional idarәçilik tәcrübәsi kifayәt qәdәr ümumilәşdirilir. Hazırkı mәrhәlәdә regionlarda istәnilәn separatizm meyllәrini tam aradan qaldırmağa qadir olan mәrkәzlәşdirilmiş dövlәtin Azәrbaycanda mövcud olduğunu nәzәrә alsaq, Azәrbaycan Respublikasının inzibati-әrazi sistemindә region komponentinin yaradılmasının mәqsәdәuyğunluğunu tәsdiq etmәk mümkündür. Regional idarәetmәnin inkişaf etdirilmәsi eyni zamanda mәrkәzi hökumәtin vә onun orqanlarının idarәetmә yükünün yüngüllәşdirilmәsinә vә belәliklә dә, bütövlükdә ölkәnin idarә olunması sisteminin sәmәrәli tәşkilinә şәrait yaradacaq.

Azәrbaycanda regional idarәetmә sisteminin güclәndirilmәsi nәticәsindә respublika әrazisinin keçmiş xanlıqlar üzrә parçalanması tәhlükәsi mövcud deyildir. Unudulmamalıdır ki, Azәrbaycan әrazisinin xanlıqlara parçalandığı XVIII әsrdә vә XIX әsrin әvvәllәrindә bütövlükdә Azәrbaycanın idarә edilmәsindә real gücә malik olan mәrkәzlәşdirilmiş dövlәt mövcud olmamışdır.





Fransanın Konstitusiyasında vә inzibati hüququnda geniş yer tutan әrazi kollektivlәri ideyasından xarici ölkәlәrin bәzilәrindә, o cümlәdәn keçmişdә müstәmlәkәsi olmuş Әlcәzairdә istifadә olunur. Әlcәzair özünün milli hüququnda kommunanı ilk әrazi, siyasi, inzibati, iqtisadi, sosial vә mәdәni kollektiv kimi tәsbit etdi. Qanunvericiliyә uyğun olaraq inzibati-әrazi sisteminin birinci sәviyyәsinә kommunarlarla yanaşı, hüquqi şәxs statusuna vә maliyyә muxtariyyәtliyinә malik olan vә eyni zamanda dövlәtin inzibati vilayәti hesab olunan vilayilәr aid edilir. Vilayi Әlcәzairin qanunu әsasında yaradılır. Onun adı vә inzibati mәrkәzi dekretlә tәsdiq edilir. Bütün kommunalar 48 vilayi arasında bölünmüşdür. Hәr vilayinin әrazisi öz növbәsindә bir neçә dairәyә bölünür. Dairәnin әrazisinin sәrhәdlәri qanunla müәyyәnlәşdirilir, dәyişdirilir vә ya lәğv edilir.[1]

İtaliya Respublikasının Konstitusiyası (22 dekabr 1947-ci il) dövlәtin әrazi quruluşunu xüsusi olaraq V bölmәdә ("Vilayәtlәr, әyalәtlәr, icmalar") tәsbit edir. Konstitusiyaya görә respublikanın әrazisi vilayәtlәrә, әyalәtlәrә vә icmalara bölünür.

---

[1] Әlcәzair Konstitusiyası, m.166.

Vilayət öz inzibati funksiyalarını, bir qayda olaraq, onları əyalətlərə, icmalara, yaxud digər yerli təşkilatlara tapşırmaqla və ya adı çəkilən ərazi vahidlərinin təsisatlarından istifadə etməklə həyata keçirir. Əyalətlər və icmalar Respublikanın Konstitusiya və qanunları ilə müəyyən edilən prinsiplər çərçivəsində muxtar qurumlardır. Əyalət və icmalar, eyni zamanda, dövlət və vilayət baxımından mərkəzləşmə prinsipinə əsaslanan inzibati ərazi vahidləridir. Əyalətlər, müstəsna inzibati funksiyaları olan və sonda mərkəzləşdirilmə halına gələn dairələrə də bölünə bilərlər.

Polşa Respublikasının ərazi quruluşunun yaranmasının başlıca xüsusiyyəti öz ifadəsini dövlət hakimiyyətinin əks-mərkəzləşməsində və ərazi özünüidarəetmə sisteminin geniş tətbiq edilməsində tapır. Polşa Respublikasının Konstitusiyası (2 aprel 1997-ci il) ərazi özünüidarəetməsinin komponentlərinin sırasına icmaları, regional və ya lokal xarakterli digər vahidləri aid edir (m.164). Bütünlükdə ölkə üzrə sosial, iqtisadi və ya mədəni əlaqələri nəzərdə tutan, ərazi vahidləri üzrə ictimai vəzifələrin yerinə yetirilməsini təmin edən dövlətin ərazi bölgüsü qanunla müəyyənləşdirilir.

Türkiyə Cümhuriyyətinin inzibati-ərazi quruluşunun yaranmasında ölkə ərazisinin bölünməzliyi, qanunçuluq və dünyəvilik prinsiplərinə əsaslanan idarəçilik sistemi başlıca rol oynamışdır. Türkiyə Cümhuriyyəti Anayasasının (12 sentyabr 1980-cı il) 126-cı maddəsinə uyğun olaraq Türkiyə, mərkəzi idarə quruluşu baxımından öz coğ-





rafi mövqeyinə, iqtisadi şəraitə və dövlət xidmətlərinin tələblərinə görə, illərə, illər (vilayətlər) isə digər kiçik bölümlərə ayrılır.

Xarici dövlətlərdə ərazi quruluşunun xüsusiyyətləri öyrənilərkən etnos amilinin milli ərazi vahidləri sisteminin yaranmasına təsir etməsi diqqət mərkəzində saxlanılmalıdır. Kiçik Asiyada 1920-ci illərdə Türkiyə Cümhuriyyətinin yaranması türk millətinin əbədi türk vətən və millətinin bütünlüyünün və türk dövlətinin varlığının təmin edilməsi uğurunda yüzilliklər ərzində apardığı gərgin mübarizənin nəticəsində mümkün olmuşdur.

Əhalisinin 94%-i çinlilərdən ibarət olan unitar Çin dövlətinin ərazisi son yüz ildə türk xalqlarının (uyğurların) ən qədim zamanlardan məskunlaşdığı ərazilərin işğal edilməsi yolu ilə genişlənmişdir. Çin Xalq Respublikası Konstitusiyasının 30-cu maddəsi ölkənin inzibati-ərazi bölgüsünü aşağıdakı şəkildə təsbit edir:

1) bütün ölkə əyalətlərə, muxtar rayonlara və mərkəz tabeli şəhərlərə bölünür;

2) əyalətlər muxtar rayonlara,muxtar dairələrə, qəzalara və şəhərlərə bölünür;

3) qəzalar, muxtar qəzalar nahiyələrə və qəsəbələrə bölünür.

Çində muxtar rayonlar, muxtar dairələr və muxtar qəzalar milli muxtariyyət rayonları sayılır. Çin Xalq Respublikasının ərazi quruluşunun indiki vəziyyətinə mənfi təsir göstərən əsas amil ölkə əhalisinin ümumi sayının sürətlə artması və insanların yaşayış vasitələri ilə təmina-

tında böyük çətinliklərin yaranmasıdır. Çinin rəhbərliyi bu problemin Çin iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi və Rusiya Federasiyasının Uzaq Şərq və Sibir ərazilərinin Çinə birləşdirilməsi yolu ilə həllinə çalışır.[1]

1945-ci ildə faşist Almaniyasının məğlubiyyətindən sonra dörd müttəfiq dövlət - SSRİ, ABŞ, Böyük Britaniya və Fransa Almaniyada ali hakimiyyəti öz üzərinə götürərək, onun ərazisini işğal zonaları üzrə öz aralarında bölüşdürdülər. Bununla bərabər Almaniya dövləti yaşamaqda davam etmiş, onun suverenliyinin faktiki məhdudlaşdırılması bu suverenlik hüququnun qalib dövlətlərə formal olaraq keçməsinə gətirib çıxarmadı.

İkinci dünya müharibəsində məğlub olmuş Almaniyanın ərazi suverenliyi onun beynəlxalq hüququn subyekti qismində mövcud olması və ərazinin qalib dövlətlərə deyil, hüquq subyektinin özünə məxsusluğunun tanınması ilə müəyyən edilirdi. Almaniya Federativ Respublikasının Konstitusiyasında (23 may 1949-cu il) göstərilirdi: "Bu Konstitusiya, Baden, Bavariya, Bremen, Böyük Berlin, Hamburq, Hessen, Aşağı Saksoniya, Şimali Reyn-Vestfaliya, Reynland-Pfals, Şlezviq-Holnşteyn, Vürtemberq-Baden və Vürtemberq-Hopenzolleri əyalətlərində bilavasitə və dərhal tətbiq olunur, Almaniyanın digər

[1] Бабурин С.Н. Территория государства: теоретико-правовые проблемы: дисс...докт. юрид. наук. М., 1998, s. 216.





bölgələrində isə bu bölgələrin federasiyaya birləşməsindən sonra qüvvəyə minir".[1]

Yuxarıda ifadə olunanlar Almaniya Federativ Respublikasının (AFR) və Almaniya Demokratik Respublikasının (ADR) 1945-ci ildə yaranması mexanizmi ilə təsdiq edilir. Həmin dövrdə yeni yaranan dövlətlərin tanınması üçün, birincisi, Almaniyanın iki bərabərhüquqlu dövlətə parçalanması və ikincisi, müttəfiq dövlətlər tərəfindən zəbt edilmiş müvafiq ərazilərin bu dövlətlərin hər birinə təhkim olunması faktlarının dünya ictimaiyyəti tərəfindən formal tanınması tələb olunurdu.[2]. Keçən əsrin 90-cı illərinin əvvəlinə qədər mövcud olmuş iki alman dövləti qısa müddətdə müharibə dövründə dağıdılmış təsərrüfatı bərpa etmiş və sonrakı on illiklər ərzində iqtisadi inkişaf tempinə görə dünyanın qabaqcıl ölkələrinə çevrilmişlər.

Müasir Almaniya Federasiyasının ərazisi federal qanunla əyalətlərin böyüklüyü və iqtisadi imkanlarına görə üzərilərinə düşən vəzifələri yerinə yetirə bilmələrini mümkün edəcək şəkildə bölünə bilər. Federasiyanın inzibati-ərazi sisteminin əsas qurumları torpaqlardır. Torpaqlar dairə və icmalara bölünür.Hər torpaq özü müstəqil olaraq yerli idarə və özünüidarə orqanlarının strukturunu və səlahiyyətlərini müəyyən edir.

[1] Xarici dövlətlərin konstitusiyaları. Bakı, Qanun, 2010, s. 76.
[2] URL:http://www.e-adres.ru/postcodes/3752199/ (дата обращения: 14 февраля 2010).

Almaniya Federasiyasının əksər subyektləri arasında ərazi bölgüsü aparılarkən 1871-ci ildə ölkənin birləşdirilməsinə qədər mövcud olmuş alman feodal dövlətlərinin adları nəzərə alınmış və onların sərhədləri saxlanılmışdır. Məsələn, indiki Bavariya torpağı keçmişdə mövcud olmuş krallığın sərhədləri daxilində yaradılmış və onun adını daşıyır.

Avstriya Respublikasının federal ərazi quruluşu 10 noyabr 1920-ci il tarixli Federal konstitusiya qanunu ilə təsbit olunmuşdur. İkinci dünya müharibəsi illərində Avstriyanın ərazi suverenliyinə münasibətdə yerli hakimiyyətin formal ərazi yurisdiksiyasının tətbiq edildiyini nəzərə almaq lazımdır. Müstəqil demokratik Avstriyanın bərpa olunması haqqında 15 may 1955-ci il tarixli dövlətlərarası müqavilə ilə müttəfiq dövlətlər 1938-ci ildə anşlyusa (zorakılıqla Almaniyaya birləşdirilmə) məruz qalmış Avstriyanı suveren dövlət kimi bərpa etdi və onun ərazi bütövlüyünə hörmətlə yanaşmaq öhdəliyini öz üzərinə götürdülər. Avstriyaya Almaniya ilə siyasi və iqtisadi ittifaqa girmək qadağan edildi. Müqavilə Avstriyanın öz ərazi bütövlüyünə, siyasi və iqtisadi müstəqilliyinə zərər yetirməmək öhdəliyini müəyyən etdi.

XVI əsrin başlanğıcında Amerika qitəsi kəşf edildikdən sonra ispanların və portuqaliyalıların Cənubi Amerikaya, ingilislərin, irlandiyalıların, fransızların Şimali Amerikaya axını güclənmiş və qitənin bütün ərazisi sərvətləri ilə birlikdə yadellilər tərəfindən zəbt edilərək mənimsənilmişdir. Müstəmləkəçilər Amerika əraziləri üzə-





rində sahiblik hüququnu gerçəkləşdirmək üçün öz istiqlaliyyətləri uğrunda mübarizə aparmış və dövlət qurumları yaradaraq Avropadan asılılığa son qoymuşlar. 1776-cı ildə Atlantiksahili 13 ştatın birləşməsi ilə yaranmış Amerika Birləşmiş Ştatları (ABŞ) sonrakı 115 ildə genişlənərək müasir şəklini almışdır. ABŞ-ın müasir sərhədləri əsasən XIX əsrin ortalarında Şimal-Cənub vətəndaş müharibəsindən sonra yaranmışdır.

ABŞ-ın ərazi quruluşunun yaranmasının müxtəlif mərhələlərində "ərazi", "mütəşəkkil inzibati-ərazi" və "qeyri-mütəşəkkil inzibati ərazi" vahidlər təsis olunmuşdur. Özünün müstəqil hökuməti olmayan və bilavasitə federal hökumət tərəfindən idarə olunan vilayətlər əvvəllər ərazilər adlanırdı. İlk on ştat, habelə Texas, Kaliforniya və Qərbi Vircinya istisna təşkil etməklə, bütün ştatlar Federasiyanın yaranmasının ilk mərhələsində "ərazi" adı ilə tanınırdılar. Belə ki, 1876-cı ildə mövcud olmuş inzibati ərazilərin içərisində səkkiz mütəşəkkil ərazi (Aydoxo, Arizona, Vaşinqton, Vayominq, Dakoba, Montana, Yeni Meksika, Yuta) və qeyri-mütəşəkkil iki ərazi (Alyaska və Hindu əraziləri) qeyd olunmuşdur.

Mütəşəkkil inzibati ərazi federal Konqress tərəfindən qəbul edilmiş xüsusi qanunlar əsasında idarə edilirdi. İcra hakimiyyətinin başında ABŞ Prezidenti tərəfindən təyin edilən və federal hökumət qarşısında cavabdeh olan qubernator dayanırdı. Dövlət hakimiyyətinin nümayəndəli orqanları əhali tərəfindən seçilirdi və özünün qərarlarına qubernatorun qoyduğu vetonu aradan qaldırmaq

hüququna malik idilər. Hakimlər ABŞ Prezidenti tərəfindən təyin olunurdu. ABŞ Prezidentinin seçkilərində bu cür ərazilər iştirak etmirdilər. Əhalinin sayı artdıqca və sosial-iqtisadi infrastrukturlar yaradıldıqca, mütəşəkkil ərazilər ştatların sırasına daxil olurdular. Bəzən bu proses federal dövlət orqanlarının tələbləri yerinə yetirilənədək ləngidilirdi. Məsələn, Yuta ərazisi tərəfindən federal Konqresə dəfələrlə edilən müraciətlər cavabsız qalırdı. Çünki, Konqress həmin ərazidən çoxarvadlılığın qabaqcadan ləğvini təmin edən tədbirlərin həyata keçirilməsinə nail olmaq istəyirdi.

ABŞ-da XX əsrin əvvəllərinədək mövcud olmuş qeyri-mütəşəkkil ərazilər ABŞ Prezidentinin təsis etdiyi inzibatçı tərəfindən idarə olunurdu. Bu ərazilərdə xalq nümayəndəli orqanları (qanunvericilik məclisi) yaradılmırdı.

ABŞ-da özünəməxsus inzibati ərazi sistemi yaranmışdır. Hazırda bu ölkədə 78 mindən çox müxtəlif inzibati-ərazi vahidləri mövcuddur ki, bu da yerli işlərin aparılmasını asanlaşdırır və dövlət idarəetməsində əks-mərkəzləşməni təmin edir. Ştatın ən iri inzibati-ərazi vahidi qraflıqdır. Ölkədə üç mindən çox qraflıq vardır. İnzibati-ərazi sisteminin aşağı səviyyəli subyektlərinə taun, taunşip və digər yerli özünüidarə qurumlarını aid etmək olar.

Yuxarıda ifadə olunanlar ərazi vahidlərinin inzibati fəaliyyətinin səmərəliliyi və mütəşəkkilliyi səviyyəsindən asılı olaraq subyektlərin hüquqlarının fərqləndirilməsi (məsələn, qeyri-mütəşəkkil ərazilərin Prezident seçkilə-





rində iştirak etməkdən məhrum edilməsi) sahəsində ABŞ-ın əldə etdiyi təcrübənin dünyanın başqa ölkələrində, o cümlədən Azərbaycan Respublikasında, məsələn, keçid rejiminin mövcud olduğu ərazidə istifadə edilməsinin məqsədəuyğunluğunu təsdiq edir.

Tədqiqat göstərir ki, unitar dövlətlərdə inzibati-ərazi bölgüsünün müəyyən edilməsi mərkəzi hakimiyyətin və hökumətin, federativ dövlətlərdə isə federasiya subyektinin səlahiyyətinə daxildir. Hazırda dünyanın ayrı-ayrı ölkələrində inzibati-ərazi bölgüsünün çox inkişaf etmiş və az inkişaf etmiş, sadə və mürəkkəb sistemləri mövcuddur. Bu, adətən, dövlətin böyüklüyündən və əhalinin sayından, habelə sakinlərin və ərazi qurumlarının iradəsi və arzusu ilə müəyyən edilir.

İnzibati-ərazi bölgüsünün ikisəviyyəli sistemi dünyada daha çox (Niderlandda əyalətlər və icmalar, Yaponiyada prefekturalar və bələdiyyələr, İsveçdə lenlər və icmalar, ABŞ-da qraflıqlar və bələdiyyələr və s.) yayılmışdır. Aşağı səviyyəli ərazi vahidlərinin yaranması təbii yolla getmişdir: hər bir yaşayış məntəqəsi, qəsəbə, şəhər ayrıca inzibati ərazi vahidinə çevrilmişdir. Yuxarı səviyyəli ərazinin (əyalətlərin, dairələrin, departamentlərin) yaradılması məsələsi müəyyən vəzifələrin yerinə yetirilməsi üçün dövlət hakimiyyəti orqanlarının qərarlarına uyğun həll edilir.

Ayrı-ayrı ölkələrdə üç, dörd və beş səviyyəli inzibati ərazi bölgüsü tətbiq edilir. Əksər hallarda yeni, daha iri ərazi vahidlərinin yaranmasına maraq getdikcə artmaq-

dadır ki, bu da bir sıra amillərin nəzərə alınmasını tələb edir. Birincisi, köhnə vahidlərin miqyasca səmərəli iqtisadi planlaşdırma üçün olduqca kiçik olması. İkincisi, yaradılmış ərazi vahidləri (departamentlər, rayonlar, əyalətlər) özünüidarə hüququ əldə edirlər və ona görə də, dövlət, özü-özünü idarə edən ərazilər üzərində nəzarətin həyata keçirilməsi, onların fəaliyyətinin uzlaşdırılması üçün daha iri ərazi qurumlarını yaratmaqda maraqlıdır.

Tədqiqat Azərbaycan Respublikasının inzibati-ərazi sistemində "region" komponentinin yaradılmasının məqsədəuyğunluğunu təsdiq edir.

Etnos amilinin milli ərazi vahidləri sisteminin yaranmasına təsirini nəzərə alaraq, tədqiqatın gedişində "dövlətyaradan xalq" anlayışından istifadə edilir, türk millətinin min il ərzində yaratdığı dövlətə-Türkiyə Cümhuriyyətinə qarşı erməni və kürd millətçilərinin ərazi iddialarının əsassızlığına dair nəticə çıxarılır.

Almaniya Federativ Respublikasının ərazi quruluşunun yaranması xüsusiyyətlərinin öyrənilməsi bu ölkənin bir çox müasir ərazi subyektlərinin 1871-ci ilə qədərki dövrlərdə mövcud olmuş alman feodal dövlətlərinin adları saxlanılmaqla, onların ərazilərində yaradılması və bu heç də müasir Almaniyanın əvvəlki feodallıqlara parçalanması təhlükəsini yaratmır.

Xarici dövlətlərdə ərazi quruluşunun yaranması xüsusiyyətlərinin tədqiqini aşağıdakı müddəalarla ümumiləşdirmək mümkündür.





1. Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının müddəalarını, rəsmi statistikada regional qruplaşdırma üsulunun tətbiqini nəzərə alaraq, inzibati-ərazi sistemində "region" komponentinin yaradılması ilə bağlı məsələnin, Fransanın təcrübəsindən istifadə edilməklə, konstitusion-hüquqi qaydada həll edilməsi məqsədəuyğundur.

2. Əvvəlki dövrlərdə ABŞ-ın ərazi subyektlərinin mütəşəkkilliyi səviyyəsindən asılı olaraq onların hüquqi statusunun fərqləndirilməsi sahəsində əldə etdiyi təcrübədən Azərbaycan Respublikasının keçid rejimli ərazilərində istifadə edilməsi mümkündür.

# II FƏSİL

# AZƏRBAYCAN DÖVLƏTİNİN ƏRAZİ QURULUŞUNUN KONSTİTUSİON ƏSASLARI

## 2.1 *Ərazi quruluşunun konstitusion-hüquqi tənzimlənməsi*

Azərbaycan Respublikasının ərazi quruluşunun konstitusion-hüquqi tənzimlənməsinin tarixi keçmişinə müraciət edərək, onun siyasi-coğrafi vəziyyətinin müxtəlif tarixi mərhələlərdə bir sıra mühüm dəyişikliklərə məruz qalmasını, lakin bu dəyişikliklərin, o cümlədən dövlətin ərazi quruluşu ilə bağlı məsələlərin hüquqi cəhətdən qiymətləndirilmədiyini xüsusilə qeyd etmək lazımdır.

Müasir Azərbaycan Respublikasının dövlət ərazisinə dair məsələlərin hərtərəfli öyrənilməsi üçün Rusiya və İran arasında bağlanmış və bütün region xalqlarının taleyüklü problemlərinin həllində mühüm rol oynamış Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) müqavilələrinin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Bu müqavilələr Şimali Azərbaycanın bütün ərazisinin Rusiya imperiyasına birləşdirilməsi haqqında müddəanı birmənalı şəkildə təsbit etdilər. Bu müqavilələrin əsas göstərişlərinin həyata keçirilməsi nəticəsində Şimali Azərbaycanın ərazisində mövcud olmuş dövlət qurumları (xanlıqlar) ləğv edilmiş, işğal edilmiş Cənubi Qafqazın inzibati-ərazi quruluşu Rusiya imperiyasının inzibati-ərazi bölgüsü sisteminə tam uyğunlaşdırıldı.





XIX əsrin əvvəllərində Çar Rusiyasının müstəmləkəsinə çevrilmiş Şimali Azərbaycanın ərazi quruluşu imperiyanın maraqlarına uyğun olaraq aşağıdakı dəyişikliklərə məruz qalmışdır:

1) Borçalı inzibati ərazisi Tiflis quberniyasının tərkibinə birləşdirilmişdir;

2) Dərbənd şəhəri və Dağıstanın Azərbaycan əhalisinin məskunlaşdığı bir sıra digər rayonları Azərbaycandan alınmış və Rusiyaya birləşdirilmişdir;

3) İrandan və Türkiyədən köçürülmüş erməni əhalisinin məskunlaşdığı ərazilərdə yeni yaşayış məntəqələri yaradılmışdır.

Beləliklə, Şimali Azərbaycan əhalisinin XX əsrdə və XXI əsrin əvvəlində düçar olduğu ərazi mübahisələrinin və münaqişələrinin bünövrəsinin qoyuluşunu XIX əsrdə baş vermiş hadisələrin gedişi ilə əlaqələndirmək mümkündür.

Yuxarıda ifadə olunanlardan belə bir nəticəyə gəlmək olar ki, müasir Azərbaycan Respublikasının dövlət sərhədlərinin təyin edilməsi və ərazi quruluşu ilə əlaqədar məsələlərin düzgün həll edilməsi üçün Rusiya və İran arasında bağlanmış "Gülüstan" (1813-cü il) və "Türkmənçay" (1828-ci il) sülh müqavilələrinin müddəalarının, hebelə ermənilərin işğal olunmuş Qafqaz ərazilərinə gətirilməsini təsdiq edən Rusiya imperiyasının gömrük sta-

tistikasının arxiv məlumatlarının hüquqi mənbə kimi istifadə edilməsi məqsədəmüvafiqdir.

Müasir Azərbaycan Respublikasının 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olmasına dair "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktının 2-ci maddəsi ilə təsbit edilmiş norma əsas götürülərsə, Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinin müstəqil Azərbaycan Respublikasının dövlət ərazisinə dair məsələnin öyrənilməsi üçün əhəmiyyət kəsb etməsini etiraf etmək zəruridir. Bəyannamənin siyasi-hüquqi əhəmiyyəti onunla müəyyən olunur ki, o, Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini özündə əks etdirməklə yanaşı, Cümhuriyyətin ərazisi haqqında müddəanı təsbit etmişdir. Bu məsələyə I fəslin ikinci paraqrafında toxunulmuşdur. Azərbaycan Respublikasının Konstitusiya hüququ, habelə dövlət və hüquq tarixi problemlərinin tədqiqatçıları tərəfindən 1918-ci ildə baş vermiş hadisələrlə əlaqədar 2000-ci illərdə yeni açılmış hallara münasibət bildirilməməsi diqqəti cəlb edir. Hüquqşünaslardan fərqli olaraq, tarixçilər 1918-1920-ci illərdə Azərbaycanın ərazi itgiləri ilə bağlı məsələni tədqiq edərkən məntiqə sığmayan müddəalar uydurdular. Məsələn, Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının müəllifləri yazırlar: "Cümhuriyyətin ərazisi 113,9 min kv. km-ə bərabər idi. Lakin aprel işğalı (1920) və Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən sonra Sovet Rusiyasının yeritdiyi ayrıseçkilik siyasəti nəticəsində Azərbaycan əraziləri daha da azaldıldı. Yeni yaradılan Azərbaycan Sovet Sosialist Respublikasının sərhədləri 86,6 min kv.km müəyyən edildi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti ərazisinin 27,2 min kv.km-i Azərbaycan xalqının əlindən alındı".[1] Lakin müəlliflər Ensiklopediyanın 11-ci səhifəsində İrəvan ərazilərinin Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli iclasında səs çoxluğu ilə Ermənistana güzəşt edildiyini göstərirlər.[2] Azərbaycan Xalq Cümhuriyyətinin ərazisinin ölçüləri haqqında Ensiklopediyanın 12-ci səhifəsindəki cədvəl məlumatlarının təhlili 27,2 min kv.km-lik ərazidən 16,6 min kv.km-in məhz, Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti dövründə itirilməsi barədə nəticə çıxarmağa imkan verir.

Yuxarıda ifadə olunanlardan belə bir nəticəyə gəlmək mümkündür ki, Azərbaycan Respublikasının dövlət ərazisinin sərhədlərinin müəyyənləşdirilməsi məsələsinin həllində Azərbaycan Milli Şurasının İstiqlal Bəyannaməsi ilə müqayisədə Çar Rusiyası ilə İran arasında bağlanmış Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə istinad edilməsi daha məqsədəmüvafiqdir.

Azərbaycan Respublikasının ərazi quruluşunun birbaşa konstitusion tənzimlənməsi tarixinin onun SSRİ-nin

[1] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2004, s.12.
[2] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2004, s.11

tərkibində olması ilə əlaqəliliyini əsas götürərək müttəfiq respublika səviyyəsində ərazi məsələlərinin nizamlanması vəziyyətini nəzərdən keçirək.

1921-ci il mayın 19-da qəbul edilmiş Azərbaycan Sovet Sosialist Respublikasının birinci konstitusiyası (əsas qanunu) Azərbaycanı mərkəzi və yerli hakimiyyət orqanlarına malik olan və xarici dövlətlərin hər hansı birliyinə daxil olmaq öhdəliyi olmayan unitar tipli müstəqil sosialist respublikası elan etdi.Konstitusiyada Azərbaycan SSR-in dövlət ərazisinin quruluşuna dair müddəa təsbit edilməmiş və yalnız onun sərhədlərinin təyin edilməsi və dəyişdirilməsi məsələlərinin Azərbaycan sovetlər qurultayının və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətlərinə aidiyyətliyi göstərilirdi.[1]

Sovet orqanlarının 1920-1925-ci illərdə Azərbaycan ərazisinin parçalanması üzrə fəaliyyətin mahiyyətini öyrənərkən ərazinin və bu ərazidə məskunlaşan insanların taleyinin kimlər tərəfindən və hansı üsulla həll edilməsi, ərazinin özgəninkiləşdirilməsinin həmin dövrdə necə göründüyü və hazırda necə görünməsi kimi suallardan yan keçmək mümkün deyildir. Eyni məzmunlu məsələlərin tədqiqatı prosesində rusiyalı hüquqşünas A.V.Direqanova sovet dövründə ərazi bölgüsünün süniliyini və böyük saxtakarlıqla aparıldığını qeyd edir.[2]

---

[1] Naxçıvan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu),Bakı, AzMİK nəşri, 1926, s. 7.

[2] Диреганова А.В. Административно-территориальное устройство субъектов Российской Федерации, находящихся в пределах Южного Федерального округа. Дисс.... канд. юрид. наук, Ставрополь, 2005, s. 42.





Keçən əsrin 20-ci illərində Azərbaycanın ərazi bölgüsü məsələlərini həll edən şəxslərin kimliyinin müəyyən edilməsi üçün tarixi məlumatlara müraciət etmək kifayətdir. 1922-ci il martın 12-də bərabərhüquqlu üç müttəfiq sovet respublikalarının müqaviləsi əsasında Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqının (ZSSRF-in) yaradılması və onun Zaqafqaziya Sosialist Federativ Sovet Respublikasına (ZSFSR-ə) çevrilməsi, 1922-ci ilin dekabrın 23-27-də X Ümumrusiya Sovetlər qurultayında SSRİ-nin yaradılması haqqında qərar qəbul edilməsi, Azərbaycan SSR-in İttifaq dövlətlərinin tərkibinə daxil edilməsi, 1924-cü ildə Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılması və Dağlıq Qarabağ muxtar vilayətinin təşkili ilə bağlı məsələlərin həll edilməsində müxtəlif səviyyələrdə V.İ.Lenin, V.M.Molotov, Q.K.Orconikidze, İ.V.Stalin, S.M.Kirov, A.İ.Mikoyan, S.L.Srapionyan, P.O.Mdivani, A.F.Myasnikov, Ş.Z.Eliavani, M.D.Oraxelaşvili, M.K.Pleşşakov, M.Z.Lisovski, F.İ.Maxaradze, L.İ.Mirzoyan, N.S.Okucava, V.Q.Yeqorov, N.Q.Poltoratski, V.V.Kuybışev, Q.İ.Petrovski, A.M.Mirzoyan, M.F.Frunze, M.Q.Sxakaya, M.İ.Kalinin, A.S.Yenikidze, V.D.Kasparov, A.N.Karakazov, Q.N.Kaminski, V.D.Stasova, S.A.Danielyan, A.P.Serebrovski kimi yadellilər-partiya və sovet xadimləri fəal iştirak etmişlər.[1]

---

[1] Воронин А.А. Территориальная организация: теоретические и исторические аспекты: дисс..канд. юрид. наук, Ярославль, 2003, s. 174-219.

Çoxsaylı tarixi mənbələrdən görünür ki, Azərbaycanın Rusiya rəhbərliyinin iradəsi ilə yaradılan ittifaqların tərkibinə daxil edilməsi məsələsi yuxarıda adları çəkilmiş şəxslər tərəfindən Azərbaycanın bütün əhalisi ilə deyil, yalnız bir qrup azərbaycanlı kommunistlərlə (S.C. Yaqubov, M.Ə. Qarayev, S.M. Əfəndiyev, M.D. Hüseynov, D.X. Bünyadzadə, Q.P. Cəbiyev, Y.S. Tahirov, N.T. Tağıyev, M.M. Məmmədxanov) razılaşdırılaraq birtərəfli qaydada həll edilmişdir. Azərbaycan ərazisinin erməni və gürcü millətçilərinin iştirakı ilə Rusiya kommunistləri tərəfindən parçalanması prosesində azərbaycanlı kommunistlər müxalif mövqe tuta bilməmişlər. N. Nərimanov Azərbaycanın Zaqafqaziya respublikalarının İttifaq müqaviləsinə qoşulması və SSR İttifaqına daxil olması məsələləri həll edilərkən, V.İ.Leninə ünvanladığı məktublarında respublikaların birləşməsi və İttifaq dövlətinin tərkibinə daxil edilməsində tələsikliyə yol verilməməsi, daxili siyasətdə gözəl ibarələrin real işlə təsdiq edilməməsi, Q.K.Orconikidzenin ittifaq müqaviləsinin layihəsi haqqında partiya plenumunda (3 noyabr 1921-ci il) məruzəsində Qafqazın yerli əhalisinin maraqlarının inkar olunması, Bakı şəhərinin Zaqafqaziyanın İttifaq dövlətinin mərkəzinə çevrilməsi barədə fikirlər bildirilirdi.[1] Lakin, N.Nərimanovun, R.Ə.Axundovun, M.D.Hüseynovun səylərinə baxmayaraq, Azərbaycan Respublikası 1920-1925-ci illərdə özünün dövlət müstəqilliyini itirdi və tarixi ərazisi üzərində suverenlik hüququndan məhrum edildi.

[1] Azərbaycan tarixi.Yeddi cilddə.VI cild (aprel 1920-iyun 1941), Bakı, "Elm", 2008, s. 175.





1920-1926-cı illərdə Azərbaycan Respublikasının sosial-iqtisadi həyatında baş vermiş hadisələrin siyasi-hüquqi nəticələri öz ifadəsini Azərbaycan SSR-in 26 mart 1927-ci ildə qəbul edilmiş ikinci Konstitusiyasında tapdı. Konstitusiya Azərbaycanın ZSFSR-in və SSRİ-nin tərkibində müttəfiq respublika statusunu təsbit etdi. Bu Konstitusiyaya əsasən Naxçıvan MSSR-in və Dağlıq Qarabağ muxtar vilayətinin sərhədlərinin təyin edilməsi, habelə Azərbaycan ərazisinin inzibati bölgüsü məsələləri Azərbaycan Sovetlər Qurultayının və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətlərinə aid edilmişdir. Azərbaycan SSR-in 1921-ci il və 1927-ci il Konstitusiyalarının xüsusiyyəti ondan ibarət olmuşdur ki, onlar Azərbaycan SSR-in ərazi quruluşu, o cümlədən, respublikanın su ərazisi haqqında müddəalara malik olmamışlar. Azərbaycan SSR-in 1927-ci il Konstitusiyasının 19-cu maddəsinə görə Azərbaycan Respublikasının sərhədlərinin dəyişdirilməsi məsələsi Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi tərəfindən baxılmasına yalnız SSRİ və ZSFSR-in əsas qanunları ilə nəzərdə tutulmuş qaydada yol verilirdi ki, bu da müttəfiq respublikanın suveren ərazsisinin bütövlüyünün və bölünməzliyinin təmin edilməsini məhdudlaşdırdı.[1]

[1] Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanun)-Bakı, AzMİK nəşriyyatı, 1927, s. 8.

1936-cı il dekabrın 5-də SSRİ-nin yeni Konstitusiyası qəbul edildikdən və Zaqafqaziya federativ müqaviləsi pozulduqdan sonra Azərbaycan SSR SSRİ-nin tərkibinə birbaşa daxil oldu. 1927-1936-cı illərdə respublikanın ictimai-siyasi həyatında baş vermiş hadisələrlə əlaqədar dəyişikliklər öz əksini 1937-ci il martın 10-da qəbul edilmiş Azərbaycan SSR-in yeni Konstitusiyasında tapdı. Yeni Konstitusiya əvvəlki Konstitusiyanın respublikanın sərhədlərinin ittifaq qanunları əsasında dəyişdirilməsinə dair səhv müddəasını ləğv etdi və Azərbaycan SSR ərazisinin Azərbaycan SSR-in razılığı olmadan dəyişdirilməsinin qeyri-mümkünlüyü haqqında müddəanı təsbit etdi.[1]

Azərbaycan SSR-in ərazi quruluşu ilə bağlı məsələ əvvəlki konstitusiyalarla müqayisədə 1977-ci il SSRİ Konstitusiyasında və ona müvafiq olaraq 1978-ci il aprelin 21-də qəbul edilmiş Azərbaycan SSR-in Konstitusiyasında olduqca geniş yer tutur. Azərbaycan SSR Konstitusiyasının 70-ci maddəsi Azərbaycan SSR-in suverenliyinin Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olan Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar vilayəti də daxil olmaqla respublikanın bütün ərazisinə şamil olunduğunu elan edir, respublikanın ərazisinin ayrılmazlığı, bütövlüyü prinsiplərini təsbit etmişdir. Konstitusiyada göstərilmişdir ki, Azərbaycan SSR-in digər müttəfiq respublikalarla

---

[1] Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanun)-Bakı, Az partnəşr, 1938, s. 7.





sərhədləri yalnız müttəfiq respublikalarla qarşılıqlı saziş üzrə dəyişdirilə bilər.[1]

İlk dəfə olaraq SSRİ Konstitusiyası və Azərbaycan SSR Konstitusiyası səviyyələrində qəbul olunmuşdur ki, müttəfiq respublika ilə SSR İttifaqı arasında qarşılıqlı münasibətlər müttəfiq respublikanın suverenliyinə və SSRİ-nin suverenliyinə əsaslanan müqavilə əsasında qurulur.[2] SSRİ Konstitusiyasının 75-ci maddəsində göstərilmişdir ki, SSRİ-nin ərazisi vahid olmaqla müttəfiq respublikaların ərazilərini özündə birləşdirir.[3]

1978-ci il Konstitusiyasına görə Azərbaycan SSR öz rayon bölgüsünü müəyyənləşdirmək və inzibati ərazi quruluşunun başqa məsələlərini həll etmək hüququna malik olmuşdur. Konstitusiyanın 78-ci maddəsinə uyğun olaraq Azərbaycan SSR-in tərkibində Naxçıvan MSSR, Dağlıq Qarabağ muxtar vilayəti, 55 rayon və respublika tabeliyində olan 9 şəhər birləşmişdir.[4]

Qeyd etmək lazımdır ki, Azərbaycan SSR-in 1978-ci il aprelin 21-də qəbul edilmiş Konstitusiyası 1969-1990-cı illərdə onun mətnində çoxsaylı dəyişikliklər edilməsinə baxmayaraq, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra da hüquqi qüvvəsini saxlamışdır. 1977-ci

---

[1] Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanun)-Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1990, s. 24.

[2] Конституция (Основной закон) Союза Советских Социалистических Республик. М., «Юридическая литература», 1989, s. 23.

[3] Конституция (Основной закон) Союза Советских Социалистических Республик. М., «Юридическая литература», 1989, s. 19.

[4] Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanun)-Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1990, s. 27-28.

il SSRİ Konstitusiyasının və 1978-ci il Azərbaycan SSR Konstitusiyasının ərazi münasibətlərini tənzimləyən normalarının müqayisəli təhlili göstərir ki, birincisi, istinad etdiyimiz normaların tətbiqi əsasən keçmiş müstəmləkəçiliyin əlamətlərini aradan qaldırmaqla bərabər, Mərkəzin və müttəfiq respublikanın (Azərbaycan SSR-in) ərazi və iqtisadi maraqlarının tarazlaşdırılmasına kömək etmişdir; ikincisi, Azərbaycan SSR-in 1921, 1927 və 1937-ci ildə qəbul edilmiş konstitusiyalarında olduğu kimi, 1978-ci il aprelin 21-də qəbul edilmiş Konstitusiyasında da respublikanın su ərazisi, o cümlədən Xəzər dənizin Azərbaycan SSR-ə mənsub olan bölməsi barədə heç bir müddəa təsbit edilməmişdir. Qeyd etmək lazımdır ki, İttifaq dövlətinin və Azərbaycan SSR-in dəniz ərazi və sərhəddinin qeyri-müəyyənliyi istisna təşkil etməklə ərazi məsələlərinin həllində qarşılıqlı fəaliyyətinin nəticələri 1985-ci ildə M.S.Qorbaçovun Sovet dövlətinin başçısı vəzifəsinə gəlməsinədək olan dövrdə tərəflərin maraqlarını təmin edirdi. 1985-ci ildən etibarən Mərkəzin "görünməyən əli" erməni millətçilərinin Dağlıq Qarabağ muxtar vilayətini Ermənistan SSR-in tərkibinə birləşdirmək məqsədilə Azərbaycan üzərinə qəfil hücumunun təşkil edilməsi üçün əlverişli şərait yaratmağa başladı. İttifaq rəhbərliyi erməni millətçilərini cəmiyyətdən təcrid etmək və Sibirdəki cəza-icra müəssisələrinə köçürmək əvəzinə, Azərbaycana qarşı müharibə aparmağa qadir olan Ermənistan ordusunu yaratdı və onu gizli surətdə silahlandırmağa başladı. M.S.Qorbaçov erməni millətçiləri üzərində konstitusion əsasda havadarlıq etmək üçün 1990-cı ildə SSRİ-də milli dövlət və inzibati ərazi prinsiplərinin təmin edilməsi səlahiyyətinə malik olan SSRİ prezidenti vəzifəsinin təsis edilməsinə və həmin vəzifəyə yiyələnməsinə nail oldu. Qeyd etmək lazımdır ki, M.S.Qorbaçov başda olmaqla sovet rəhbərliyi tərəfindən yaradılmış əlverişli hərbi-siyasi vəziyyət 1988-1994-cü illərdə Azərbaycan ərazisinin 5/1 hissəsinə qədərinin erməni silahlı qüvvələri tərəfindən işğalını sürətləndirməyə kömək etdi.





M.S.Qorbaçov çoxmillətli dövlətin rəhbəri kimi kifayət qədər təsirli konstitusion səlahiyyətlərə və bütün hərbi-siyasi vasitələri tətbiq etmək hüququna malik olaraq erməni millətçiliyinə son qoya və ermənilərin Azərbaycan torpaqlarına qarşı iddialarını ədalətlə həll edə bilərdi. Ərazi məsələsinin düzgün həll edilməsi üçün SSRİ-nin rəhbəri aşağıdakı başlanğıc müddəalarını nəzərə almalı idi:

1. Hay adlanan etnik azlıq yunan-iran müharibələrinin gedişində yunanlara qarşı xəyanət etməkdə təqsirləndirilərək Balkan yarımadasından qovulmuş, Kiçik Asiya yarımadası, İran, Livan, Suriya, İordaniya, İrak ərazilərinə səpələnmişdir. Hayların bir etnos kimi Yaxın Şərq ölkələrinin ərazilərinə səpələnməsinin və 1920-ci ildən əvvəlki 2300 il ərzində vətənə-torpağa malik olmamasının həqiqi səbəbləri, yunan, ərəb, iran, italyan, alban mənbələrində, rus tədqiqatçısı N.Veliçkonun "Qafqaz" kitabında göstərilmişdir (100). Ona görə də vətəni və torpağı ol-

mayan hayların İran və ya Kiçik Asiya mənşəli etnos hesab edilməsi üçün tarixdə əsas yoxdur.

2. Haylar Birinci Pyotrın zamanından başlayaraq özlərini Qafqaz mənşəli etnos kimi tanıtmaq məqsədilə ən qədim zamanlardan Göyçə gölü ətrafında məskunlaşmış "Ərmənlər" adlı türk tayfasının adını və tarixini mənimsəməklə məşğul olmaqda davam edirlər. Buradan belə bir sual meydana çıxır: haylar (ermənilər) hansı üsulla Rusiya çarının etibarını qazana bilmişlər? Cavab aydındır. Haylar qədim Yunanıstandan İrana qovularkən yunan dövlətinə və ordusuna qarşı gizli donosları İran şahına göndərirdilər və bunun müqabilində İran ərazisində sığınacaq alırdılar. Ermənilər XVIII əsrdən başlayaraq xristian bayrağı altında İran və Osmanlı dövlətlərinə qarşı təxribatlar törətmiş və həmin dövlətlərin hərbi vəziyyəti haqqında gizli donosları (məlumatları) Qafqazdan şimalda yaranan və Hind okeanına qədər əraziləri işğal etmək məqsədini qarşıya qoyan rus imperiyasının başçısına-Birinci Pyotra verərək, gələcək erməni dövləti üçün ərazi ayrılmasına onun razılığını almışlar.

3. XIX əsrə qədər ermənilər Qafqaz ərazilərində yaşamamışlar. Yalnız XIX əsrin əvvəlində Qafqazın Çar Rusiyası tərəfindən işğalı zamanı ermənilər işğal olunmuş ərazilərə, daha dəqiq desək, İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərinə ruslar tərəfindən köçürülmüşlər. Ermənilərin İrandan işğal olunmuş Şimal Azərbaycana köçürülməsi Rusiya və İran arasında bağlanmış "Gülüstan" (1813-cü il) və "Türkmənçay" (1828-ci il) mü-





qavilələri ilə rəsmiləşdirilmişdir. Ermənilər XIX əsrin əvvəlindən XX əsrin sonunadək azərbaycanlılara qarşı donoslarını Rusiyanın və SSRİ-nin rəhbərlərinə ünvanlayaraq, azərbaycanlıları daima pantürkizm ideyalarının daşıyıcıları və slavyan xalqlarının düşmənləri kimi təsvir etməyə çalışmışlar. Lakin, Rusiyanın və SSRİ-nin rəhbərlərinin heç də hamısı bu donoslarla hesablaşmırdı.

4. 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının rəhbərliyi Rusiya dövlətinin təzyiqi altında İrəvan xanlığının ərazisini ermənilərə Ermənistan Respublikasını yaratmaq üçün güzəştə getmişdir. 1920-ci ildə Sovet Ermənistanı Rusiyanın havadarlığı ilə Azərbaycanın yeni ərazilərini işğal etmiş və xeyli genişlənmişdir. Rusiyanın kommunist rəhbərliyinin Qafqazla heç bir tarixi əlaqəyə malik olmayan erməni etnosu üçün başqa bir millətin (azərbaycanlıların) ən qədim zamanlardan məskunlaşdığı ərazinin bir hissəsində qanunsuz dövlət yaratmasına bəraət qazandırmaq mümkün deyildir.

5. Azərbaycan Çar Rusiyasının və sonra Sovet İttifaqının tərkibinə daxil olaraq, özünün canlı və maddi resursları ilə Rusiyanın mövcudluğunun və inkişafının mühüm amilinə çevrilmişdir. Böyük vətən müharibəsi illərində cəbhənin yanacağa olan tələbatının 90 faizi Azərbaycanın hesabına təmin olunmuşdur. Bununla əlaqədar olaraq marşal Q. Jukov kimi böyük sərkərdənin "Qələbəyə doğru atılan hər addıma görə Qızıl Ordu Bakının neftinə borcludur" məzmunlu sözlərini xatırlamaq olduqca əhəmiyyətlidir.

Sovet rəhbərliyi yuxarıda ifadə olunan müddəaları təhlil edərək 1990-cı illərin əvvəlində indiki Ermənistan Respublikasının Azərbaycan SSR-in tərkibində muxtar vilayətə çevrilməsi və yaxud Sibirdə ermənilər üçün ərazi ayırmaqla, onların Qafqazdan köçürülməsi barədə qərar qəbul etməli idi. Lakin, başda M.S. Qorbaçov olmaqla İttifaq dövlətinin həyata keçirdiyi ermənipərəst siyasət Azərbaycan ərazisinin erməni silahlı qüvvələri tərəfindən işğal olunmasında həlledici rol oynadı və bu da Azərbaycan əhalisinin sovet dövlətinə inamını tam sarsıtdı. Həmin illərdə Azərbaycan xalqı Kremlin rəhbərliyindən Azərbaycan ərazisini zorakılıqla qoparmağa çalışan erməni millətçilərinin cəzalandırılmasını tələb edirdi. Kremlin rəhbərliyi tərəfindən erməni millətçilərinin cilovlanması istiqamətində heç bir cavab tədbiri həyata keçirilmədi və bu səbəbdən Azərbaycanın SSRİ-nin tərkibindən çıxmağa başlamasını müəyyən edən "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı (18 oktyabr 1991-ci il) qəbul edilmişdir. Dövlət müstəqilliyinin elan edilməsi ilə yanaşı, Konstitusiya Aktında göstərilmişdir ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, bölünə və özgəninkiləşdirilə bilməz, yalnız respublikanın bütün əhalisi arasında xalq səsverməsi (referendum) keçirmək yolu ilə Azərbaycan xalqının razılığı əsasında sərhədlərdə dəqiqləşdirmə aparıla bilər.[1]

---

[1] "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı (18 oktyabr 1991-ci il)-Azərbaycan Respublikasının Qanunlar Külliyyatı."Hüquq ədəbiyyatı" nəşriyyatı.





Konstitusiya Aktının dövlət ərazisinə dair müddəaları Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə qəbul edilmiş Konstitusiyasında öz əksini tapdı. Konstitusiyanın 11-ci maddəsində Azərbaycan Respublikasının ərazisinin vahidliyi, toxunulmazlığı, bölünməzliyi, özgəninkiləşdirilməməsi, dövlət sərhədlərinin yalnız Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə xalqın iradəsi əsasında dəyişdirilməsi təminatları ilə yanaşı, Azərbaycan Respublikasının ərazisinin daxili sulardan, Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsindən, Azərbaycan Respublikasının üzərindəki hava məkanından ibarət olmasına dair müddəa təsbit edilmişdir.[1]

Konstitusiya normasının məzmununu təhlil edərək, asanlıqla qeyd etmək olar ki, birincisi, yer səthinin əsas komponenti kimi quru və yerin təki Azərbaycan Respublikası ərazisinin tərkib hissələri kimi göstərilmir və ikincisi, Azərbaycan Respublikasının inzibati ərazi quruluşunu müəyyən edən norma Konstitusiyada əks olunmamışdır. Fikrimizcə, Konstitusiya norması beynəlxalq hüquq mövqeyindən dövlətin ərazisinin tərkibini üzərində dövlətin suveren hüququ olan və onun yurisdiksiksiyasın həyata keçirildiyi yer səthi (o cümlədən, quru, sular və yerin təki) və hava məkanından ibarət olan hissələrin məcmusu kimi müəyyən etməlidir. İnzibati ərazi quruluşu prinsip-

---

Bakı. 2001, s. 93.

[1] (Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. Hüquq Yayım Evi, 2022, s. 6.

lərini əsas götürərək, Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin II hissəsinə aşağıdakı məzmunda normanın əlavə edilməsi məqsədəuyğundur:

"...Azərbaycan Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikasının, rayonların, respublika tabeliyində olan şəhərlərin əraziləri Azərbaycan Respublikasının vahid ərazisini təşkil edirlər".

Təklif edilən əlavənin Konstitusiyanın 11-ci maddəsinə daxil edilməsi Azərbaycan Respublikasının inzibati ərazi tərkibinin, respublikanın subyektləri adbaad göstərilməklə, ayrıca maddə ilə Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilməsi zərurətini ortaya qoyur.

Azərbaycan Respublikasının inzibati ərazi quruluşunun konstitusion-hüquqi vasitələrlə tənzimlənməsinin zəruriliyi həm də 1992-2020-ci illərdə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan ərazisi İkinci Qarabağ müharibəsinin gedişində azad edildikdən sonra yaranmış yeno reallıqlarla şərtləndirilir. Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmanına əsasən Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları yaradılmış və ümumiyyətlə, iqtisadi rayonların sayı 10-dan 14-ə çatdırılmışdır. Bununla əlaqədar olaraq respublikanın müasir ərazi probleminin həllinin aşağıdakı əsas istiqamətlərini göstərmək mümkündür:

- birincisi, Cənubi Qafqaz regionunda real sülh prosesinin fasiləsizliyinin təmin edilməsində xalq diplomatiyasının rolunun gücləndirilməsi və dinc qonşuluq siyasətinin təbliğ edilməsi;
- ikincisi, 1988-1989-cu illərdə Ermənstandan deportasiya edilmiş azərbaycanlıların pozulmuş hüquqlarının bərpa edilməsi barədə məsələnin BMT-nin müzakirəsinə çıxarılması;
- üçüncüsü, Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsini Azərbaycan Respublikasının ərazisinin tərkib hissəsi kimi müəyyənləşdirən konstitusion-hüquqi normanın (Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsi, II hissə) tətbiq edilməsi ərazi sularının xarici sərhəddinin məhdudlaşdırılmasına dair müddəanın "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyada təsbit edilməsi səbəbindən bir sıra manelərlə qarşılaşır. 12 avqust 2018-ci ildə Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan prezidentləri tərəfindən imzalanmış Konvensiyaya əsasən ərazi sularının xarici sərhəddinin müəyyən edilməsi məqsədilə, dənizə ən çox uzanan liman sisteminin tərkib hissəsini təşkil edən daimi liman qurğuları, sahilin bir hissəsi hesab edilsin. Konvensiyanın bu normasının tətbiqinin Azərbaycana münasibətdə əlverişsizliyi onunla müəyyən edilir ki, Respublikada mövcud olan Bakı dəniz limanı və Ələt dəniz limanı ölkə ərazisinin içərisinə uzanan körfəz sahilində yerləşir və ərazi sularının xarici sərhəddinin Bakı və Ələt limanlarının çıxış xətlərindən 15 dəniz milindən artıq olmayan ərazi suları ilə qapanması respublikanın dəniz ərazisinin ölçüsünün azaldılmasına səbəb olur. Ona

görə də, ölkənin ərazi sularının xarici sərhəddinin körfəz amilinin nəzərə alınması şərti ilə müəyyən edilməsi məsələsi beynəlxalq hüquq çərçivəsində öz həllini tapmalıdır.

### *2.2. Naxçıvan Muxtar Respublikasının ərazisinin konstitusion-hüququ statusu*

Unitar dövlət quruluşuna malik olan ölkələrin ərazilərinin müxtəlif ərazi qurumlarına bölünməsi və bu qurumlarda dövlət hakimiyyətinin muxtariyyət formasında həyata keçirilməsi həmin ərazilərdə yaşayan əhalinin idarə olunması işinin nizamlanması zərurətindən irəli gəlir. İtaliya, Fransa, Türkiyə kimi unitar dövlətlərin ərazinin muxtariyyətlik prinsipi əsasında idarə edilməsi sahəsində əldə etdikləri təcrübənin ümumiləşdirilməsi ilə müəyyən olunmuşdur ki, ərazinin dövlət qurumu forması bütövlükdə dövlətlə onun ayrı-ayrı hissələri, o cümlədən muxtar qurumlar arasında qarşılıqlı münasibətlərin xarakterini müəyyən edən dövlət hakimiyyətinin ərazi təşkilini ifadə edir.[1] Bu baxımdan unitar dövlət quruluşuna malik olan müstəqil Azərbaycan Respublikasının ərazisinin bir hissəsində dövlət hakimiyyətinin muxtariyyət formasında təşkili istisna edilmir.

Azərbaycan Respublikasının tərkibində ərazi muxtariyyətinin yaranması tarixinə müraciət etsək görərik ki,

[1] Xarici dövlətlərin konstitusiyaları. Bakı, Qanun, 2010, s. 55, 152, 340.





1920-ci ilin sonunda Azərbaycan ərazisinin Zəngəzur adlanan hissəsinin Sovet Rusiyasının hərbi təzyiqi altında Ermənistan SSR-in tərkibinə birləşdirilməsi nəticəsində azərbaycanlıların ən qədim zamanlardan məskunlaşdığı Naxçıvan diyarının ərazisi Azərbaycanın əsas ərazisindən təcrid olunmuşdur. Ermənistan, İran və Türkiyə ilə həmsərhəd olan və ermənilərin torpaq iddialarının yönəldiyi Naxçıvan ərazisinin muxtariyyət statusunun müəyyən edilməsində 1921-ci ilin əvvəlində Rusiyanın, Ermənistanın və Azərbaycanın nümayəndələri tərəfindən keçirilmiş referendum mühüm rol oynadı. Naxçıvan diyarının əhalisinin 90 faizindən çoxunun Naxçıvana Sovet Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsinə tərəfdar çıxması referendumun nəticələri ilə təsdiq olundu.

Naxçıvan diyarının mürəkkəb və gərgin siyasi ziddiyyətlər şəraitində Azərbaycanın tərkibində muxtar dövlət statusu alması məsələsi RSFSR və Türkiyə arasında 1921-ci il 16 mart tarixli Moskva və RSFSR-in iştirakı ilə, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin 13 oktyabrında Qarsda bağlanmış dostluq müqavilələrində həllini tapmışdır. Beynəlxalq müqavilələr bağlandıqdan sonra Azərbaycan SSR-in tərkibində muxtar qurumunun ərazi statusunun konstitusion-hüquqi tənzimlənməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. 1922-ci ilin noyabrında V.İ.Leninin sədrliyi ilə keçirilən RK (b) P-nin iclasında Naxçıvan Respublikasının muxtariyyəti haqqında qərar qəbul edildi. Həmin

qərarı rəhbər tutmaqla 1922-ci il dekabrın 13-də keçirilən Zaqafqaziya sovetlərinin birinci qurultayı Naxçıvan Respublikasının muxtariyyət hüququ ilə Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasına dair qərar qəbul etdi.[1] 1923-cü ildə Naxçıvan öz hüquqi statusuna görə Azərbaycan SSR-in tərkibində muxtar vahid hüququnda diyar hesab edilirdi. 1924-cü ilin yanvarın 8-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin vəsatətinə əsaslanaraq Naxçıvan diyarını Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası elan etdi. 1924-cü il fevralın 9-da Azərbaycan MİK Naxçıvan diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında dekret verdi və Naxçıvan SSR haqqında Əsasnamənin hazırlanması və qəbul edilməsi üzrə qanunvericilik fəaliyyətini həyata keçirməyə başladı. 1924-cü ilin aprelində Azərbaycan SSR MİK SSRİ-nin ilk Konstitusiyasının prinsiplərinə uyğun olaraq hazırlanmış Naxçıvan MSSR haqqında yeni Əsasnaməni qəbul etdi. Əsasnamənin ikinci maddəsində göstərilirdi ki, Naxçıvan MSSR Azərbaycan SSR-in tərkib hissəsidir və muxtar respublika kimi onun tərkibinə daxil olur. Beləliklə, keçən əsrin 20-ci illərində Cənubi Qafqazda mövcud olmuş hərbi-siyasi vəziyyətin gərginliyi dərəcəsi nəzərə alınmaqla Azərbaycanın tərkibində özünün ali qanunvericilik və icra orqanları olan muxtar dövlət statuslu ərazi qurumu yaradıldı.

[1] Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920-iyun 1941), Bakı, "Elm", 2008, s. 197.





Naxçıvan MSSR-in yaradılması onun ictimai quruluşunun, o cümlədən ərazi münasibətlərinin tənzimlənməsi üçün SSRİ-nin milli dövlət quruculuğunun prinsiplərinə uyğun Muxtar Respublikasının Konstitusiyasının işlənib hazırlanması zəruriliyini meydana gətirdi.

1926-ci il aprelin 18-də Beşinci Ümumnaxçıvan Sovetlər qurultayında qəbul edilmiş Naxçıvan SSR-in birinci Konstitusiyasında Naxçıvan SSR Sovetlər qurultayının və Mərkəzi İcraiyyə Komitəsinin muxtar respublikanın inzibati ərazi bölgüsünü müəyyən etmək səlahiyyəti təsbit edildi. Ərazi məsələlərini tənzimləyən bu norma Azərbaycan SSR və SSRİ-nin konstitusiyalarının müddəalarına uyğun idi. Eyni zamanda 1920-ci illərdə qəbul edilmiş konstitusiyalarda Azərbaycanın əsas ərazisindən təcrid olunmuş Naxçıvan diyarının statusunun müəyyən edilməsində mövcud olmuş qeyri-müəyyənlik diqqətdən yayınmır.

Məsələn, Azərbaycan SSR-in 1925-1927-ci illərdə qüvvədə olmuş konstitusiyalarında göstərilirdi ki, Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının tərkib hissəsidir və onun qəyyumluğu altındadır.[1] Bu müddəadan görünür ki, Naxçıvan diyarı Azərbaycanın tərkibində muxtar respublika yox, SSRİ-nin tərkibinə daxil olmuş müttəfiq respublikalarla bərabər statusa malik olmuşdur. Bu anlaşılmazlıq həqiqət ki-

[1] Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanun)-Bakı, AzMİK nəşriyyatı, 1927. s. 17.

mi öz əksini hüquq və tarix kitablarında da tapmışdır.[1] Beləliklə, yuxarıda ifadə olunanlara əsasən SSRİ-nin tərkibinə daxil olan müttəfiq respublikanın tərkibinə ikinci müttəfiq respublikanın daxil olmasının mümkünlüyü haqqında müddəanın məntiqsizliyi inkar edilməməlidir.

1937-ci il sentyabrın 18-də Naxçıvan ASSR fövqəladə X Sovetlər qurultayı tərəfindən təsdiq edilmiş ikinci Konstitusiyada tam suverenliyə malik olmayan ərazi qurumu Naxçıvan Avtonom Sovet Sosialist Respublikası adlandırıldı və onun muxtar respublikanın rayon vahidlərini və onların sərhədlərini müəyyən etmək səlahiyyətini təsdiq etdi. Muxtar Respublikanın Konstitusiyasında "Naxçıvan MSSR-in ərazisi Naxçıvan MSSR-in razılığı olmadan dəyişdirilə bilməz" məzmunda müddəa təsbit olundu.[2] Konstitusiyanın bu müddəası sovet hakimiyyəti dövründə Naxçıvanın ərazi muxtariyyətinin təhlükəsizliyinin hüquqi təminatı kimi qiymətləndirilə bilər.

1978-ci il mayın 30-da doqquzuncu çağırış Naxçıvan MSSR Ali Sovetinin növbədənkənar səkkizinci sessiyasında qəbul edilmiş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının üçüncü Konstitusiyasında Naxçıvan MSSR-in Azərbaycan SSR-in tərkibində muxtar dövlət statusuna malik olması, öz ərazisində dövlət hakimiyyətini müstəqil həyata keçirməsi, muxtar respublikanın ərazisinin onun razılığı olmadan dəyişdirilməsinə yol verilməməsi barədə müddəalar və inzibati ərazi quruluşu məsələlərinin həlli ilə bağlı səlahiyyətləri təsbit edilmişdir. Naxçıvan MSSR-in 1937-ci il Konstitusiyasında olduğu kimi, 1978-ci il Konstitusiyasında təsbit edilmiş "Naxçıvan MSSR ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz" məzmunlu müddəanın bütövlükdə Azərbaycan və onun bölgəsi üçün siyasi-hüquqi əhəmiyyət kəsb etməsini etiraf edərək həm də qeyd etmək lazımdır ki, sovet dövrünə aid konstitusiyaların həmin normaları konkretləşdirilməmiş, muxtar respublikanın ərazisi ilə bağlı məsələnin həllində yerli əhali arasında xalq səsverməsi (referendum) keçirilməsinə və xalqın razılığının alınmasına təminat verilməmişdir. Lakin, buna baxmayaraq, Naxçıvan MSSR-in razılığının alınması şərtinin irəli sürülməsi olduqca böyük əhəmiyyət kəsb etmişdir.

İttifaq müqaviləsinin pozulması ərəfəsində Azərbaycan Respublikasının Ali Soveti tərəfindən qəbul edilmiş "Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında" Azərbaycan SSR-in Konstitusiya Qanunu (23 sentyabr 1989-cu il), "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" Bəyannamə (30 avqust 1991-ci il), "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı (18 oktyabr 1991-ci il) Azərbaycan xalqının dövlət müstəqilliyi uğrunda mübarizə apardığı mərhələdə respublikanın siyasi-iqtisadi, sosial-mədəni həyatında baş verən dəyişikliklərin nəticələrinin tənzimlənməsini, dövlətin öz ərazisi üzərində suve-

[1] Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanun)-Bakı, AzMİK nəşriyyatı, 1927.
[2] Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu). Bakı, Azərnəşr. siyasi ədəbiyyat şöbəsi, 1939, s. 5.

renlik hüququnu bərpa etməsini təmin edən bir sıra mühüm konstitusion hüquq normalarını əhatə etmişlər. Həmin normalar 12 noyabr 1995-ci ildə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında əks olunmuşlar. Əsas Qanunun 134-cü maddəsində Naxçıvan Muxtar Respublikasının statusu və onun Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmasına dair müddəalar təsbit edilmişdir.

Müstəqil Azərbaycan Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikasının ilk Konstitusiyası Azərbaycan Respublikasının 29 dekabr 1998-ci il tarixli Konstitusiya Qanunu ilə təsdiq edildi. Konstitusiya Azərbaycan Respublikası Konstitusiyası ilə üzvi surətdə bağlı olmaqla muxtar respublikanın siyasi-iqtisadi, sosial-mədəni həyatında baş verən əsaslı dəyişiklikləri özündə əks etdirmişdir. Muxtar respublikanın Əsas Qanununun "Ərazi" adlanan 6-cı maddəsinə əsasən Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycan Respublikasının dövlət sərhədləri hüdudunda vahiddir, toxunulmazdır və bölünməzdir. Bu müddəa öz məzmununa görə Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin I hissəsində təsbit edilmiş "Azərbaycan Respublikasının ərazisi vahiddir, tozunulmazdır və bölünməzdir" məzmunlu müddəaya tam uyğundur. Əvvəlki konstitusiyalarda təsbit edilmiş "Naxçıvan Muxtar Respublikasının ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz" məzmunlu müddəanın Muxtar Respublikanın yeni Konstitusiyasında nəzərdə tutulmamasını muxtariyyətin əsasları-





nın zəiflədilməsi kimi qiymətləndirmək olmaz. 1992-1993-cü illərdə böyük ərazi itkilərinə məruz qalmış Azərbaycan Respublikası ərazisinin hər bir hissəsinin, o cümlədən Naxçıvan Muxtar Respublikasının ərazisinin toxunulmazlığına təminat Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin III hissəsində aşağıdakı məzmunda verilmişdir:

"Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər".

Naxçıvan Muxtar Respublikası çoxlu sayda yaşayış məntəqələrindən və onları əhatə edən ərazilərdən ibarətdir. Sovet dövründə qəbul edilmiş Muxtar Respublikanın konstitusiyalarında Naxçıvan Muxtar Respublikasının rayon bölgüsünün, habelə rayon və şəhər sərhədlərinin müəyyən edilməsi, kənd, qəsəbə və şəhər sovetlərinin təşkili və onların sərhədlərinin müəyyən edilməsinə dair müddəalar təsbit edilmişdir. Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən müddəalar (səlahiyyətlər) Naxçıvan Muxtar Respublikasının hazırki Konstitusiyasında nəzərdə tutulmayıb. Buradan belə qənaətə gəlmək olar ki, Muxtar Respublika muxtariyyətin əsaslarını yaradan dövlət səlahiyyətlərinin bir qismindən məhrum edilmişdir. Məsələn, əgər, Naxçıvan Muxtar Sovet Sosialist Res-

publikası 1978-ci ildə qəbul edilmiş Konstitusiyasının 71-ci maddəsinə uyğun olaraq muxtar respublikanın rayon bölgüsünü müəyyən etmək və respublikanın inzibati ərazi quruluşunun başqa məsələlərini həll etmək səlahiyyətlərinə malik idisə, yeni Konstitusiyada ərazi məsələlərinin həlli ilə əlaqədar Naxçıvan Muxtar Respublikası üçün hər hansı səlahiyyət nəzərdə tutulmayıb. "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununda (13 iyun 2000-ci il) göstərilir ki, Naxçıvan Muxtar Respublikasının ərazi vahidlərinin qeydə alınması və qeydiyyatdan çıxarılması, habelə ərazi vahidlərinin sərhədlərinin müəyyən edilməsi və dəyişdirilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatəti əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həyata keçirilir.[1] Məsələn, Naxçıvan şəhər inzibati ərazi vahidi tərkibindəki Naxçıvan şəhəri ərazisində 1 nömrəli, 2 nömrəli, 3 nömrəli və 4 nömrəli sahə inzibati ərazi dairələrinin yaradılması və Azərbaycan Respublikasının ərazi vahidlərinin dövlət Reyestrinə daxil edilməsinə dair Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndinə uyğun olaraq qərar qəbul etmişdir və bu qərar "Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərinin inzibati ərazi bölgüsündə qismən

[1] "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (17 aprel 2007-ci il)-"Azərbaycan", № 137 (4654), 24 iyun 2007-ci il.





dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (2 noyabr 2012-ci il) ilə təsbit edilmişdir.

Qanunun məzmununu təhlil etsək, muxtar respublikada ərazi vahidlərinin yaradılması ilə bağlı məsələnin həllində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər hansı səlahiyyətlə iştirak etməsi haqqında birmənalı fikir söyləmək mümkün deyildir.

Yuxarıda ifadə olunanlara əsasən Naxçıvanın keçən əsrin 20-ci illərində mövcud olmuş çox mürəkkəb və gərgin siyasi ziddiyyətlər şəraitində muxtariyyət statusu almasına baxmayaraq, muxtar respublikanın Sovet hakimiyyəti illərində qəbul edilmiş konstitusiyaları onun ərazi məsələlərinin həllində indiki Konstitusiya ilə müqayisədə daha geniş səlahiyyətlərə malik olması barədə nəticə çıxarmaq mümkündür. Hesab edirik ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının inzibati-hüquq sisteminin müstəqil subyekti olduğuna görə, onun muxtariyyətliliyinin konstitusion əsaslarının möhkəmləndiril-məsini təmin edən aşağıdakı müddəaların Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına:

- birincisi, "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının rayon bölgüsünü və ərazi vahidlərinin sərhədlərini müəyyən edərək Azərbaycan Respublikası Milli Məclisinə təqdim edir;" məzmunda müddəanın 5-ci maddənin ("Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi") II hissəsinə;

- ikincisi, "Naxçıvan Muxtar Respublikasının rayon bölgüsünün və ərazi vahidlərinin sərhədlərinin müəyyən edilməsi" məzmunlu müddəanın 25-ci ("Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlər") maddənin I hissəsinə əlavə edilməsi məqsədəmüvafiqdir.

### 2.3. İnzibati-ərazi vahidlərinin hüquqi vəziyyəti

Azərbaycan Respublikasının inzibati ərazi vahidləri hesab olunan rayonların, şəhərlərin və şəhər rayonlarının konstitusion-hüquqi statusunu müəyyən edən mühüm atributlardan biri onların ərazisidir. İnzibati ərazi vahidi-hüdudlarında məskunlaşan əhalinin həyat fəaliyyətinin təmin edilməsi məqsədilə dövlət hakimiyyətinin həyata keçirilməsi üçün respublikanın ərazisindən ayrılan hissədir, onun öz adı var, vahiddir, özündən savayı, bir qayda olaraq, bir və ya bir neçə yaşayış məntəqəsini birləşdirir. "İnzibati ərazi vahidi" anlayışı özlüyündə "ərazi" yaşayış məntəqəsi və "dövlət hakimiyyəti" anlayışlarının vəhdətini yaradır. Yaşayış məntəqəsi insanların daimi yaşayış yeri olmaqla, coğrafi, siyasi, iqtisadi, milli, mədəni və idarəetmənin münasibliyi kimi amillərin təsiri altında müəyyən coğrafi məntəqələrdə təşəkkül tapır və xüsusi sosial orqanizm halında mövcud olur.

İnzibati ərazi vahidlərinin təsnifatının əsaslandırılması, onların statusunun müəyyən edilməsi kimi məsələlərinin həllində tədqiqatçıların mövqelərinin müxtəlifliyi





diqqəti cəlb edir. Hüquqşünaslardan İ.M.Cəfərov respublikanın ərazi vahidlərinə bölünməklə yanaşı onun tərkibində muxtar qurumun-Naxçıvan Muxtar Respublikasının yaradıldığını nəzərə alaraq Azərbaycan Respublikasında unitarizmin mürəkkəb növünün mövcudluğunu qeyd edir.[1] Z.A. Əsgərov hakimiyyətin ərazi cəhətdən təşkilinin dövlət ərazisinin müəyyən ərazi vahidlərinə bölünməsində və bu ərazi vahidləri ilə mərkəzi hakimiyyət arasındakı münasibətlərdə təzahür etməsini qeyd edərək inzibati ərazi vahidini dövlət hakimiyyətinin ərazi amili üzərində təşkilatlanması forması kimi nəzərdən keçirir.[2] Müəllifin fikrincə, burada bütöv dövlət simasında mərkəzi hakimiyyət, regionlar, yerlər, ərazi vahidləri qismində isə müəyyən fiziki ərazi hədləri ilə bir-birindən ayrılmış və yalnız onun üçün ayrılmış ərazidə fəaliyyət göstərən yerli hakimiyyət orqanları çıxış edir.[3] F.T. Nağıyev Azərbaycan Respublikasının vahid əraziyə malik olan dövlət kimi inzibati ərazi vahidlərinə bölünməsi və onun ərazisinin qanunlarının birbaşa mərkəzdən formalaşması və ya mərkəzin daimi güclü nəzarəti altında olması barədə müddəalar əsaslandırır.[4]

Göründüyü kimi, azərbaycanlı hüquqşünasların Azərbaycan Respublikasının hakimiyyətin ərazi cəhətdən

[1] Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanun)-Bakı, AzMİK nəşriyyatı, 1927, s. 52.
[2] Əsgərov Z.A. Konstitusiya hüququ.Dərslik.Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2011, s. 97.
[3] Əsgərov Z.A. Konstitusiya hüququ.Dərslik.Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2011, s. 98.
[4] Nağıyev F.Konstitusiya hüququ. Mühazirə mətnləri. Bakı, Qanun, 2009, s. 41.

təşkilinə görə mürəkkəb unitar dövlət olması, onun ərazisinin mərkəzdən birbaşa asılı olan inzibati ərazi vahidlərinə bölünməsinə dair əsaslandıqları müddəaların həqiqətə uyğunluğu inkar olunmur. Lakin "ərazi vahidləri qismində yerli hakimiyyət orqanlarının çıxış etməsi", yaxud "respublika ərazisinin qanunlarının birbaşa mərkəzdən formalaşması və ya mərkəzin daimi güclü nəzarəti altında olması" kimi müddəaların hüquqi mənasının anlaşılması üçün müstəqil tədqiqatın zəruriliyini də qeyd etmək lazımdır.

İnzibati-ərazi vahidlərinin təsnifatının əsaslandırılması barədə rusiyalı tədqiqatçıların fikirlərinin öyrənilməsi bünövrəsi sovet hakimiyyəti illərində yaradılmış Azərbaycanın müasir inzibati-ərazi sisteminin təkmilləşdirilməsi üçün əhəmiyyət kəsb edir. Bəzi müəlliflər tədqiqat işlərində əsas inzibati-ərazi vahidlərinin (rayonlar, respublika və muxtar respublika tabeli şəhərləri) və birinci inzibati ərazi vahidlərinin (rayon tabeli şəhərləri, şəhər rayonları, qəsəbələri və kəndləri) fərqləndirilməsini zəruri hesab edirlər.[123] B.C.Boblenko isə başqa mövqedən çıxış edərək ərazi yerlərinin (rayon, dairə və s.) və məskunlaşma yerlərinin (şəhər və kəndlər) ayrılmasının zəruriliyini

[1] Соломаткин А.С. Становление и развитие административно-территориального устройства Российской Федерации. Челябинск, 1995, s. 91.
[2] Клименко Б.М. Государственная территория. Вопросы территории и практики международного права. М., 1974, s. 26-28.
[3] Постовой Н.В. Муниципальное право России: учебник. М., Спарк, 2000, s. 82-90.





təsdiq edirlər.[1] Rayonları (uezdləri) və kənd sovetlərini (kənd dairələrini) inzibati-ərazi vahidləri kimi, kəndləri, qəsəbələri, şəhərləri, şəhər rayonlarını isə yaşayış məntəqələri kimi fərqləndirilməsini təklif edən A.N. Lebedevin və A.N. Solomatkinin mövqeləri daha çox qəbul ediləndir.[23]

Respublikanın inzibati ərazi bölgüsü prinsipinə əsasən yaradılan inzibati vahidin ərazisinin xüsusi hüquqi tənzimlənməsi zəruridir və bu tənzimetmə inzibati vahidin ərazisi anlayışının dəqiq müəyyən edilməsindən və həmin ərazinin tərkibinin aydınlaşdırılmasından bilavasitə asılıdır. Hüdudlarında dövlət hakimiyyətinin həyata keçirildiyi inzibati vahidlərin ərazilərinin müəyyən edilməsinin hüquqi əsasları "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" 13 iyun 2000-ci il və "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 17 aprel 2007-ci il tarixli Qanunları ilə təsbit edilmişdir.

Göstərilən qanunda inzibati ərazi vahidi-hüdudlarında dövlət hakimiyyəti orqanlarının yaradıldığı ərazi vahidi (rayon, şəhər, şəhər rayonu) kimi nəzərdən keçirilir. İstinad edilən qanunda inzibati ərazi vahidi ilə yanaşı

[1] Бобленко Н.А. и др. Основы муниципальной деятельности: в 3 кн. Кн.2, Обнинск, 1999,s. 37.
[2] Лебедев А.Н. Конституционно-правовой статус территории субъекта Российской Федерации // Конституционный строй России, 2003, № 4, с. 56;
[3] Соломаткин А.С. Становление и развитие административно-территориального устройства Российской Федерации. Челябинск, 1995, с.76.

ərazi vahidi, inzibati ərazi dairəsi, yaşayış məntəqəsi, rayon, şəhər, şəhər rayonu, qəsəbə və kənd kimi ərazi vahidlərinin hüquqi vəziyyətini müəyyən edən müddəalar təsbit edilmişdir. Lakin ölkənin ərazi quruluşunu və inzibati ərazi bölgüsünü müəyyən edən qanunvericilik normalarının qüsursuz olduğunu da təsdiq etmək mümkün deyildir. Belə ki, 13 iyun 2000-ci ildə qəbul edilmiş qanun inzibati ərazi vahidlərinə şəhəri, rayonu, inzibati ərazi dairəsini, bəzi hallarda qəsəbə və kəndi aid etmişdirsə, 17 aprel 2007-ci il tarixli "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə "Azərbaycan Respublikası Qanununda inzibati ərazi dairəsi, qəsəbə və kənd inzibati ərazi vahidi statuslu ərazi vahidlərinin sırasından çıxarılmışlar. Eyni ilə ərazi dairəsinin hüquqi vəziyyətinin qeyri-müəyyənliyi diqqətdən yayınmır. Belə ki, 13 iyun 2000-ci il tarixli Qanunun "Əsas anlayışlar" adlanan 2-ci maddəsində inzibati ərazi dairəsinin adını və onun hüquqi vəziyyətini müəyyən edən müddəa göstərilməyib. 17 aprel 2007-ci il tarixli Qanun ilk dəfə olaraq "inzibati ərazi dairəsi" anlayışını və onun bir və ya bir çox şəhər, qəsəbə və ya kənddən ibarət olmasını təsbit etmişdir.Lakin qanunla təsbit edilmiş bu anlayışın məzmunu beş ildən sonra əsaslı dəyişikliyə məruz qalmışdır. "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında"Azərbaycan Respublikasının Qanunda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (12 iyun 2012-ci il) inzibati ərazi dairəsi ilə yanaşı rayon bölgüsü olmayan şəhər inzibati ərazi vahidinin inzibati mərkəzi olan ərazi vahidinin ərazisində və şəhər rayonu inzibati ərazi vahidinin ərazisinin inzibati ərazi dairəsi ilə əhatə olunmayan hissəsində sahə inzibati ərazi dairəsinin yaradılması haqqında müddəaları təsbit etmişdir. Qüvvədə olan qanuna görə hüdudlarında dövlət hakimiyyəti orqanlarının yaradıldığı rayon, şəhər, şəhər rayonu inzibati ərazi vahidi və hüdudlarında yerli dövlət hakimiyyəti orqanlarının yaradıldığı ərazi vahidi (şəhər, qəsəbə, kənd) inzibati ərazi dairəsi adlanır. Buradan şəhərin hüdudunda həm dövlət hakimiyyət orqanı və həm də yerli dövlət hakimiyyəti orqanı yaradılması barədə nəticə çıxarmaq mümkündür.





"Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təsbit edilmiş anlayışların elmi tədqiqi respublikanın inzibati ərazi bölgüsünü tənzimləyən qanunvericilik normalarının təkmilləşdirilməsinin zəruriliyini təsdiq edir.

İnzibati ərazi tənzimi sisteminin inkişafında həlledici mərhələ kimi respublikanın inzibati ərazi quruluşunun Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilməsi ola bilər. Nəzərə almaq lazımdır ki, müasir Azərbaycan Respublikasının Konstitusiyasında onun inzibati ərazi quruluşunu müəyyən edən norma yoxdur. Əsas Qanunun yalnız aşağıdakı iki maddəsində ərazi quruluşu və inzibati ərazi bölgüsü ilə bağlı səlahiyyətverici normalar təsbit edilir:

1) 94-cü maddənin 21-ci bəndinə əsasən ərazi quruluşu və dövlət sərhəddi rejiminə dair ümumi qaydaların Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən müəyyən edilməsi;

2) 95-ci maddənin 3-cü bəndinə uyğun olaraq inzibati ərazi bölgüsü məsələlərinin Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən həll edilməsi;

Milli Məclisin göstərilən səlahiyyətlərinin icrası qaydasında qəbul edilmiş qanunlarda, bir qayda olaraq, rayonların və şəhərlərin inzibati ərazi bölgüsü və inzibati ərazi dairələrinin yaradılması ilə bağlı məsələlər öz həllini tapır. İnzibati ərazi vahidlərinin yaradılmasına dair məsələlərin həllinə qanunlarda nadir hallarda rast gəlmək mümkündür. Məsələn, "Azərbaycan Respublikasının bəzi rayonlarının inzibati ərazi bölgüsünə qismən dəyişikliklərin edilməsi haqqında" Azərbaycan Respublikasının 15 aprel 2005-ci il tarixli Qanununa uyğun olaraq Göyçay rayonu üzrə Yalman kəndi Ləkiçılpaq kənd inzibati ərazi dairəsinin tərkibindən ayrılaraq, həmin kənd mərkəz olmaqla, Yalman kənd inzibati ərazi vahidi yaradılmışdır. Həmin qanuna əsasən, Qəbələ rayonu üzrə Aydınqışlaq, Bılıx, Böyük Əmili, Daşça, Kiçik Pirəli, Kötüklü, Tövbə, Zərgərli və Zirik ərazi vahidi yaradılmışdır. Qanunda adları çəkilən kəndlərin yaxın məsafədə yerləşən kənd inzibati ərazi dairəsinin tərkibindən ayrılaraq müstəqil inzibati ərazi vahidlərinə çevrilməsi göstərilir. Həmin ərazilərdə yerli özünüdarənin bələdiyyələr tərəfindən həyata keçirildiyini də nəzərə alsaq, eyni yaşayış məntəqəsinin ərazi vahidi, inzibati ərazi vahidi, inzibati ərazi dairəsi və bələdiyyə statusuna malik olması və həmin ərazilərin tənzimlənməsi və idarə olunmasının səmərəli təşkili tələblərinə zidd olması barədə nəticə çıxarmaq mümkündür. Hesab edirik ki, Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 218 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması qaydası"nın inzibati-ərazi idarəetməsi sistemində realizə edilməsi respublikanın ərazi quruluşunun tənzimində mövcud olan qeyri–sabitliyin aradan qaldırılmasına imkan verəcək.





İnzibati ərazi vahidlərinin məkan hüdudlarını Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsi ilə təsbit edilmiş ərazi əlamətləri nəzərə alınmaqla müəyyən etsək, onda inzibati vahidin ərazisinin tərkibinin quru və su ərazilərinin səthindən ibarət olması barədə nəticə çıxarmaq mümkündür. Qeyd etmək lazımdır ki, inzibati ərazi vahidlərinin tərkib elementləri ayrı-ayrı mülki-hüquqi dövriyyə obyektləri ilə üst-üstə düşür.

Azərbaycan Respublikasında inzibati ərazi vahidlərinin ərazi təşkili 1992-ci ilədək mövcud olmuş Azərbaycan SSR-in inzibati bölgüsünə əsaslanır. 1978-ci il aprelin 21-də qəbul edilmiş Azərbaycan SSR-in Konstitusiyasının 77-ci maddəsinə uyğun olaraq Azərbaycan SSR öz rayon bölgüsünü müəyyənləşdirir və inzibati ərazi quruluşunun başqa məsələlərini həll edirdi. Əsas Qanunun 78-ci maddəsində isə Azərbaycan SSR-in ibarət olduğu rayon-

ların və habelə respublika tabeliyində olan şəhərlərin siyahısı təsbit edilirdi. Rayonların və şəhərlərin hüdudlarında olan torpaqlar onların ərazilərini təşkil etməklə, rayon və şəhər xalq deputatları sovetlərinin aidiyyətində idilər. Rayon və şəhər torpaqlarının hüquqi rejimi SSRİ-nin və Azərbaycan SSR-in torpaq qanunvericiliyi əsaslarında, respublikanın torpaq məcəlləsində və digər qanunvericiliyində müəyyən edilirdi. Rayon və şəhər torpaqlarının hüquqi rejiminin əsas müddəaları rayonlara və şəhərlərə aid olan qəsəbələrin və kəndlərin torpaqlarına da şamil edilirdi.

Azərbaycan Respublikasının inzibati-ərazi sisteminin inkişafında yeni mərhələ 18 oktyabr 1991-ci ildə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının və "Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində, şəhər rayonlarında, kəndlərində və qəsəbələrində dövlət hakimiyyət və idarəetmə orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının qəbul edilməsi ilə başlanır. Bu Fərmana uyğun olaraq Azərbaycan Respublikasında icra hakimiyyəti orqanlarının fəaliyyətində vəhdəti təmin etmək məqsədilə respublikanın rayonlarında, şəhərlərində icra hakimiyyətinin başçısı vəzifəsi təsis edilmişdir. Yerlərdə dövlət hakimiyyətinin ərazi təşkili məsələlərin nizamlaşdırılmasına dair fərmanla təsbit edilmiş müddəa öz ifadəsini 12 noyabr 1995-ci il tarixdə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında tapdı. Əsas Qanunun





124-cü mddəsinin I hissəsində göstərilir ki, yerlərdə icra hakimiyyətini yerli icra hakimiyyətlərinin başçıları həyata keçirir. Qeyd etmək lazımdır ki, Konstitusiyada dövlət ərazisinin yerli icra hakimiyyətinin aidiyyətində olmasına dair hər hansı müddəa nəzərdə tutulmur. Lakin, Azərbaycan Respublikası Prezidentinin 16 iyun 1999-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamənin 17-ci maddəsi yerli icra hakimiyyətlərinin sərəncamına torpaq sahələrinin ayrılmasını və 18-ci maddəsi isə dövlət əmlakının (torpaq sahələrinin) yerli icra hakimiyyətlərinin operativ idarəçiliyində və ya tam təsərrüfat səlahiyyətlərində olmasını təsbit edir.

İnzibati ərazi vahidinin – hüdudlarında dövlət hakimiyyəti orqanlarının yaradıldığı ərazi vahidinin rayon, şəhər, şəhər rayonu kimi mövcud olduğunu və həmin ərazi hüdudlarında xalq hakimiyyətinin forması kimi yerli özünüidarənin bələdiyyələr tərəfindən həyata keçirildiyini nəzərə alsaq, yaşayış məntəqəsində bu və ya digər torpaq sahəsinin yerli icra hakimiyyətinin və ya bələdiyyələrin aidiyyətində olması məsələsi qüvvədə olan qanunvericilik normaları nəzərə alınmaqla aydınlaşdırılmalıdır. Qeyd etmək lazımdır ki, ərazinin aidiyyətliyi məsələsi nəzərdən keçirilərkən "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununun (13 iyul 2000-ci il) normalarına və Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının

ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması qaydası"na istinad edilməsi zəruridir. "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Qanunun 2-ci maddəsində təsbit edilmiş əsas anlayışların təhlilindən belə nəticəyə gəlmək mümkündür ki, hüdudlarında dövlət hakimiyyəti orqanlarının yaradılması və fəaliyyət göstərməsi meyarı üzrə respublika tabeliyində olan istənilən şəhərin yerləşdiyi ərazini eyni bir vaxtda yaşayış məntəqəsinin ərazisi, ərazi vahidinin ərazisi, inzibati ərazi vahidinin ərazi, inzibati ərazi dairəsinin ərazisi hesab edilə bilər. Bu mövqedən rayonun və şəhər rayonunun malik olduqları ərazilərin də ərazi vahidinin, inzibati ərazi vahidinin, inzibati ərazi dairəsinin və sahə inzibati ərazi dairəsinin əraziləri ilə eyni statuslu olmasını təsdiq etmək mümkündür. Ərazi hissəsinin rayonun, şəhərin, kəndin və qəsəbənin aidiyyətində olub-olmaması məsələsinin yuxarıda istinad olunan qanunun normaları ilə aydınlaşdırılması çətin deyildir. Lakin bu məsələnin ərazi vahidlərinin statusunun onların təyinatına, tarixi, coğrafi, etnoqrafik və toponomik xüsusiyyətlərinə uyğun həll edilməsi ciddi maneələrlə qarşılaşır. Birincisi, yaşayış məntəqəsinin, ərazi vahidinin, inzibati ərazi dairəsinin və sahə inzibati ərazi dairəsinin aidiyyətində olan ərazilərin fərqləndirilməsi meyarlarının qanunda dəqiq göstərilməməsi həmin qanuna sonsuz sayda dəyişikliklərinin və əlavələrin edilməsinə səbəb olur ki, bu da Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünün tənzimlənməsində dolaşıqlıq yaradır. Problemin həllini çətinləşdirən





digər səbəb yaşayış məntəqələrində yerli özünüidarəni həyata keçirən bələdiyyələrin malik olduqları ərazilərin hüdudlarının dəqiq müəyyənləşdirilməməsidir. Qeyd edək ki, hər iki maneənin aradan qaldırılması xeyli dərəcədə ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması vəziyyətindən asılıdır.

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması qaydası"nın müddəalarının realizə edilməsi yolu ilə ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələri hazırlanır. Bu xəritələr öz növbəsində yerli icra hakimiyyətlərinin sərəncamında olan torpaq sahələrinin və bələdiyyələrə ayrılmış torpaq sahələrinin hüdudlarının müəyyən edilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş Qaydanın 5.6-cı bəndinə uyğun olaraq ərazi vahidinin və inzibati ərazi dairəsinin kağız üzərində tərtib edilmiş xəritəsi onun yerləşdiyi müvafiq rayon, şəhər rayonu icra hakimiyyətinin başçısı tərəfindən təsdiq edilir.

"Azərbaycan Respublikasının ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması qaydası" nın 5.2-cı bəndinə əsasən ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritəsində yalnız aşağıdakılar öz əksini tapmalıdır:

- ərazi vahidinin və inzibati ərazi dairəsinin, onun daxil olduğu rayon, şəhər, şəhər rayonunun adı;

- Azərbaycan Respublikasının dövlət sərhəddinin ərazi vahidinin və inzibati ərazi dairəsinin sərhəddini təşkil etdiyi hissəsi;
- inzibati ərazi vahidinin (rayon, şəhər, şəhər rayonu) sərhəddinin ərazi vahidinin və inzibati ərazi dairəsinin sərhəddini təşkil etdiyi hissəsi;
- inzibati ərazi dairəsinə daxil olan ərazi vahidləri (şəhər, qəsəbə, kənd) və onların sərhədləri;
- ərazi vahidlərinin və inzibati ərazi dairələrinin ayrıca hissələri və onların sərhədləri;
- ərazi vahidlərinin və inzibati ərazi dairələrinin sərhəddaxili ümumi sahəsi (kv.km-lə, ayrıca hissələr daxil olmaqla);
- dövlət mülkiyyətində olan torpaqların ümumi sahəsi (kv.km-lə);
- inzibati ərazi dairəsinə daxil olan yaşayış məntəqələrinin (şəhər, qəsəbə, kənd) ayrı-ayrılıqda sahələri (kv.km-lə) və s.

Ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritəsində ərazi hissələrinin əks olunmasına dair müddəaların məzmununun təhlili göstərir ki, bu Qaydaya uyğun olaraq tərtib edilən xəritədə hüdudlarında dövlət hakimiyyəti orqanlarının yaradıldığı inzibati ərazi vahidinin bütün ərazisi deyil, yalnız onun ayrıca hissələri və sərhədləri təsvir olunur. Deməli, inzibati ərazi vahidinin ərazi hüdudlarını onun tərkibinə daxil olan ərazi vahidlərinin və inzibati ərazi dairələrinin torpaq sahələrini və





bu sahələri əks etdirən xəritələri birləşdirmək yolu ilə müəyyən etmək mümkündür.

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinə uyğun olaraq həyata keçirilən yerli icra hakimiyyətinin məkan hüdudunun inzibati ərazi vahidinin ərazisi ilə üst-üstə düşdüyünü, eləcə də ərazi vahidinin və inzibati ərazi dairəsinin inzibati ərazi vahidinin tərkibinə daxil olduğunu nəzərə alaraq, inzibati ərazi vahidinin (rayonun, şəhərin, şəhər rayonunun) ərazisini əks etdirən xəritənin Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 218 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması qaydası"na uyğun hazırlanan ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələrini birləşdirmək yolu ilə hazırlanmasının mümkünlüyünü təsdiq etmək olar.

İnzibati ərazi vahidlərinin məkan hüdudlarının müəyyən edilməsi onların sərhədlərinin təyin edilməsi və dəyişdirilməsi, adlandırılması və ya adlarının dəyişdirilməsi kimi məsələlərin həlli ilə bilavasitə bağlıdır. Qeyd etmək lazımdır ki, "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanunu (13 iyun 2000-ci il) qəbul edildikdən sonra inzibati ərazi bölgüsü məsələlərinin həllinə Azərbaycan Respublikası Milli Məclisinin qanunyaratma fəaliyyətində son dövrdə daha üstün yer verilir. "Tovuz rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" (7 mart 2012-ci il), "Ağdaş rayonunun inzibati ərazi bölgüsündə

qismən dəyişikliklər edilməsi haqqında" (11 dekabr 2012-ci il), "Astara rayonunun Ərçivan kəndinə qəsəbə statusunun verilməsi haqqında" (11 dekabr 2012-ci il), "Azərbaycan Respublikasının İsmayıllı rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" (13 dekabr 2011-ci il) , "Gəncə şəhərinin Kəpəz rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" (13 dekabr 2011-ci il), "Xaçmaz rayonunun Niyazoba və İlxıçı Həsən Əfəndi bələdiyyələrinin tərkibində dəyişikliklər edilməsi haqqında" (13 dekabr 2011-ci il), "Bakı şəhər inzibati ərazi vahidi tərkibində Pirallahı rayonunun yaradılması haqqında" (21 dekabr 2012-ci il), "Gəncə şəhərinin və Daşkəsən, Goranboy, Göygöl, Samux rayonlarının sərhədlərində qismən dəyişikliklər edilməsi haqqında" (21 dekabr 2012-ci il) Azərbaycan Respublikasının qanunlarında və "Bakı şəhər inzibati ərazi vahidi tərkibində Pirallahı rayonunun yaradılması haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamında (7 yanvar 2013-cü il) bu və ya digər ərazi hissəsinin inzibati tabeliliyinin dəyişdirilməsi, yeni yaranan, habelə mövcud olan və əhalinin daimi yaşadığı bütün ərazi vahidlərinin sərhədlərinin dəqiqləşdirilməsi kimi məsələlər öz həllini tapmışdır. Bu tipli məsələlərin Azərbaycan Respublikasının bütün rayon və şəhərlərində idarəetmənin, qanunçuluğun, vətəndaşların hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin dövlət hakimiyyəti orqanları tərəfindən təmin edilməsinin səmərəli





təşkil edilməsi ilə əlaqədar yaranmasının zəruriliyi inkar olunmamalıdır. Fikrimizcə, inzibati ərazi bölgüsü ilə bağlı məsələlərin həllində qanunvericilik hakimiyyəti dövlətin və onun suverenliyi altında olan ərazinin vahidliyini əsas götürərək, Azərbaycan Respublikasının ərazi quruluşunun və inzibati ərazi bölgüsü haqqında qanunvericiliyin sabitləşdirilməsini indiki mərhələdə özünün fəaliyyətinin mühüm istiqaməti kimi müəyyən etməlidir. Qeyd edək ki, rayonların və şəhərlərdə rayonların yaradılması, ləğv edilməsi, onların adlandırılması və adlarının dəyişdirilməsi kimi çoxsaylı məsələlərin ədalətli həll edilməsi üçün ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələri hazırlanarkən istinad edilən "Azərbaycan SSR rayonlarının dürüstləşdirilmiş sərhədlərinin qrafik təsvirinin təsdiq edilməsi haqqında" Ali Soveti Riyasət Heyətinin 1960-cı il 24 mart tarixli 13 nömrəli Fərmanı ilə təsdiq edilmiş növbətçi xəritənin təftiş olunması zəruridir. Azərbaycan Respublikasının ərazisində son onilliklər ərzində Samux, Xəzər, Kəngərli, Pirallahı rayonlarının yaradılması əvvəlki rayonların ərazi hissələrinin inzibati tabeliyinin dəyişdirilməsi yolu təmin olunduğuna görə, 1960-cı ildən tətbiq edilən rayon xəritələrinin indiki dövrdə tətbiq edilməsi zərurəti aradan qalxmışdır.

Azərbaycan Respublikasının inzibati-ərazi vahidlərinin konstitusion-hüquqi statusunun tədqiqi aşağıdakı elmi-praktiki əhəmiyyətli nəticə və təklifləri əsaslandırmağa imkan verir:

- birincisi, hazırda qüvvədə olan "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununun (13 iyun 2000-ci il) 2-ci maddəsində təsbit edilmiş əsas anlayışların təhlili göstərir ki, eyni yaşayış məntəqəsinin ərazi vahidi, inzibati ərazi vahidi, inzibati ərazi dairəsi və bələdiyyə statusuna malik olması yerlərdə dövlət hakimiyyətinin səmərəli təşkili tələblərinə cavab vermir;

- ikincisi, inzibati ərazi vahidinin (rayonun, şəhərin, şəhər rayonunun) ərazisini əks etdirən xəritəsinin ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələrinin birləşdirilməsi yolu ilə hazırlanması məqsədəuyğundur:

- üçüncüsü, aparılan tədqiqat müasir mərhələdə ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələri hazırlanarkən istinad edilən "Azərbaycan SSR rayonlarının dürüstləşdirilmiş sərhədlərinin qrafik təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1960-cı il 24 mart tarixli Fərmanı ilə təsdiq edilmiş növbətçi xəritənin kompleks təftiş olunmasının zəruriliyini ortaya qoyur.

### *2.4. Bələdiyyələrin ərazilərinin hüquqi vəziyyəti*

İttifaq müqaviləsinin pozulduğu şəraitdə ərazi-idarəetmə sisteminin yenidən qurulması məqsədilə keçən əsrin 90-cı illərində həyata keçirilən islahat tədbirləri əvvəllər mövcud olmuş yerli sovetlərin ləğv edilməsi, yerli icra hakimiyyətlərinin və bələdiyyələrin yaradılması ilə nəticələnmişdir. Azərbaycanda "yerli özünüidarə", "bələdiyyə", "bələdiyyə mülkiyyəti" kimi anlayışlar öz ifadəsini ilk dəfə olaraq 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında tapmışlar. Əsas Qanunun 13-cü maddəsi bələdiyyəni mülkiyyət münasibətlərinin subyekti elan edir və 142-ci maddəsində isə Azərbaycan Respublikasında yerli özünüidarənin bələdiyyələr tərəfindən həyata keçirilməsinə dair müddəa təsbit edilmişdir.





Yerli özünüidarəetmə - xalq hakimiyyətinin formasıdır və əhaliyə yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək imkanı verir. Bu müddəanın ölkə Konstitusiyası və "Bələdiyyələrin statusu haqqında" Qanunu (2 iyul 1999-cu il) ilə təsdiq edilməsi şəhərlərdə, rayonlarda, qəsəbələrdə və kəndlərdə yerli hakimiyyətin həyata keçirilməsi üzrə bütün səlahiyyətlərin bələdiyyələrə verilməsi zərurətini ortaya qoyur. Məlum olduğu kimi, 1999-cu il dekabrın 12-də Azərbaycanda ilk dəfə olaraq bələdiyyə seçkiləri keçirildi və sonrakı, beş il ərzində bələdiyyələr müstəqil yerli özünüidarə orqanları kimi formalaşdı. 2004-cü il dekabrın 17-də keçirilmiş bələdiyyə seçkilərinin nəticələrinə görə respublikanın 4500 yaşayış məntəqəsində 2735 bələdiyyə fəaliyyət göstərmişdir. 2002-ci ildə Azərbaycan Respublikası Yerli Özünüidarəetmə haqqında Avropa Xartiyasına qoşuldu. 2005-2009-cu illərdə yerli özünüidarəyə dair qəbul edilmiş qanunlarda xartiyanın maddələrinə uyğun olaraq dəyişikliklər edilməsi istiqamətində institusional-hüquqi əhəmiyyətli

tədbirlər həyata keçirildi. Xüsusilə "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanununun (29 may 2009-cu il) və "Naxçıvan Muxtar Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Azərbaycan Respublikası Qanununun (19 iyun 2009-cu il) tətbiq edilməsi bələdiyyələrin ümumi sayının respublika üzrə 2735-dən 1607 vahidədək ixtisar edilməsi ilə nəticələnmişdir ki, bu da "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısının yeni redaksiyada verilməsi barədə" Azərbaycan Respublikasının 29 may 2009-cu il və 19 iyun 2009-cu il tarixli qanunları ilə təsbit edilmişdir.

Hər hansı hakimiyyətin, o cümlədən, yerli özünüidarənin təşkili məsələləri dövlətin ərazi quruluşu ilə bilavasitə əlaqədardır. Belə ki, yerli hakimiyyət dövlətin ərazisinin bölündüyü ərazi vahidlərinin sərhədləri hüdudlarında həyata keçirilə bilər. Lakin, etiraf etmək lazımdır ki, yerli özünüidarənin ərazi əsasları ilə bağlı məsələ Azərbaycan Respublikası Konstitusiyasında özünün birmənalı həllini tapmamışdır. Əsas Qanunun 142-ci maddəsində işlədilmiş "yerlərdə özünüidarənin təşkili" və "yerli özünüidarə" kimi ifadələrin məzmunundan bələdiyyənin hakimiyyətinin yerlərdə (şəhərlərdə, qəsəbələrdə, kəndlərdə) həyata keçirilməsinin mümkünlüyü barədə nəticə çıxarmaq olar. Konstitusiyanın yerli özünüida-





rənin ərazi əsaslarına dair müddəaları əsasən "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda konkretləşdirilmişdir. Bu qanunun "Bələdiyyələrin ərazi əsasları" adlanan ikinci fəslində bələdiyyə ərazilərinin müəyyənləşdirilməsi və dəyişdirilməsi ilə bağlı hüquqi əhəmiyyət kəsb edə bilən üç müddəa təsbit edilmişdir.

Birincisi, yerli özünüidarənin Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş ərazilərdə həyata keçirilməsi.

İkincisi, yerli özünüidarənin müəyyən ərazidə əhalinin sayına görə həyata keçirilməsi.

Üçüncüsü, bələdiyyə ərazilərinin müəyyənləşdirilməsi və dəyişdirilməsi məsələlərinin Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həll edilməsi

Bələdiyyələrin əraziləri "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"na uyğun müəyyənləşdirilir. İstinad olunan bu qanunda göstərilir ki, bələdiyyə ərazisinin hüdudları "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanunu (10 iyul 1996-cı il) ilə bələdiyyə mülkiyyətinə verilən torpaq sahələri müvafiq inzibati ərazi vahidinin (inzibati ərazi vahidlərinin və ya vahidinin bir hissəsinin) sahəsinə əlavə edilməklə müəyyənləşdirilir. Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi lazımi şəhərsalma və

yerquruluşu sənədlərini tərtib edərək, bələdiyyələrin əraziləri və mülkiyyətinə verilən torpaq sahələri ilə birlikdə, onların hüdudlarını, torpaq növlərini və ölçülərini göstərməklə, bələdiyyə orqanlarına təhvil verir. Bələdiyyə mülkiyyətində olan torpaqlara sahiblik, habelə onlardan istifadə və onlara dair sərəncam verilməsi sahəsində idarəetmə mülki və torpaq qanunvericiliyinin tələblərinə və bələdiyyənin nizamnaməsinə uyğun həyata keçirilir.[1 2 3].

Bələdiyyənin nizamnaməsinə uyğun olaraq onun ərazisinin hüdudlarının müəyyənləşdirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən xəritə hazırlanır. Nəzərə alınmalıdır ki, "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa (7 dekabr 1999-cu il) əlavə edilmiş Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı onların əhatə etdiyi ərazi vahidləri nəzərə alınmaqla təsdiq edilmişdir. Ona görə də, bələdiyyələrin xəritəsi hazırlanarkən Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması qaydası" na istinad edilməsinə dair müddəanın Azərbaycan Respublikasının 29 dekabr 2009-cu il tarixli 936-III Q nömrəli Qanunu ilə təsdiq edilmiş "Bələdiyyələrin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında Əsasnamə" nin 8-ci ("Bələdiyyələrin xəritəsi") bəndində nəzərə alınmasını məqsədəuyğun hesab etmək mümkündür.

[1] Постовой Н.В. Муниципальное право России: учебник. М., Спарк, 2000, s. 114
[2] Савранская О.Л. Территориальные основы местного самоуправления. // Городское управление. 1997, № 4, с. 26
[3] Reydams L. Universal Jurisdiction.Oxford.2003, p. 212





"Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununa (13 iyun 2000-ci il) uyğun olaraq bələdiyyələrin ərazilərinin hüdudlarının müəyyən edilməsi və dəyişdirilməsi Azərbaycan Respublikasının Prezidentinin vəsatəti əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən müvafiq bələdiyyə orqanlarının ərazi vahidlərinin sərhədlərinin dəyişdirilməsinə dair qərarları nəzərə alınmaqla həyata keçirilir. Bu və ya digər ərazi vahidinin qonşu ərazi vahidləri ilə sərhədlərinin dürüst müəyyən edilməməsi, bəzən, "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa (7 dekabr 1999-cu il) əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda düzəlişlər edilməsi zəruriliyinin yaranmasına səbəb olur. Məsələn, Azərbaycan Respublikasının 29 may 2009-cu il tarixli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısında Ağçay, İlxıçı Həsən Əfəndi və Qarğalıq kəndləri ilə yaxın məsafədə yerləşən Xaçmaz rayonunun İlxıçı kəndi səhvən həmin rayonun Əbilyataq, Qarabağlı və Niyazoba kəndləri ilə birlikdə Niyazoba bələdiyyəsinin tərkibinə daxil edilmişdir. "Xaçmaz rayonunun Niyazoba və İlxıçı Həsən Əfəndi bələdiyyələrinin tərkibində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanu-

nuna (13 dekabr 2011-ci il) uyğun olaraq Xaçmaz rayonunun İlxıçı kəndi Niyazoba bələdiyyəsinin tərkibindən çıxarılaraq İlxıçı Həsən Əfəndi bələdiyyəsinin tərkibinə daxil edilmişdir. Bəzi hallarda sovet dövründə yaradılmış rayonların adlarının və onların hüdudlarında yeni inzibati ərazi vahidlərinin yaradılması "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişikliklərin aparılması ilə nəticələnir. Belə ki, 2013-cü ildə "Pirallahı rayonunun ərazisində Pirallahı bələdiyyəsi yaradılmışdır.

Tədqiqat göstərir ki, yerli özünüidarənin ərazi təşkili məsələlərinin, o cümlədən, bələdiyyələrin sərhədlərinin müəyyən edilməsi və dəyişdirilməsi məsələlərinin həll edilməsi zəruriliyi bələdiyyələrin yaradılması, birləşməsi, yenidən təşkili və ya ləğv edilməsi ilə əlaqədar meydana çıxır. Qüvvədə olan qanunvericilik bələdiyyələrin yaradılmasının, birləşməsinin, yenidən təşkilinin və ləğv edilməsinin əsas şərtlərini və qaydalarını təsbit etməlidir.

Azərbaycan Respublikasında bələdiyyə quruculuğunun ilk mərhələsində yerli özünüidarəni həyata keçirən bələdiyyələrin yaradılması məsələləri əsasən "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununun (2 iyul 1999-cu il) normalarına uyğun həll edilir. İlk dəfə yaradılan bələdiyyələrin sərhədlərinin müəyyən edilməsi və dəyişdirilməsi, habelə bələdiyyələrə ad verilməsi və onların adlarının dəyişdirilməsi ilə bağlı məsələ-





lər isə "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanunu (13 iyun 2000-ci il) ilə müəyyən edilmiş qaydada həll edilir. Bələdiyyələrin onlarda yaranan sosial-iqtisadi vəziyyətlə əlaqədar, tarixi və digər yerli xüsusiyyətləri, müvafiq yerli əhalinin rəyinin nəzərə almaqla birləşməsi, yaxud ayrılaraq yeni bələdiyyələrə çevrilməsi ilə bağlı münasibətlər "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında " Azərbaycan Respublikasının Qanunu (14 aprel 2000-ci il) ilə tənzimlənir.

Bələdiyyə quruculuğu prosesinin hüquqi tənzimində yuxarıda göstərilən qanunların mühüm rol oynamasını qiymətləndirərək qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının bütün ərazisində bələdiyyələrin yaradılması sahəsində fəaliyyətin davam etdirilməsi və onun konstitusion-hüquqi tənzimi mexanizminin təkmilləşdirilməsi zəruridir. Belə ki, Azərbaycan Respublikasının bəzi rayonlarının, o cümlədən, işğaldan azad olunan və Azərbaycan Respublikasının suverenliyinin bərpa olunduğu rayonların ərazilərində bələdiyyələrin təşkili məsələləri vahid hüquqi aktla deyil, çoxlu sayda müxtəlif normativ-hüquqi aktlardan istifadə edilməklə həll edilir. Hesab edirik ki, bələdiyyələrin yaradılması üzrə fəaliyyətin hüquqi tənzimlənməsi, onların birləşməsi, ayrılması və ləğv edilməsi qaydalarını müəyyənləşdirən qanun əsasında həyata keçirilməlidir. Bu məqsədlə hazırda qüvvədə olan "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respubli-

kasının Qanununun adının aşağıdakı kimi yeni redaksiyada verilməsi məqsədəuyğundur:

-"Bələdiyyələrin yaradılması, birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında".

Azərbaycan Respublikasında yerli özünüidarəni həyata keçirən bələdiyyələrin yaradılmasının vahid qaydasını müəyyən edən normalar yeni redaksiyada verilən qanunda ayrıca maddə kimi formulə edilməlidir.

Yuxarıda aparılan tədqiqat bələdiyyələrin ərazi məsələlərini tənzimləyən qanunlarda yerli özünüidarənin şəhərlərin, qəsəbələrin və kəndlərin sərhədləri hüdudlarında həyata keçirilməsinə dair hər hansı bir göstərişin olmadığını təsdiq edir. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun (2 iyul 1999-cu il) 3-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşları yaşadıqları ərazilərdə yerli özünüidarə hüququnu bələdiyyələrə seçkilər, öz iradəsini birbaşa ifadə etmək, rəy sorğusu, müstəqil fikir söyləmək, təkliflər vermək vasitəsilə və digər formalarda həyata keçirirlər. Qanunun bu normasından yerli özünüidarənin əhalinin yığcam məskunlaşdığı və yaşayış yeri üzrə qeydiyyatda olduğu, müəyyən ərazi hüduduna malik olan yaşayış məntəqələrində, o cümlədən şəhərlərdə, qəsəbələrdə və kəndlərdə həyata keçirilməsi zənn edilə bilər. "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanunu (7 dekabr 1999-cu il) isə bələdiyyə ərazisinin hüdudlarını bələdiyyə mülkiyyətinə ayrılan torpaq sahələrini müvafiq inzibati ərazi vahidinin sahəsinə əlavə





edilməklə müəyyənləşdirilməsini nəzərdə tutur. Buradan yerli özünüidarənin həyata keçirilməsinin, onun ərazi təşkilinin Azərbaycan Respublikasının inzibati ərazi bölgüsü ilə bağlılığı haqqında nəticə çıxarmaq mümkündür. "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununda (13 iyun 2000-ci il) yaşayış məntəqələrinin (şəhər, qəsəbə, kənd) hüquqi statusu təsbit edilir, ərazi vahidlərinin qeydə alınması, qeydiyyatdan çıxarılması, onların sərhədlərinin müəyyən edilməsi və dəyişdirilməsi məsələləri həll edilərkən müvafiq bələdiyyə orqanının ərazi vahidinin qeydiyyatdan çıxarılması və onun sərhədlərinin dəyişdirilməsinə dair qərarların qəbul edilməsi və baxılmaq üçün Azərbaycan Respublikası Milli Məclisinə təqdim olunmasına dair müddəalar verilmişdir. Qanunun 7.4-cü maddəsinə uyğun olaraq bələdiyyə orqanının ərazi vahidinin qeydiyyatdan çıxarılmasına dair qərarı və 8.4-cü maddəsi ilə nəzərdə tutulmuş ərazi vahidlərinin sərhədlərinin dəyişdirilməsinə dair bələdiyyənin qərarı ərazi vahidinin qeydiyyatdan çıxarılması və ərazi vahidlərinin sərhədlərinin müəyyən edilməsi və dəyişdirilməsi üçün Azərbayan Respublikasının Prezidentinin Azərbaycan Respublikasının Milli Məclisinə göndərdiyi vəsatətlərinə əlavə olunur. Bu tələblərin istinad olunan Qanunun 7.8 və 9-cu maddələrində təsbit edilməsinə baxmayaraq, onun 2-ci maddəsində təqdim olunan əsas anlayışların təhlilindən görünür ki, "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanunu (13 iyun 2000-

ci il) yalnız dövlət hakimiyyətinin ərazi təşkilini inzibati-ərazi bölgüsü ilə əlaqələndirir. Yerli özünüidarənin ərazi təşkili məsələlərini tədqiq edən rus alimləri O.E. Kutafin və V.İ. Fadeev qeyd edirlər ki, Rusiya Federasiyasının Konstitusiyası yerli özünüidarənin ərazi təşkilini inzibati-ərazi quruluşu ilə birbaşa əlaqələndirmir və bununla birlikdə yerli özünüidarənin ərazi əsasları məsələsinin bu cür həlli istisna təşkil etmir.[1]

Yerli özünüidarənin ərazi təşkilinin konstitusion-hüquqi aspektlərini nəzərə alaraq ərazi vahidlərinin inzibati ərazi bölgüsünün səviyyəsinə görə fərqləndirilməsinin zəruriliyini etiraf etmək lazımdır. Fikrimizcə, hüdudlarında dövlət hakimiyyəti orqanlarının yaradıldığı rayon, şəhər, şəhər rayonu, inzibati ərazi vahidləri və sərhədlərinin hüdudlarında bələdiyyə hakimiyyətinin həyata keçirildiyi şəhər, qəsəbə və kənd ərazisi özünüidarə vahidləri hesab olunmalıdır.Beləliklə, dövlət hakimiyyəti inzibati ərazi vahidləri, bələdiyyə hakimiyyəti isə ərazi özünüidarəetmə vahidləri ilə birbaşa əlaqəyə malikdir.

Yuxarıda ifadə olunanları əsas götürərək: "ərazi özünüidarə vahidi" anlayışının bələdiyyə hüququnun elmi leksikonuna daxil edilməsi təklif edilir.

"Ərazi özünüidarə vahidi-hüdudlarında bələdiyyə hakimiyyəti orqanlarının yaradıldığı ərazi vahididir (şəhər, qəsəbə, kənd)" məzmunda müddəanın "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan

[1] Кутафин О.Е. Муниципальное право Российской Федерации. М., Проспект, 2007, s. 225.





Respublikasının Qanununun (13 iyun 2000-ci il) 2-ci ("Bu qanunda istifadə olunan əsas anlayışlar) maddəsinə əlavə olunmasını məqsədəuyğun hesab edirik.

Tədqiqatın gedişində irəli sürülən təkliflərin bələdiyyə hakimiyyətinin ərazi təşkilinin konstitusion-hüquqi əsaslarının təkmilləşdirilməsi üçün əhəmiyyəti böyükdür.

Birincisi, bələdiyyələrin yaradılması üzrə fəaliyyətin, onların birləşməsi, ayrılması və ləğv edilməsi ilə birlikdə "Bələdiyyələrin yaradılması, birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının vahid qanunu əsasında tənzimlənməsinə dair təklifin qəbul edilməsi təcrübədə yerli özünüidarənin təşkilinin hüquqi bazasını sabitləşdirəcək.

İkincisi, "ərazi özünüidarə vahidi" anlayışının "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununda istifadə olunan əsas anlayışlardan biri kimi təsbit edilməsi inzibati ərazi vahidinin ərazi əsaslarını yerli özünüidarənin ərazi əsaslarından fərqləndirməyə imkan verəcək.

# III FƏSİL

## DÖVLƏTİN ƏRAZİ QURULUŞUNUN ƏSAS PRİNSİPLƏRİ VƏ ONUN SABİTLİYİNİN TƏMİN EDİLMƏSİNİN KONSTİTUSİON-HÜQUQİ VASİTƏLƏRİ

### *3.1. Azərbaycan Respublikasının ərazi quruluşunun hüquqi prinsipləri*

Dövlətin mövcudluğu xeyli dərəcədə onun daxili struktur ünsürlərinin qarşılıqlı əlaqəsini və təsirini əks etdirən ictimai-siyasi münasibətlərin xarakterindən, habelə ərazi quruluşunun qanunauyğunluğundan asılıdır. Dövlət idarəetməsi və yerli özünüidarəetmə həyata keçirilərkən ərazi məsələlərinin həlli istiqamətlərini müəyyən edən prinsiplərin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Prinsiplər-dövlətin əraziyə münasibətdə suverenliyinin müəyyən edilməsi, respublikanın ərazisinin müəyyən hissələrə (ərazi vahidlərinə) bölünməsi, dövlət və bələdiyyə hakimiyyətinin bu quruluşa uyğun olaraq həyata keçirilməsi şərtlərini və meyllərini ifadə edən və Konstitusiya və qanunlarla təsbit edilən ilk başlanğıclar və ideyalardır.[1]

[1] Brownlie I. Prinsiples of Publik International Law.Oxford, 1990, p.28.





Ölkənin ərazi quruluşunun prinsiplərində dövlət hakimiyyətinin ərazi əsaslarının yaranmasının obyektiv qanunauyğunluqları ifadə olunur. Onlar Azərbaycan Respublikasının bütün ərazisində dövlət hakimiyyətinin və yerli özünüidarənin təşkilinin vahid əsaslarını müəyyən edirlər.

Ərazi quruluşunun prinsipləri BMT-nin Nizamnaməsində, Avropa Təhlükəsizlik və Əməkdaşlıq üzrə Helsinki Müşavirəsinin 1975-ci il 1 avqust tarixli Yekun aktında, habelə dövlətlərin varisliyi haqqında konvensiyalarda təsbit edilmişdir. Beynəlxalq hüququn normaları və prinsipləri dövlətlər arasında ərazi mübahisələrinin tənzimlənməsi üçün hüquqi təməl rolunu oynayırlar.

Azərbaycan Respublikasının Konstitusiyası, "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanunu (13 iyun 2000-ci il) beynəlxalq hüququn müddəalarına əsaslanaraq Azərbaycan Respublikasının ərazi quruluşu və inzibati ərazi bölgüsü ilə bağlı olan məsələlərin tənzimlənməsinin ümumi prinsiplərini təsbit edir. Bu prinsiplərin çərçivəsində ölkənin ərazi quruluşunun formalaşdırılması, inzibati ərazi bölgüsünün həyata keçirilməsi dövlət hakimiyyətinin və yerli özünüidarənin məkan hüdudlarının (dövlətin xarici və daxili sərhədlərinin) dəyişdirilməsi ilə bağlı məsələlər həll edilir.

Ərazi quruluşunun konstitusion-hüquqi prinsiplərinin elmi tədqiqində azərbaycanlı və xarici ölkə hüquqşünaslarının mövqelərində oxşarlıq diqqəti cəlb edir.

İ.M.Cəfərov dövlətin ərazi quruluşuna münasibətdə "ərazi aliliyi", "dövlətin ərazi üzərində suverenliyi", "dövlət ərazisinin bütövlüyü və toxunulmazlığı" prinsiplərinə əməl olunmasının zəruriliyini əsaslandırır.[1] L.H.Hüseynov ərazi məsələlərinin beynəlxalq-hüquqi tənzimində "ərazi bütövlüyü" və "sərhədlərin pozulmazlığı" prinsiplərinə əməl olunmasının vacibliyini qeyd edir.[2] Hüquqşünas Ş.Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 11-ci ("Ərazi") maddəsini şərh edərək dövlətin ərazisinin bütövlüyü və toxunulmazlığının təmin edilməsini ölkənin suverenliyinin birbaşa təcəssümü adlandırır.[3]

Rusiyalı hüquqşünaslardan Frizen O.A. Rusiya Federasiyasının ərazi quruluşunun yaranması və inkişafı problemlərinin tədqiqində Federasiyanın "ərazi vahidliyi" və "ərazi aliliyi" prinsiplərinin təmin olunmasının əhəmiyyətini qeyd edir.[4] Baburin S.N. isə ərazi məsələlərinin tənziminin dövlətin daxili və xarici siyasətinin əsasını təşkil etməsini vurğulayaraq, dövlətin ərazisinin hüquqi tənzimlənməsinin aşağıdakı konstitusion prinsiplərinin mövcudluğunu təsdiq edir:

---

[1] Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanun)-Bakı, AzMİK nəşriyyatı, 1927. s. 65-67.
[2] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, Qanun nəşriyyatı, 2012, s.38-39.
[3] Алиев Шахин. Научно-практический комментарий к Конституции Азербайджанской Республики. Баку, Изд-во «Юридическая литература», 2000, s. 45.
[4] Фризен О.А. Территориальная организация публичной власти В Российской Федерации: конституционно-правовой аспект: дисс....канд. юрид. наук. Ростов-на-Дону, 2006, s. 96-99.





1.Rusiya Federasiyasının özünün bütün ərazisi üzərində suverenliyi;

2.dövlət ərazisinin bütövlüyü;

3.Rusiya Federasiyasının Konstitusiyasının Federasiyasının bütün ərazisində birbaşa qüvvəyə malik olması;

4.Rusiya Federasiyasının bütün ərazisində Rusiya Federasiyasının Konstitusiyasının və federal qanunlarının aliliyi;

5.dövlətin xarici və daxili sərhədlərinin dəyişdirilməsi qaydasının konstitusion təsbiti;

6. Rusiya Federasiyasının ərazisinin hüquqi rejiminin iqtisadi məsələlərdə vahidliyi.[1]

Ölkənin ərazi quruluşunun prinsiplərinin yuxarıda göstərilən ardıcıllıqla öyrənilməsi Konstitusiyanın və beynəlxalq hüququn normalarına uyğundur. Lakin, eyni zamanda nəzəri təhlil azərbaycan və rus hüquqşnaslarının fikirlərində dövlətin ərazi quruluşunun yaranmasında dövlətin təbii, tarixi və milli xüsusiyyətlərinin inkar olunması barədə nəticə çıxarmağa imkan verir. Başqa sözlə, dövlətin ərazi quruluşunun yaradılmasının və inkişafının əsasında dövlətin ərazi varisliyi ideyasının dayanması etiraf olunmalıdır.

Dövlətin ərazi varisliyi dedikdə, tabelikdə olan əraziyə münasibətdə suverenlik və mülkiyyət hüququnun əvvəlki dövlətdən varis dövlətə keçməsi başa düşülür. Mü-

---

[1] Алиев Шахин. Научно-практический комментарий к Конституции Азербайджанской Республики. Баку, Изд-во «Юридическая литература», 2000, s.90.

qavilələrə münasibətdə dövlətlərin varisliyi haqqında 1978-ci il Vyana Konvensiyası və Dövlət əmlakına, arxivlərinə və borclarına münasibətdə dövlətlərin varisliyi haqqında 1983-cü il Vyana Konvensiyası ilə müəyyən edilmişdir ki, dövlətlərin varisliyi aşağıdakı hallarda ortaya çıxır:

a) hər hansı bir ərazinin müstəmləkəçilikdən azad olub müstəqil dövlət yaranması;

b) bir dövlətin bir neçə yeni dövlətə çevrilməsi;

c) dövlət ərazisinin bir hissəsinin ayrılması və müstəqil dövlət yaranması;

d) hər hansı bir ərazinin bir dövlətə birləşməsi.[1]

Yuxarıda göstərilən müddəalara əsasən müasir Azərbaycan Respublikasının ərazisinə münasibətdə dövlətin ərazi varisliyini aşağıdakı faktlarla müəyyən etmək mümkündür:

- birincisi, 19-cu əsrin əvvəllərində Azərbaycanın ərazisinin Çar Rusiyası tərəfindən işğal olunması və müstəmləkəyə çevrilməsi;
- ikincisi, 1918-1920-ci illərdə müstəqil Azərbaycan Demokratik Respublikasının yaranması;
- üçüncüsü, 1920-1991-ci illərdə Azərbaycan SSR-in və Qərbi Azərbaycanın ərazisində SSRİ rəhbərliyinin iradəsi ilə yaradılmış Ermənistan SSR-in müttəfiq respublika statusu ilə SSRİ-nin tərkibinə birləşdirilməsi;

[1] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, Qanun nəşriyyatı, 2012, s. 53-54.





- dördüncüsü, 1991-ci ildə İttifaq müqaviləsinin pozulması nəticəsində Azərbaycanın ərazisində iki müstəqil dövlətin: Azərbaycan Respublikasının və Ermənistan Respublikasının yaranması və ərazi mübahisələrinin mövcudluğu.

Ölkəmizin siyasi həyatında yaxın keçmişində baş vermiş ərazi dəyişiklikləri faktlarını əsas götürərək müasir Azərbaycan Respublikasının ərazi quruluşu ilə bağlı məsələlərin həllində dövlətin ərazi varisliyi prinsipinin tətbiq edilməsi zəruridir.

Beləliklə, dövlətin ərazi varisliyi Azərbaycan Respublikasının ərazi quruluşunun tənziminin ilk konstitusion-hüquqi prinsipi hesab olunmalıdır. Qeyd etmək lazımdır ki, konstitusiya hüququ nəzəriyyəsində inkar olunan bu müddəanın konstitusion təsbiti qanunvericilik çərçivəsində təmin olunmuşdur. Birincisi, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktının 2-ci maddəsində göstərilmişdir ki, Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisidir. İkincisi, Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə qəbul edilmiş Konstitusiyasının 8-ci maddəsinin II hissəsində "Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir" məzmunlu müddəa təsbit edilmişdir.

Ərazi üzərində dövlətin hüquq varisliyi onun yalnız qanunvericilikdə hüquqi cəhətdən təsbit edilməsi ilə de-

yil, həm də bu prinsipə uyğun ərazi tənzimetmə forma və metodları sistemi ilə təmin edilir.[1] Bu prinsipin müstəqil Azərbaycan Respublikasının ərazi təşkili məsələlərinin həllində nəzərə alınmasının əhəmiyyəti aşağıdakı müddəalarla ifadə olunur:

Birincisi, Azərbaycan xalqının 1995-ci il Konstitusiyasının müqəddiməsində özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyətini bəyan etməsi, onun öz təbii tarixi ərazisində dövlət qurmaq və onun varisi olmaq əzmini nümayiş etdirir.

İkincisi, dövlətin ərazi hüquq varisliyi prinsipi əsas götürülməklə ərazi mübahisələrinin birmənalı həllinə nail olmaq mümkündür. Bu prinsipin əsas tələbi ondan ibarətdir ki, mübahisə varis dövlətin ərazi iddiaları təmin edilməklə aradan qaldırılmalıdır.

Üçüncüsü, separatçı qrupların (Əlikrəm Hümbətov, sadvalçılar) Azərbaycana qarşı ərazi iddialarını gerçəkləşdirmək cəhdləri respublikanın ərazi bütövlüyü, daxili inzibati ərazi bölgüsünün həyata keçirilməsi üçün təhlükə mənbəyidir. Bu təhlükənin aradan qaldırılması məqsədilə yerli əhalinin dövlətin ərazi varisliyinin məzmu-

[1] Burchi S, Mechiem K. Groundwater in International Law.Rome, 2005, p.11.





nuna və tələbinə dair ideyalarla məlumatlandırılması zəruridir.

Dövlətin ərazi üzərində suverenliyi Azərbaycan Respublikasının ərazi quruluşunun konstitusion-hüquqi prinsiplərindən biridir. Azərbaycan Respublikası Konstitusiyasının 2-ci maddəsi Azərbaycan Respublikasının ərazisində suveren hakimiyyətin yalnız Azərbaycan xalqına məxsusluğunu təsbit edir. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktının 12-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının suverenliyi şəriksizdir və onun bütün ərazisinə şamildir.

Ölkənin bütün ərazisində dövlət hakimiyyətinin mövcudluğu və müstəqilliyi suverenlik prinsipi ilə ifadə olunur. Bu prinsipin əsas tələbi ondan ibarətdir ki, xalq ölkənin ərazisində tam hakimiyyətə malikdir və hər hansı başqa bir qurum (sosial qrup, təşkilat və s.) ali suveren hakimiyyət funksiyasını mənimsəyə bilməz (Azərbaycan Respublikasının Konstitusiyası, m.6).

Dövlət hakimiyyətinin mühüm xüsusiyyəti olmaqla, suverenlik beynəlxalq münasibətlərdə dövlətin müstəqil, bərabərhüquqlu subyekt kimi iştirak etməsini təsdiq edir. Dövlətin suverenliyi ilə onun xarici müstəqilliyi arasında üzvi qarşılıqlı əlaqə və uyğunluq var; dövlət hakimiyyətinin xaricdə müstəqilliyi onun ölkə daxilində suverenliyi faktı ilə şərtlənir.[1] [1]

[1] Венгеров А.Б. Теория государства и права. М., Проспект, 2000, s.126-127

Dövlətlərin suveren bərabərliyi prinsipi BMT Nizamnaməsinin 2-ci maddəsinin birinci bəndində təsbit edilmişdir. Bütün dövlətlər ərazisinin miqyasından, əhalisinin sayından, inkişaf səviyyəsindən və hərbi-siyasi potensialından asılı olmayaraq hüquqi cəhətdən bərabərdir.[2]

Azərbaycan Respublikasının ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyinə dair Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin I hissəsində təsbit edilmiş müddəanın məzmunundan görünür ki, dövlətin ərazi toxunulmazlığı, yaxud siyasi müstəqilliyi əleyhinə silahlı qüvvə tətbiq etməklə təcavüzkar dövlət tərəfindən törədilən qəsd onun suverenliyinə qarşı yönəlmiş cinayət hesab edilməlidir.

Dövlətin ərazisinin toxunulmazlığı və bütövlüyünün təmin edilməsinin əhəmiyyəti öz ifadəsini BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndində tapmış və dövlət hakimiyyətinin ərazi təşkilinin müstəqil prinsipi kimi Helsinki Yekun aktında təsbit olunmuşdur. Bu prinsipin başlıca tələbləri aşağıdakılardır:

- özgə ərazilərinin güc təhlükəsi və ya onun tətbiq edilməsi yolu ilə işğalının qadağan edilməsi;
- sərhədlərin toxunulmazlığının təmin edilməsi;
- suveren dövlətin razılığı olmadan onun ərazisindən istifadənin hüquqazidd fəaliyyət hesab edilməsi;

[1] Shaw M. International Law.5th ed. Cambridge, 2003, p. s.221
[2] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, Qanun nəşriyyatı, 2012. s.29





- öz ərazisindən başqa dövlətin maraqlarına zidd olaraq istifadə olunmasına yol verilməməsi.

Ümumən qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq müstəqil Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyü, sərhədlərin pozulmazlığı kimi prinsiplər əsasında qurur. Lakin bütün mövcud təkzibolunmaz faktlar təsdiq edir ki, təkcə XX əsrdə Azərbaycan xalqına qarşı ermənilər tərəfindən həyata keçirilən etnik təmizləmə və soyqırım siyasəti nəticəsində Azərbaycan Respublikası 1918-1929-cu illərdə 29,8 min kvadrat km. ərazisini itirmiş, 1991-1993-cü illərdə onun ərazisinin 20%-i işğal edilmişdir. Azərbaycanın ərazi bütövlüyünün pozulmasına yönəlmiş təcavüzə beynəlxalq təşkilatlar səviyyəsində siyasi qiymət verilmişdir.

2003-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlarda Azərbaycan Respublikasının ərazi bütövlüyünün danışıqların predmeti olmadığını dəfələrlə bəyan etmiş və onun ərazi suverenliyinin mütləq bərpa ediləcəyinin əsas vəzifə olduğunu qeyd etmişdir.[1]

Dövlət hakimiyyətinin təşkilinin ərazi əsaslarının nəzərdən keçirilməsi üçün əraziyə münasibətdə dövlətin suverenliyinin təzahür forması kimi ərazi aliliyi prinsipi-

[1] Hacalıyev E. Ərazi bütövlüyü məsələlərində heç bir güzəştdən söhbət gedə bilməz.- "Azərbaycan", № 272 (6547), 10 dekabr 2013-cü il. s.1.

nin əhəmiyyətini etiraf etmək lazımdır. Ərazi aliliyi tabelikdəki ərazi hüdudlarında dövlətin tam və müstəsna hakimiyyətinin həyata keçirilməsinin qanunvericiliklə təmin olunmuş imkanı kimi qiymətləndirilə bilər.[1] Hakimiyyətin ərazi cəhətdən təşkili onun suverenliyini şərtləndirən ən əsas əlaməti-hakimiyyətin bütün dövlət ərazisində üstünlüyünü və hər yerdə vətəndaşların ona tabe olmasını gerçəkləşdirən yeganə vasitədir.[2]

Respublikanın ərazi aliliyi prinsipi dövlətin daxili qanunvericilik sisteminə daxil olan aktlarla, habelə beynəlxalq hüquq normaları ilə təsbit edilir. Bu prinsipin tələbinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi vahidliyinin və onun bölünməzliyinin təmin edilməsi, dövlət sərhəddinin dəyişdirilməsi məsələləri bilavasitə ali dövlət hakimiyyəti orqanları tərəfindən həll edilir. Dövlət ərazisi öz təyinatı üzrə suveren dövlət hakimiyyətinin həyata keçirilməsinin məkan hüdudunu təşkil etdiyinə görə, dövlət öz ərazisində hakimiyyətini qanunvericilik, icra və məhkəmə orqanları vasitəsi ilə həyata keçirir. Dövlət hakimiyyət orqanlarının fəaliyyəti onların səlahiyyətlərinin icrası ilə müəyyən olunur. Bu səlahiyyətlər qanunvericilik sisteminə daxil olan aktlarla təsbit edilmişdir. Dövlət hakimiyyətinin ərazi aliliyi prinsipi əsasında həyata keçirilməsi xeyli dərəcədə qəbul edilən normativ hüquqi aktların məkana görə qüvvəyə malik olma-

[1] URL:http://www.iet.ru/files/text/working papes/121.pdf (дата обращения: 19 апреля 2010.
[2] Əsgərov Z.A. Konstitusiya hüququ.Dərslik.Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2011, s. 97.





sından asdılıdır.[1] "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun (21 dekabr 2010-cu il) 88.1-ci maddəsinə uyğun olaraq normativ hüquqi aktlar Azərbaycan Respublikasının bütün ərazisində məcburi qüvvəyə malikdir. Normativ hüquqi aktların hüquqi qüvvədə olma məkanı dedikdə yalnız dövlətin sərhəddinin hüdudları daxilindəki torpaq, su əraziləri başa düşülməməlidir. Normativ hüquqi aktın hüquqi qüvvəsi dövlətin bayrağı altında üzən gəmilərinə, qurğularına, xarici ölkələrdəki səfirliklərinə, konsulluqlarına, hərbi birləşmələrinə, dövlətin ərazi üzərindəki hava məkanına, habelə yerin təkinə də tətbiq edilir.[2] Normativ hüquqi aktların qüvvəsi, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə nəzərdə tutulmuş hallar istisna olmaqla, Azərbaycan Respublikasının vətəndaşlarına və hüquqi şəxslərə, habelə Azərbaycan Respublikasının ərazisində olan əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə şamil olunur. Eyni zamanda heç bir dövlət hakimiyyət məcburiyyət vasitələrini xarici dövlətin ərazisində olan öz vətəndaşlarına münasibətdə belə tətbiq etmək hüququna malik deyildir. Məsələn, hər hansı bir dövlətin öz vətəndaşını başqa dövlətin ərazisində həbs etmək hüququ yoxdur.

[1] Baslar K. The Consept of the Common Heritage of Mankind in International Law. The Hague-Boston-London, 1998, p.159.
[2] Əsgərov Z.A. Konstitusiya hüququ.Dərslik.Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2011, s.26.

Ərazi aliliyi prinsipi öz ifadəsini Azərbaycan dövlətinin başçısı qismində Azərbaycan Respublikası Prezidentinin fəaliyyətində tapır. Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 8-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktlarını ləğv edir.

Ərazi aliliyi təkcə ərazinin dövlətin siyasi hakimiyyətinin həyata keçirilməsi üçün obyekti qismində deyil, həm də dövlətin iqtisadi fəaliyyətinin təşkil edildiyi məkan kimi nəzərdən keçirilməsinə imkan verir.[1] Ərazi ölkənin iqtisadi məsələlərinin həllində dövlət təsərrüfatçılığı obyekti qismində çıxış edir. Dövlət iqtisadi problemlərin həll edilməsi məqsədilə özünün ərazisini yenidən təşkil etmək (məsələn, quru ərazisini su ərazisinə, yaxud su ərazisini quru əraziyə çevirmək) hüququna malikdir. O, öz ərazisinin bir hissəsini icarəyə verə bilər. Ərazi aliliyi prinsipi əsas götürülməklə ölkənin sosial-iqtisadi inkişaf problemlərinin həllində təbii ehtiyatlardan istifadə olunmasında, əmtəələrin, xidmətlərin və maliyyə vəsaitlərinin nəqlində, dövlət vergi dərəcələrinin və gömrük tariflərinin tətbiqində, rəqabət və iqtisadi fəaliyyət azadlığının saxlanılmasında iqtisadi məkanın vahidliyi təmin

[1] Лексин И.В. Конституционное и муниципальное право // Конституционный строй России, 2009, № 6, с.36.





olunur. Bu məsələlərin həllində ərazi aliliyi prinsipinin əsas götürülməsi ölkənin bütün ərazisini dövlətin mülkiyyət hüququnun obyekti kimi zənn etməyə imkan verir. Dövlətin suverenliyindən əmələ gələn bu hüquq dövlətə torpaq mülkiyyətinin, yerin təkinin, təbii sərvətlərin istifadəsinin hüquqi rejimini müstəqil surətdə müəyyən etmək, öz ərazisinin ayrı-ayrı hissələrini güzəşt və ya mübadilə etmək, xarici dövlətlərin onun ərazisində yerləşən əmlakını, istehsal və sair obyektlərini milliləşdirmək imkanı verir.[1] Beləliklə, daxili hüquq üçün ərazi dövlət hakimiyyətinin həyata keçirilməsini təmin edən məkan hüduddursa, beynəlxalq hüquq üçün o dövlətin mülkiyyəti hesab oluna bilər. Beynəlxalq münasibətlərdə dövlət öz ərazisinin mülkiyyətçisi kimi çıxış edir.

Mövcud olan ittifaqların tərkibindəki dövlətlərin ərazi aliliyi onların konstitusiyalarında təsbit olunmuşdur. SSRİ Konstitusiyasının 75-ci maddəsinə uyğun olaraq SSRİ-nin suverenliyi onun bütün ərazisinə şamil olunurdu. On beş müttəfiq respublikadan hər birinin ərazi aliliyi müvafiq olaraq onların ərazilərinə şamil edilirdi. Məsələn, Azərbaycan SSR-in suverenliyi Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olan Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar vilayəti də daxil olmaqla respublikanın bütün ərazisinə şamil edilirdi (Azərbaycan SSR-in Konstitusiyası, m.70).

[1] URL:http//www.constitution qarant.ru/Doc.4000.htm(дата обращения: 18 октября 2009.

Avropa İttifaqı çərçivəsində dövlətlərin birliyi ərazi aliliyini üzv dövlətin suverenliyinin əlaməti kimi nəzərdən keçirməyə imkan verir.[1] Dövlətin normativ-hüquqi aktlarının aliliyi kimi başa düşülən dövlətin ərazi aliliyi bu halda İttifaqın ərazi aliliyinə əsaslanır: Avropa İttifaqının hər bir üzv dövlətinin qanunvericiliyi ümumittifaq standartlarına uyğun olmalıdır.

Azərbaycan Respublikası dövlət hakimiyyətinin ərazi cəhətdən təşkilinə görə mürəkkəb unitar dövlət olduğuna görə, ərazi aliliyi prinsipi Azərbaycan Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikasının ərazi əsaslarının müəyyən edilməsi və inzibati ərazi bölgüsünün həyata keçirilməsi üçün əsas götürülmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin IV hissəsində göstərilmişdir ki, Azərbaycan Respublikası Konstitusiyası, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Naxçıvan Muxtar Respublikasının ərazisində məcburidir. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 6-cı maddəsində təsbit edilmiş muxtar respublikanın ərazisinin Azərbaycan Respublikasının dövlət sərhədləri hüdudunda vahidliyi, toxunulmazlığı və bölünməzliyinə dair müddəa Azərbaycan Respublikasının ərazi aliliyi prinsipinə uyğundur.

---

[1] Эбзеев Б.С. Российский федерализм и единство конституционного пространства. // Конституционный Суд РФ: постановления, определения. М., 1997, с. s.61.





Beləliklə, yuxarıda aparılan tədqiqata əsaslanaraq, ölkənin ərazi quruluşunun konstitusion-hüquqi prinsiplərini dövlətin əraziyə münasibətdə suverenliyinin müəyyən edilməsi, respublikanın ərazisinin müəyyən hissələrə bölünməsi, dövlət və yerli hakimiyyətin bu quruluşa uyğun olaraq həyata keçirilməsi şərtlərinin və qanunauyğunluqlarının Konstitusiya və qanunlarla təsbit edilən ilk başlanğıcları və müddəaları kimi nəzərdən keçirmək mümkündür. Azərbaycan və xarici ölkə hüquqşünaslarının ənənəvi olaraq tədqiq etdikləri "ərazi aliliyi", "ərazi üzərində suverenlik" və "dövlət ərazisinin vahidliyi, bütövlüyü və toxunulmazlığı" prinsiplərinin sırasına "dövlətin ərazi varisliyi" prinsipinin əlavə edilməsi zəruridir. Dissertasiyada dövlətin ərazi varisliyi ərazi quruluşunun tənziminin ilk konstitusion-hüquqi prinsipi hesab edilərək, daxili və xarici mənbələrdən qaynaqlanan çoxsaylı ərazi münaqişələrinin varis dövlətin ərazi iddiaları təmin edilməklə aradan qaldırılmasına dair müddəa əsaslandırılır.

Azərbaycan Respublikasının suverenliyinin onun bütün ərazisinə şamil olunduğunu və dövlətin vahidliyinin onun ərazi quruluşunun əsaslarından biri kimi təmin edildiyini əsas götürsək, Azərbaycan Respublikasının Konstitusiyasının və qanunlarının Azərbaycan Respublikasının bütün ərazisində aliliyini etiraf etmək lazımdır. Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyası milli qanunvericilik sisteminə daxil olan aktların sadəcə olaraq bazası deyil, həm də onun normaları hər hansı qa-

nunla dəyişilə bilməz və Azərbaycan Respublikasının bütün ərazisində birbaşa hüquqi qüvvəyə malikdir.

Nəhayət, daxili hüquq baxımından ərazi dövlət hakimiyyətinin həyata keçirilməsini təmin edən məkan hüdududursa, beynəlxalq hüquqda o dövlətin mülkiyyət obyekti hesab oluna bilər. Beynəlxalq münasibətlərdə dövlət öz ərazisinin mülkiyyətçisi kimi çıxış edir.

### *3.2. Dövlətin ərazi quruluşunun sabitliyinin təmin edilməsinin konstitusion-hüquqi mexanizmləri*

Ərazi quruluşunun yaranması və inkişafı ilə əlaqədar münasibətlərin konstitusion-hüquqi tənzimlənməsi dövlətin vəzifəsidir və ölkədə inzibati ərazi bölgüsünün həyata keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Dövlət hakimiyyətinin ərazi hüdudlarının müəyyən edilməsi və müdafiəsinin təşkili ölkənin təhlükəsizliyini təmin edir, ölkənin milli təhlükəsizliyi isə bütünlükdə dövlətin inkişafının və ictimai-siyasi quruluşun sabitliyinin təmin edilməsinin əsas şərtlərindən biridir.

Dövlətin ərazisi dövlətin maddi sərvətidir, onsuz dövlət beynəlxalq hüququn subyekti kimi mövcud ola bilməz. Bir dövlətin ərazisi digər dövlətin ərazisindən dövlət sərhəddi ilə ayrılır. Müasir beynəlxalq hüquq dövlət ərazisinin toxunulmazlığı və bütövlüyü prinsipinə əsaslanır. Dövlət ərazisinin toxunulmazlığı dedikdə dövlətlərin başqa dövlətin ərazisində silahlı müdaxilə etməkdən və yaxud ilhaqdan çəkinməsi başa düşülür. Dövlət





ərazisinin bütövlüyü dedikdə dövlətin ərazisinin zorla parçalanmasının qadağan edilməsi zənn edilir; bu cür hərəkətlər birbaşa təcavüz kimi qiymətləndirilir. Hər bir dövlət öz dövlət ərazisini müdafiə etmək üçün tədbirlər görməyə, təcavüz hallarında isə özünümüdafiəyə, yəni təcavüzkara silahlı müqavimət göstərməyə haqlıdır.[1]

Dövlət ərazisi kimi dövlət sərhədləri toxunulmazdır, onların pozulması dövlət suverenliyinin pozulmasına bərabərdir. Beynəlxalq hüquqa görə dövlət sərhədlərinin zorla dəyişdirilməsi ilhaq deməkdir və bu, beynəlxalq hüquq normaları ilə qadağan edilmişdir.

Qonşu dövlətlər arasında dövlət sərhədləri müqaviləyə və ya qanunvericiliyə əsasən delimitasiya və demarkasiya vasitəsilə müəyyən edilir. Delimitasiya dövlət sərhədlərinin müqaviləyə əlavə edilən xəritədəki qrafik təsvirinə deyilir. Bu sənədlər dövlət sərhədlərinin demarkasiyası, yəni dövlət sərhədlərinin ərazidə sərhəd nişanları (piramida, dirək, buy və s.) vasitəsilə işarə edilməsi üçün hüquqi əsasdır. Demarkasiyanı müqavilə bağlayan dövlətlərin nümayəndələrindən yaradılan xüsusi komissiya həyata keçirir. Demokrasiyanın nəticələri protokollarda, təsvirlərdə, xəritələrdə və digər sənədlərdə əks etdirilir.

Dövlət sənədlərində həm daxili qanunvericiliklə, həm də həmsərhəd dövlətlər arasında sazişlə müəyyən edilən xüsusi sərhəd rejimi müəyyən edilir. Dövlət sərhədləri-

---

[1] Барциц И.Н. Правовое пространство России: вопросы конституционной теории и практики. М., Изд-во Московского Университета, 2000, s.216.

nin müdafiəsi qaydası, orada gömrük, sanitariya rejimi və sair rejim, sərhəd zonalarına daxilolma və orada yaşama qaydası və şərti, habelə sərhəd zonalarında təsərrüfat fəaliyyəti və sair fəaliyyət daxili qanunvericiliklə nizamlanır. Qonşu dövlətlərin mənafeyinə toxunan məsələlər beynəlxalq sazişlərlə tənzimlənilir.

Azərbaycan Respublikasının dövlət suverenliyinin, ərazi bütövlüyünün və dövlət sərhəddinin toxunulmazlığının təmin edilməsi sahəsində hüquqi, təşkilati və iqtisadi xarakterli tədbirlərin həyata keçirilməsinin əsas məqsədi dövlətin ərazi quruluşunun sabitliyinə nail olmaqdan ibarətdir. Dövlətin ərazi quruluşunun sabitliyi ölkədə daxili siyasi vəziyyətin sabitliyindən və dövlət sərhəddinin qorunmasının təmin olunmasından asılıdır.

Ərazi quruluşunun sabitliyini onun tərkib ünsürlərini nəzərə alaraq ərazinin daxili və xarici sabitliyi kimi xarakterizə etmək mümkündür.

Daxili sabitlik üçün təhlükə ərazidə məskunlaşan əhalinin xaricdən qaynaqlanan milli separatçılığa məruz qalması nəticəsində yaranır. 1919-cu ilin may-avqust aylarında Azərbaycan Respublikasının cənub bölgəsində qondarma "Muğan Sovet Respublikası"nın mövcud olması, 1993-cü ilin avqustunda "Talış-Muğan Respublikası"nın yaradılması və ləğv edilməsi, sadvalçıların ölkənin şimal-şərq sərhəddində "Ləzgistan" adlanan dövlətin yaradılması uğrunda mübarizəyə qalxması faktlarının gələcək dövrdə yenidən təkrar olunmasının mümkünlüyünü inkar etmək çətindir. Azərbaycanın parçalanması ilə nəti-





cələnə bilən təhlükənin aradan qaldırılması üçün milli azlıqların məskunlaşdığı bölgələrdə əhalinin sosial-mədəni ehtiyaclarının dövlət təminatının gücləndirilməsi zəruridir.

Dövlət ərazisinin xarici sabitliyi beynəlxalq siyasi vəziyyətdən və Azərbaycan Respublikasının dövlət sərhəddinin mühafizəsinin təmin olunmasından asılıdır. Beynəlxalq münasibətlərdə gərginliyin güclənməsi həmsərhəd dövlətlərin beynəlxalq silahlı münaqişələrə cəlb olunması ilə nəticələndikdə, hətta neytral mövqe tutan ölkənin ərazisi təcavüz aktına məruz qalır.[1] Beynəlxalq silahlı münaqişə baş verdikdə tərəflərin müharibə vəziyyətinin tanınıb-tanınmamasından asılı olmayaraq işğal olunmuş ərazilərdə 1949-cu il Cenevərə Konvensiyasına uyğun olaraq hərbi işğal rejimi müəyyən olunur ki, bu da bitərəf statuslu ölkənin ərazi rejiminin sabitliyini pozur.[2] Azərbaycan Respublikasının dövlət ərazisi rejiminin xarici sabitliyi üçün belə bir təhlükə İranın nüvə silahı hazırlaması ilə əlaqədar yarana bilən beynəlxalq silahlı münaqişə zəminində mövcud ola bilər.

İndiyədək Beynəlxalq hərbi tribunal vasitəsilə özünün ədalətli həllini tapmamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü üçün ən böyük təhlükə olaraq hesab edilir. Ermənistanın 1988-1994-cü illərdə həyata keçirdiyi işğal nəticəsində Azər-

[1] URL:http://www.kavkaz-uzel.ru/articles/138675/ (дата обращения: 14 февраля 2010).
[2] Shaw M. N. State Succession Revisited // Finnish Yearbook of International Law, 1994, vol.5, p.53.

baycan Respublikasının ərazisinin 20 faizi hərbi işğal obyektinə çevrilmiş və 2020-ci ildə İkinci Qarabağ Müharibəsindən sonra həmin ərazi Azərbaycana geri qaytarılmışdır.

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 25-ci maddəsində göstərilir ki, təşkilatın Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməsi icbari xarakter daşıyır. Qeyd edək ki, təşkilatın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dörd qətnaməsində Ermənistanın silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeydsiz-şərtsiz çıxarılması məsələsi əksini tapıb. Amma buna baxmayaraq, beynəlxalq hüquq normaları 20 ildən artıqdır ki, kobudcasına pozulmuş, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilmədi, işğalçı ölkəyə təzyiq göstərilmədi. Beləliklə, müasir mərhələdə Azərbaycan Respublikası öz gücü ilə dövlət ərazisinin bütövlüyü və əvvəlki sərhədlərinin bərpa olunması yolu ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə nail ola bildi.

Azərbaycan Respublikasının ərazi rejiminin sabitliyinin təmin olunması sahəsində ciddi problemlər dövlət ərazisinin tərkibinə daxil olan ərazi dənizinin və kontinental şelfin hüdudlarının təyin edilməsi ilə əlaqədardır.[1] Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin II hissəsində göstərilir ki, Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün), Azərbaycan

[1] Dinar S. International Water Traeties.London, 2007, p.101.





Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir. Dövlətin su ərazisi daxili sulardan və ərazi sularından ibarət olmaqla Əsas Qanunun bu normasının məzmunu Azərbaycan Respublikasının Su Məcəlləsinin (26 dekabr 1997-ci il), "Azərbaycan Respublikasının dövlət sərhəddi haqqında" Azərbaycan Respublikası Qanununun (9 dekabr 1991-ci il) normaları və Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri və tərəfdar çıxdığı beynəlxalq hüquq aktları ilə konkretləşdirilir.

Dövlətin su ərazisinin hüdudlarının Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasının müddəalarına uyğun olaraq təyin edilməsi hər hansı mübahisə yaratmır. Azərbaycan Respublikasının Xəzər dənizində ərazi rejiminin sabitliyinin təmin olunması ilə bağlı problem təbii sərvətlərin kəşfiyyatı və istismarı məqsədilə kontinental şelf üzərində suveren hüquqların həyata keçirilməsi ilə əlaqədardır. Tədqiqat işinin birinci fəslində göstərildiyi kimi, 1921-1991-ci illərdə Xəzər dənizində Azərbaycan SSR-ə yaxın sahədə kontinental şelfin kəşfiyyatı və istismarı ilə bağlı münasibətlər 26 fevral 1921-ci il və 25 mart 1940-cı il tarixli SSRİ - İran müqavilələri ilə tənzimlənmişdir. 1991-ci ildə SSRİ dünyanın siyasi xəritəsindən silindikdən sonra müstəqil Azərbaycan Respublikası əvvəllər istismar edilmiş kontinental şelfin ərazisinə münasibətdə özünün varisliyini qəbul edərək müvafiq dəniz ərazisi

hüdudlarında yeraltı ehtiyatları istismar etməkdə davam edir.[1] Rusiya və İran isə Azərbaycanın Xəzər dənizində özünə yaxın sahədə birtərəfli fəaliyyətinin əleyhinə olduqlarını gizlətmir, Xəzər dənizinin mineral və başqa təbii ehtiyatlarından birgə istifadə etməkdə israrlı olduqlarını bəyan edirlər. Sahilyanı dövlətlər Sovet İttifaqı dağıldıqdan sonra Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın qəbul edilməsinin zəruriliyini etiraf etsələr də, 1994 –cü ildən 2018-ci ilədək dənizinin dibinin və buradakı ehtiyatların bölünməsinə dair Konvensiyanın müddəalarını əsaslandıra bilmirdilər.[2] Nəhayət "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiya Xəzəryanı ölkələrin V sammitində 12 avqust 2018-ci ildə imzalansa da iştirakçı ölkələrin ərazi sularının xarici sərhəddinin müəyyən edilməsi məsələsi özünün birmənalı həllini tapmamışdır.

Azərbaycan Respublikasının ərazi quruluşunun sabitliyinin təmin edilməsi xeyli dərəcədə respublikanın ərazisinin inzibati ərazi bölgüsü ilə bağlı məsələlərin düzgün həllindən asılıdır. Tədqiqat işinin ikinci fəslinin üçüncü və dördüncü paraqraflarında aparılan araşdırmalardan Azərbaycan Respublikasının ərazi quruluşunu yaradan inzibati ərazi vahidlərinin adlarının, habelə dövlət haki-

[1] Мамедов Р.Ф. Международно-правовой статус Каспийского моря: вчера, сегодня, завтра. Баку, 2006. s.25.

[2] Чертков А.Н. Российская модель территориального устройства: специфика, содержание, пути развития. // Научно-практические материалы «20 лет кафедре конституционного (государственного) права зарубежных стран. МГЮА им. О.Е. Кутафина».М., 2010, с. 98.





miyyətinin və yerli özünüidarənin həyata keçirilməsinin ərazi hüdudlarının əsaslandırılması ilə bağlı məsələlərin konstitusion-hüquqi həllinin zəruriliyi haqqında nəticə çıxarmaq mümkündür.

Azərbaycan Respublikasının ərazi rejiminin sabitliyinin təmin olunmasının hüquqi mexanizmləri ilk növbədə beynəlxalq ümumi hüququn ərazinin bütövlüyü, sərhədlərin toxunulmazlığı, güc tətbiq etməmək, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipinə əsaslanır. Qeyd etmək lazımdır ki, İkinci Qarabağ Müharibəsindən sonra yaranmış reallıqlar regionda sülh prosesinin bərpa olunması üçün əlverişli şərait yaradır.

Xəzər dənizində sahilyanı dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının ərazi rejiminin sabitliyinin təmin olunmasının beynəlxalq hüquqi təminatlar sisteminin indiyədək yaradılmaması etiraf edilməlidir. Son dövrdə sahilyanı dövlətlər arasında bağlanmış müqavilələr, o cümlədən: Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında 1997-ci il 3 iyul tarixli Müqavilə, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında 2002-ci il 23 sentyabr tarixli Saziş, Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında 2010-cu il 18 noyabr tarixli Saziş Xəzər dənizinin statusu, habelə onun dibi və orada olan təbii ehtiyatlardan istifa-

də olunması ilə bağlı məsələlərin həllinin etibarlılığına təminat vermir. [1] Elə təsəvvür yaranır ki, Hesab edirik ki, sahilyanı dövlətlər arasında həll edilməsi mümkün olmayan mübahisələrə 12 avqust 2018-ci ildə imzalanmış "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyanın tətbiqi ilə bağlı məsələlərin Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasının normalarına uyğun surətdə həll edilməsinin mümkünlüyü təcrübədə təsdiq edilməlidir. Həmin Konvensiyanın "Qapalı və yarımqapalı dənizlər" adlanan IX hissəsinin normalarının daxili dənizlərə aid edilməməsinin səbəblərini aydınlaşdırsaq, bu səbəblərin müasir mərhələdə aradan qaldırıldığını görərik. Məlumdur ki, Dəniz hüququ üzrə Konvensiya 1982-ci ildə təsdiq edilərkən iştirakçı dövlətlər Xəzər dənizini Sovet İttifaqı ilə İran arasında bölünmüş başqa dənizə və ya okeana çıxışı olmayan su ərazisi hesab edərək, onu beynəlxalq dəniz hüququnun obyektlərinin sırasına daxil etməmişlər.[2] Başqa sözlə, Konvensiyanın iştirakçıları olan dövlətlər, habelə Beynəlxalq Dəniz Təşkilatı, Dənizin tədqiq edilməsi üzrə Beynəlxalq Şura kimi beynəlxalq təşkilatlar 1982-ci ildə Dəniz hüququ üzrə Konvensiya təsdiq edilərkən təkcə SSRİ-nin Xəzər dənizindəki su ərazisinin yaxın gələcəkdə beş müstəqil dövlət arasında bölünəcəyini proqnozlaşdıra bilməmişlər. Elə bu səbəbdən də Konven-

[1] Пастухова Н.Б. Проблемы государственного суверенитета. М., Норма, 2006, s.114.
[2] Доленко Д.В. Политика и территория. Основы политического регионоведения. Саранск, 2000, s.114.





siyanın 122-ci maddəsinə uyğun olaraq "başqa dənizə və ya okeana çıxışı olmayan" dənizlər (Xəzərdən savayı ikinci belə bir dəniz dünyada yoxdur) "Qapalı və yarımqapalı dənizlər" in sırasına aid edilmir.SSRİ-nin süqutundan sonra Xəzər dənizinin hüquqi statusu ilə bağlı hər hansı məsələ beş sahilyanı dövlətin ümumi razılığı ilə həll edilməlidir və bunun üçün ayrıca Konvensiyanın qəbul olunması və ya Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasının normalarının birbaşa tətbiq edilməsi mümkün ola bilər. Beləliklə, SSRİ-nin süqutundan sonra Xəzər dənizinin (gölünün) beynəlmiləlləşməsi ilə əlaqədar olaraq onun statusunun, dəniz dibi və buradakı ehtiyatlar üzərində müstəsna hüquqların sahilyanı dövlətlər arasında beynəlxalq dəniz hüququnun normalarına uyğun tənzimlənməsinin məqsədəuyğunluğu inkar edilməməlidir. Bu mövqedən "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiya ilə Dəniz hüququ üzrə 1982-ci il Konvensiyası arasında kənarlaşmalar yoxdur. Lakin, ölkənin ərazi sularının xarici sərhəddinin müəyyən edilməsində körfəz əlamətinin Konvensiyada nəzərə alınmaması diqqətdən yayınmır.

Azərbaycan Respublikasının ərazi quruluşu və inzibati ərazi bölgüsü ilə bağlı münasibətlər nəzərdən keçirilərkən unitar dövlətin vahid ərazisinin bölünməsi nəticəsində yaranan muxtar respublikanın və inzibati ərazi vahidlərinin siyahısının Əsas Qanunda və "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununda (13 iyun 2000-ci il) təsbit edilməmə-

si diqqətdən yayınmır. Əgər, Azərbaycan Respublikası əhalisi bir yaşayış məntəqəsində məskunlaşmış ölkədən (məsələn, Vatikandan) fərqli olmasaydı, onun Konstitusiyasının və qanunun qüsursuzluğu haqqında müddəa əsaslandırıla bilərdi. Xarici ölkələrin konstitusiyalarında dövləti yaradan subyektlərin tərkibi göstərilir. İtaliya Respublikası Konstitusiyasının (22 dekabr 1947-ci il) 114-cü maddəsində respublikanın vilayətlərə, əyalətlərə və icmalara bölünməsi və 131-ci maddəsində isə respublikanın ərazi quruluşunu yaradan vilayətlərin adları təsbit olunmuşdur.

Almaniya Federativ Respublikası Konstitusiyasının (23 may 1949-cu il) müqəddimə hissəsində və 23-cü maddəsində federasiyaya birləşən əyalətlərin adları göstərilmişdir.

Rusiya Federasiyası Konstitusiyasının (12 dekabr 1993-cü il) 65-ci maddəsi Federasiyanın tərkibinə daxil olan respublikaların, diyarların, vilayətlərin, federasiya əhəmiyyətli şəhərlərin, muxtar vilayətin və muxtar mahalların adlarını təsbit edir.

Sovet dövründə qəbul edilmiş Azərbaycan SSR-in konstitusiyalarında ərazi quruluşunu yaradan subyektlərin adları əks etdirilirdi. Məsələn, Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının (21 aprel 1978-ci il) 78-ci maddəsində göstərilirdi ki, Azərbaycan SSR-in tərkibinə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası və Dağlıq Qarabağ Muxtar vilayəti daxildir. Azərbaycan SSR-də: Abşeron, Ağdam, Ağdaş, Ağstafa, Ağsu, Ağcabədi, Astara, Balakən, Beyləqan, Bərdə, Vartaşen, Qazax, Qasım İsmayılov, Qax, Qobustan, Quba, Qubadlı, Qusar, Qutqaşen, Daşkəsən, Dəvəçi, Zaqatala, Zəngilan, Zərdab, İmişli, İsmayıllı, Yardımlı, Yevlax, Kəlbəcər, Kürdəmir, Gədəbəy, Göyçay, Laçın, Lerik, Lənkəran, Masallı, Mirbəşir, Neftçala, Puşkin, Saatlı, Sabirabad, Salyan, Tovuz, Ucar, Fizuli, Xanlar, Xaçmaz, Xızı, Hacıqabul, Cəbrayıl, Cəlilabad, Şamaxı, Şamxor, Şaumyan (kənd), Şəki rayonları; respublika tabeliyində olan Bakı, Əli Bayramlı, Yevlax, Gəncə, Lənkəran, Mingəçevir, Naftalan, Sumqayıt və Şəki şəhərləri vardır (62, s. 27-28).





Azərbaycan Respublikasının rayon bölgüsü və inzibati ərazi quruluşu haqqında müddəaların Konstitusiyada təsbit edilməsi gələcək dövrlərdə yarana bilən ərazi mübahisələrinin tarixi köklərinin (səbəblərinin) aydınlaşdırılması üçün mühüm əhəmiyyətə malikdir. Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, suveren Azərbaycan Respublikasının rayon bölgüsünün Azərbaycan Respublikasının 12 noyabr 1995-ci ildə qəbul edilmiş Konstitusiyasında təsbit edilməməsini Əsas Qanunun nöqsanı kimi qiymətləndirmək məqsədəuyğun deyildir. Hesab edirik ki, 1988-1994-cü illərdə Azərbaycan Respublikasının Ermənistan silahlı qüvvələrinin işğal etdikləri 14 rayonunun hüquqi müqəddaratı indiki dövrdə həll edildikdən sonra Azərbaycan Respublikasının tərkibinə daxil olan muxtar respublikanın və rayonların adlarının Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilməsi mümkündür.

Yuxarıda aparılan tədqiqat yerlərdə dövlət hakimiyyətinin və yerli özünüidarənin ərazi təşkili ilə bağlı münasibətlərin konstitusion-hüquqi vasitələrlə tənzimlənməsinin zəruriliyini təsdiq edir. Azərbaycan Respublikası Konstitusiyasının 2-ci və 142-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikasında xalq hakimiyyəti dövlət hakimiyyəti orqanları və yerli özünüidarə orqanları tərəfindən həyata keçirilir. Ona görə də, hakimiyyətin ərazi təşkili baxımdan inzibati-ərazi bölgüsü, bir tərəfdən, dövlət hakimiyyətinin həyata keçirilməsi mexanizmi, digər tərəfdən isə, yerli özünüidarənin təşkili üsulu kimi çıxış edir. Deməli, yerli özünüidarə orqanlarının yaradılması və onların dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətləri dövlətin inzibati-ərazi quruluşu ilə sıx əlaqədədir.

Ərazi quruluşu haqqında qanunvericiliyin dissertasiyanın II fəslinin üçüncü və dördüncü paraqraflarında aparılan tədqiqatı göstərdi ki, inzibati ərazi vahidlərinin əraziləri bələdiyyələrin aidiyyətində olan ərazilərlə üst-üstə düşə bilər. Bu tərzdə uyğunluq onu göstərir ki, eyni bir ərazi eyni bir vaxtda həm bələdiyyə qurumuna və həm də inzibati ərazi vahidinə aiddir. Funksional planda isə dövlət və yerli özünüidarə orqanlarının aidiyyətindəki ərazilərin ölçülərinin üst-üstə düşməsi istisna təşkil edir. Çünki, dövlət hakimiyyəti orqanlarının və bələdiyyə orqanlarının funksiyaları müxtəlifdir. Hesab edirik ki, yerlərdə dövlət hakimiyyətinin və yerli özünüidarənin həyata keçirilməsinin ərazi hüdudlarının əsaslandırılması ilə bağlı məsələlərin konstitusion-hüquqi qaydada həll





edilməsinin ilkin şərti kimi həmin orqanların funksiyalarını və qarşılıqlı fəaliyyətini tənzimləyən Azərbaycan Respublikası qanununun qəbul edilməsi və tətbiqi zəruridir.

Azərbaycan Respublikası Avropa Şurasına üzvlüyə qəbul olunarkən götürdüyü öhdəliklərdən biri də "Bələdiyyələrlə yerli icra hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Qanunun qəbul olunmasıdır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Milli Məclisinin regional məsələlər daimi komissiyası sədrinin müavini Şaitdin Əliyev hələ 2005-ci ilin əvvəlində elan etmişdir ki, Yerli özünüidarə Haqqında Avropa Xartiyasına uyğun olaraq parlament komissiyası tərəfindən "Bələdiyyələrlə yerli icra hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" qanun layihəsi hazırlanmışdır.[1] Belə bir qanunun Milli Məclis tərəfindən indiyədək qəbul olunmaması yerli icra hakimyəti orqanları ilə bələdiyyələr arasında yaranan ərazi mübahisələrinin aradan qaldırılması yolunda xeyli çətinliklərin əmələ gəlməsi ilə nəticələnir.

Dövlətin ərazi quruluşunun sabitliyinin təmin edilməsinin konstitusion-hüquqi üsullarının yuxarıda aparılan tədqiqi aşağıdakı nəticələri və təklifləri əsaslandırmağa imkan verir:

- birincisi, dövlətin ərazi qurluşunun sabitliyini onun təmin olunması şərtlərindən asılı olaraq ərazinin daxili və xarici sabitliyi kimi qiymətləndirmək mümkündür;

[1] Əliyev Ş. Bələdiyyələrin səlahiyyətləri genişlənir-"Xalq Qəzeti",№ 34 (24904), 13 fevral 2005-ci il. s.1.

- ikincisi, ərazi qurluşunun daxili sabitliyi üçün təhlükə ayrı-ayrı bölgələrdə məskunlaşan milli azlıqların müəyyən hissəsinin xaricdən qaynaqlanan milli separatçılığa məruz qalması nəticəsində yaranır;

- üçüncüsü, Azərbaycan Respublikasının ərazisinin xarici sabitliyinin təmin olunması aşağıda göstərilən iki təhlükənin aradan qaldırılmasından asılıdır:

1) Cənubi Qafqaz regionunda real sülh prosesinin beynəlxalq hüquqla və Beynəlxalq hərbi tribunalla tənzimlənməməsi;

2) Azərbaycan Respublikasının su ərazisinin hüdudlarının əsaslandırılması və sovet dövründə istismar edilmiş kontinental şelfə münasibətdə hüquq varisliyini təmin edən beynəlxalq hüquqi təminatın yoxluğu;

- dördüncüsü, Azərbaycan Respublikasının ərazi quruluşunu yaradan inzibati ərazi vahidlərinin siyahısının hüquqi cəhətdən rəsmiləşdirilməsi, yerli icra hakimiyyətinin və yerli özünüidarənin həyata keçirilməsinin ərazi hüdudlarının əsaslandırılması ilə bağlı məsələlərin konstitusion-hüquqi tənzimlənməsi zəruriliyi;

- beşincisi, Azərbaycan Respublikasının ərazisinin daxili və xarici sabitliyinin təmin olunmasının aşağıdakı konstitusion-hüquqi mexanizmləri təklif olunur:

1) Azərbaycan Respublikası ərazisinin ayrı-ayrı cinayətkar qrupların separatçılıq fəaliyyəti nəticəsində parçalanması təhlükəsinin milli azlıqların məskunlaşdığı bölgələrdə insanların sosial-mədəni ehtiyaclarının dövlət təminatının gücləndirilməsi yolu ilə aradan qaldırılması;





2) beynəlxalq ümumi hüququn ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, güc tətbiq etməmək, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsiplərinə uyğun olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Yuqoslaviyada olduğu kimi, Beynəlxalq hərbi tribunalla həll edilməli, bu münaqişənin həqiqi səbəbkarları, təşkilatçıları cəzalandırılmalıdır;

3) Xəzər dənizində sahilyanı dövlətlər arasında son 22 il ərzində həll edilməyən mübahisələri aradan qaldırmaq üçün qəbul edilmiş "Xəzər dənizinin hüququ statusu haqqında" Konvensiyanın ərazi sularının xarici sərhəddinin müəyyən edilməsinə dair müddəaların Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasının müvafiq normalarına uyğunluğunun qiymətləndirilməsi;

4) Azərbaycan Respublikasının tərkibinə daxil olan muxtar respublikanın, rayonların və respublika tabeli şəhərlərin adlarının Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilməsi;

5) yerli icra hakimiyyətinin və yerli özünüidarənin həyata keçirilməsinin ərazi hüdudlarının əsaslandırılması ilə bağlı məsələlərin konstitusion-hüquqi qaydada həll edilməsinin ilkin şərti kimi həmin orqanların funksiyalarını və qarşılıqlı fəaliyyətini tənzimləyən "Bələdiyyələrlə yerli icra hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi.

# Nəticə

Azərbaycan Respublikasının ərazi quruluşunun konstitusion əsaslarının tədqiqi xalqın suverenliyinin ərazi amili ilə əlaqələndirilməsi, dövlətin ərazi quruluşunu ifadə edən müddəanın Konstitusiyada birbaşa təsbit edilməsi, ərazi vahidlərinin və ayrı-ayrı ərazi hissələrinin hüquqi statusunun müəyyən edilməsi, ərazi quruluşunun konstitusion-hüquqi mexanizmlərinin yaradılması ilə bağlı çoxlu sayda problemlərin Azərbaycan Respublikasının Konstitusiya hüququ elmində mühüm əhəmiyyət kəsb etdiyini və eyni zamanda həll edilmədiyini təsdiq edir.

Aparılan tədqiqat Azərbaycan Respublikasının ərazi quruluşunun və inzibati ərazi bölgüsünün konstitusion-hüquqi tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi üzrə elmi-praktiki əhəmiyyətli nəticələrin və təkliflərin əsaslandırılmasına imkan verir.

1. Ərazi və ərazi quruluşu ilə əlaqədar konstitusion-hüquqi məna kəsb edən əsas anlayışların tərifi verilmişdir. Bu anlayışlar aşağıdakılardır.

Ərazi - yer səthinin hər hansı dövlətin suverenliyi altında olan və xalq hakimiyyətinin həyata keçirilməsinin məkan hüdudlarını müəyyən edən hissəsidir.





Ərazi quruluşu - dövlətin ərazisinin fiziki-coğrafi və inzibati-siyasi əlamətlərə görə tərkib hissələrə bölünməsidir.

Ərazi qurumu - hüdudlarında dövlət hakimiyyətinin və yerli özünüidarənin həyata keçirildiyi dövlət ərazisinin ayrılmaz tərkib hissəsidir. Dövlət idarəetməsinin təşkili səviyyəsinə görə ərazi qurumunun dövlət, muxtar respublika və inzibati ərazi vahidləri kimi növlərini fərqləndirmək zəruridir.

İnzibati ərazi vahidi-hüdudlarında məskunlaşan əhalinin həyat fəaliyyətinin təmin edilməsi məqsədilə dövlət hakimiyyətinin həyata keçirilməsi üçün respublikanın ərazisindən ayrılan hissə olmaqla, ayrıca ad daşıyan, özündən savayı çoxlu sayda yaşayış məntəqələrini birləşdirən vahiddir.

2. Azərbaycan Respublikasının ərazisi Naxçıvan Muxtar Respublikasının və inzibati ərazi vahidlərinin ərazilərinin cəmindən ibarət olmaqla, öz tərkibində quru ərazini, daxili suları, ərazi sularını, habelə onların altında yerləşən yer təkini və üzərindəki hava məkanını birləşdirir.

3. Tədqiqat Azərbaycan Respublikasının ərazi quruluşunun yaranması və inkişafının ən qədim zamanlardan bu günədək xalqın həyatında baş vermiş hadisələr və bu hadisələrin nəticəsi kimi miras qalmış ziddiyyətli ərazi problemləri ilə səciyyələndiyini təsdiq edir. Tarixi məlumatların təhlili göstərdi ki, cənubda İkiçayarası, şimalda Dərbənd, şərqdə Xəzər dənizi, qərbdə Tiflis, Batum, Qars-Ərzurum məntəqələri arasındakı məkanda oğuz

türk tayfası tərəfindən yaradılmış dövlət aşağıdakı ərazi itgilərinə məruz qalmışdır:

- birinci ərazi itgisi - Şumer şəhər-dövlətlərinin ərazilərinin eramızdan əvvəl II minilliyin başlanğıcında Babil dövləti tərəfindən işğal edilməsi;
- ikinci ərazi itgisi - eramızdan əvvəl I minilliyin ortalarında Midiya şahlığının ərazisinin farslar tərəfindən işğal edilməsi;
- üçüncü ərazi itgisi - XII əsrin əvvəlində Tiflis müsəlman əmirliyinin ləğv edilməsi və onun ərazisinin gürcü çarlığının tabeliyinə verilməsi;
- dördüncü ərazi itgisi - şimali Azərbaycanın ərazisinin XIX əsrin əvvəllərində Çar Rusiyasının müstəmləkəsinə çevrilməsi, Borçalı sultanlığının ərazisinin gürcülərə verilməsi;
- beşinci ərazi itgisi - azərbaycanlıların ən qədim dövrlərdən məskunlaşdığı Dərbənd və onun ətrafındakı ərazilərin 1850-1860-cı illərdə Rusiyanın ərazi vahidi elan edilməsi;
- altıncı ərazi itgisi - 1918-1919-cu illərdə İrəvan xanlığının ərazisinin ermənilərə verilməsi;
- yeddinci ərazi itgisi - 1920-1924-cü illərdə Azərbaycanın Şərur - Dərələyəz, Zəngəzur və Göyçə ərazilərinin SSRİ rəhbərliyi tərəfindən Ermənistana verilməsi;
- səkkizinci ərazi itgisi - Dağlıq Qarabağın və onun ətraf rayonlarının 1988-1994-cü illərdə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi.





4. Xarici dövlətlərin ərazi quruluşunun yaranması xüsusiyyətlərinin və Azərbaycan iqtisadiyyatının regional strukturunda aparılan dəyişikliklərin öyrənilməsi konstitusiya hüququnda Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı problemlərinin səmərəli həll edilməsi baxımından inzibati-ərazi sistemində "region" komponentinin yaradılması və ərazi qurumlarının mütəşəkkilliyi səviyyəsindən asılı olaraq onların statusunun fərqləndirilməsi məsələlərini ortaya qoyur.

5. Müstəqil Azərbaycan Respublikasının ərazi quruluşunun konstitusion-hüquqi tənzimlənməsi vəziyyətinin təhlili respublikanın inzibati ərazi quruluşunu müəyyən edən normanın Konstitusiyada əks olunmadığını sübut edir. Müəllifin fikrincə, "...Azərbaycan Respublikasının tərkibində Naxçıvan Muxtar Respublikasının, rayonların, respublika tabeliyində olan şəhərlərin əraziləri Azərbaycan Respublikasının vahid ərazisini təşkil edirlər" məzmunda normanın Azərbaycan Respublikasının Konstitusiyasının 11-ci maddəsinin II hissəsinə əlavə edilməsi və "muxtar ərazi vahidi" anlayışının "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununda təsbit edilməsi məqsədəuyğundur.

6. Naxçıvanın keçən əsrin 20-ci illərində mövcud olmuş çox mürəkkəb və gərgin siyasi ziddiyyətlər şəraitində muxtariyyət statusu almasına baxmayaraq, muxtar respublikanın sovet hakimiyyəti illərində qəbul edilmiş konstitusiyalarında onun ərazi məsələlərinin həlli sahəsində müasir Konstitusiyası ilə müqayisədə daha geniş

hüquqları təsbit edilirdi. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının inzibati-hüquq sisteminin müstəqil subyekti olduğuna görə, onun muxtariyyətliyinin konstitusion əsaslarının möhkəmləndirilməsini təmin edən aşağıdakı müddəaların:

1) "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının rayon bölgüsünü və ərazi vahidlərinin sərhədlərini müəyyən edərək Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir" məzmunda müddəanın Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin ("Naxçıvan Muxtar Respublikası ali vəzifəli şəxsi") II hissəsinə əlavə edilməsi;

2) "Naxçıvan Muxtar Respublikasının rayon bölgüsünün və ərazi vahidlərinin sərhədlərinin müəyyən edilməsi" məzmunda müddəanın Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci ("Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlər") maddəsinin I hissəsinə əlavə edilməsi məqsədəmüvafiqdir.

7. "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikası Qanununun (13 iyun 2000-ci il) 2-ci maddəsində təsbit edilmiş əsas anlayışların təhlili göstərir ki, eyni yaşayış məntəqəsinin ərazi vahidi, inzibati ərazi vahidi, inzibati ərazi dairəsi və bələdiyyə adlandırılması yerlərdə dövlət hakimiyyətinin səmərəli təşkili tələblərinə cavab vermir və hər bir ərazinin funksional təyinatı ilə bağlı məsələnin konstitusiya hüququnda həllinin zəruriliyi etiraf edilməlidir.





8. Rayonların və şəhərlərdə rayonların yaradılması, ləğv edilməsi, onların adlandırılması və adlarının dəyişdirilməsi, sərhədlərinin müəyyən edilməsi və dəyişdirilməsi kimi çoxsaylı məsələlərin ədalətli həll edilməsi üçün müasir mərhələdə ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələri hazırlanarkən istinad edilən "Azərbaycan SSR rayonlarının dürüstləşdirilmiş sərhədlərinin qrafik təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1960-cı il 24 mart tarixli Fərmanı ilə təsdiq edilmiş növbətçi xəritənin kompleks təftiş olunması zəruridir.

9. Azərbaycan Respublikasında bələdiyyələrin ərazi məsələlərinin həllində konstitusion-hüquqi tənzimetmənin rolunun gücləndirilməsi üçün "ərazi özünüidarə vahidi" anlayışının Azərbaycan Respublikasının Konstitusiya hüququnda etiraf olunması zəruridir. Bu məqsədlə "Ərazi özünüidarə vahidi-hüdudlarında bələdiyyə hakimiyyəti orqanlarının yaradıldığı ərazi vahididir (şəhər, qəsəbə, kənd)" məzmunda müddəanın "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanunun (13 iyun 2000-ci il) 2-ci ("Bu qanunda istifadə olunan əsas anlayışlar") maddəsinə əlavə olunması təklif edilir.

10. Tədqiqat bələdiyyələrinin yaradılması, birləşməsi, birgə fəaliyyəti, ayrılması və ləğv edilməsi ilə əlaqədar münasibətlərin vahid qanun əsasında tənzimlənməsinin məqsədəuyğunluğunu təsdiq edir. Bunun üçün hazırda qüvvədə olan "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi,

ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun adının aşağıdakı yeni redaksiyada verilməsi təklif olunur:

"Bələdiyyələrin yaradılması, birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında".

11. Azərbaycan Respublikasının ərazi quruluşunun prinsipləri dövlətin əraziyə münasibətdə suverenliyinin müəyyən edilməsi, ölkənin ərazisinin hissələrə bölünməsi, dövlət və yerli hakimiyyətin bu quruluşa uyğun olaraq həyata keçirilməsi şərtlərinin və qanunauyğunluqlarının Konstitusiya və qanunlarla təsbit edilən ilk başlanğıcları və nəzəri müddəaları kimi qiymətləndirilə bilər.

Azərbaycan və xarici ölkə hüquqşünaslarının ənənəvi olaraq tədqiq etdikləri "ərazi aliliyi", "ərazi üzərində suverenlik" və "dövlət ərazisinin vahidliyi, bütövlüyü və toxunulmazlığı" prinsiplərinin sırasına "dövlətin ərazi varisliyi" prinsipi əlavə edilir. Dövlətin ərazi varisliyi ərazi quruluşunun tənziminin ilk konstitusion-hüquqi prinsipi hesab edilərək, daxili və xarici mənbələrdən qaynaqlanan çoxsaylı ərazi münaqişələrinin varis dövlətin ərazi iddiaları təmin edilməklə aradan qaldırılmasına dair müddəa əsaslandırılır.

12. Dövlətin ərazi quruluşunun sabitliyini onun təmin olunması şərtlərindən asılı olaraq ərazinin daxili və xarici sabitliyi kimi qiymətləndirmək mümkündür.

Ərazi quruluşunun daxili sabitliyinin pozulması təhlükəsini yaradan səbəblər aşağıdakılardır:





- birincisi, respublikanın ayrı-ayrı bölgələrində məskunlaşan milli azlıqların müəyyən hissəsinin xaricdən qaynaqlanan milli separatçılığa məruz qalması;
- ikincisi, Azərbaycan Respublikasının ərazi quruluşunu yaradan inzibati ərazi vahidlərinin siyahısının konstitusion-hüquqi cəhətdən rəsmiləşdirilməməsi, yerli icra hakimiyyətinin və yerli özünüidarənin həyata keçirilməsinin ərazi hüdudlarının əsaslandırılması ilə bağlı məsələlərin həllinin konstitusion-hüquqi mexanizmlərinin olmaması.

Ərazi quruluşunun xarici sabitliyinin təmin olunmasına mənfi təsir göstərən amillər aşağıdakılardır:

Birincisi, Azərbaycan-Ermənistan, Azərbaycan-İran arasında dinc qonşuluq münasibətlərinin yaranmasına süni maneələrin törədilməsi;

İkincisi, dövlətin su ərazisinin hüdudlarının müəyyən edilməsi və sovet dövründə istismar edilmiş kontinental şelfə münasibətdə hüquqi varisliyini təmin edən beynəlxalq hüquqi mexanizmin 1992-2022-ci illərdə yaradılmaması.

Azərbaycan Respublikasının ərazisinin daxili və xarici sabitliyinin təmin olunmasının aşağıdakı konstitusion-hüquqi mexanizmləri təklif olunur:

1. Azərbaycan Respublikası ərazisinin ayrı-ayrı cinayətkar qrupların separatçılıq fəaliyyəti nəticəsində parçalanması təhlükəsinin milli azlıqların məskunlaşdığı bölgələrdə insanların sosial-mədəni ehtiyaclarının dövlət təminatının gücləndirilməsi yolu ilə həyata keçirilməsi;

2. Azərbaycan Respublikasının tərkibinə daxil olan muxtariyyət qurumunun, rayonların və respublika tabeli şəhərlərin adlarının tam siyahısının Azərbaycan Respublikasının Konstitusiyasında birbaşa təsbit edilməsi;

3. Yerli icra hakimiyyətinin və yerli özünüidarənin həyata keçirilməsinin ərazi hüdudlarının əsaslandırılması ilə bağlı məsələlərin konstitusion-hüquqi qaydada həll edilməsinin ilkin şərti kimi həmin orqanların funksiyalarını və qarşılıqlı fəaliyyətinin istiqamətlərini müəyyən edən "Bələdiyyələrlə yerli icra hakimiyyəti orqanlarının qarşılıqlı fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi;

4. Beynəlxalq ümumi hüququn ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, güc tətbiq etməmək, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsiplərinə uyğun olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Beynəlxalq hərbi tribunalla həll edilməsi, bu münaqişənin bütün səbəbkarlarının və təşkilatçılarının cinayət məsuliyyətinə cəlb edilməsi;

5. Xəzər dənizində sahilyanı dövlətlər arasında həll edilməyən mübahisələri aradan qaldırmaq üçün 2018-ci ildə qəbul edilmiş "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiyaya əsasən ərazi sularının xarici sərhəddinin körfəz məkanında müəyyən edilməsi məsələsinin həllində qeyri-müəyyənliyin mövcud olması.





# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATIN SİYAHISI

## *1.Azərbaycan Respublikasının normativ hüquqi aktları*

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. Hüquq Yayım Evi, 2022, 48 s.

2. "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanunu (29 may 2009-cu il)-"Azərbaycan", № 161(5265), 25 iyul 2009-cu il.

3. "Azərbaycan Respublikasının bəzi rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (15 aprel 2005-ci il)-"Xalq qəzeti", №129 (24999), 8 iyun 2005-ci il.

4. "Azərbaycan Respublikasının ərazi vahidlərinin və inzibati ərazi dairələrinin xəritələrinin hazırlanması qaydası" (Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 10 fevral tarixli 218 nömrəli Fərmanı ilə təsdiq edilmişdir)-"Azərbaycan", №32 (5433), 11 fevral 2010-ci il.

5. "Azərbaycan Respublikasının dövlət təbiət və biosfer qoruqlarının ümumi Əsasnaməsi" (Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli Fərman ilə təsdiq edilmişdir)-"Azərbaycan", №62 (3274), 5 iyul 2001-ci il

6. "Azərbaycan Respublikasının İsmayıllı rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (13 dekabr 2011-ci il)-Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 2 (176), 29 fevral 2012-ci il.

7. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı. 2021, 288 s.

8. "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı (18 oktyabr 1991-ci il)-Azərbaycan Respublikasının Qanunlar Külliyyatı."Hüquq ədəbiyyatı" nəşriyyatı. Bakı. 2001, s.90-96.

9. "Azərbaycan Respublikasının Qarayazı Dövlət Təbiət Qoruğu haqqında Əsasnamə" (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 3 avqust tarixli 148 nömrəli qərarı ilə təsdiq edilmişdir)-Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu).II cild.Bakı, Qanun, 2006, s.442-451.

10. Azərbaycan Respublikasının Meşə Məcəlləsi. Bakı, Qanun nəşriyyatı, 2020. 38 s.

11. Azərbaycan Respublikasının Su Məcəlləsi. Bakı, Qanun nəşriyyatı, 2021, 27 s.

12. Azərbaycan Respublikasının Torpaq Məcəlləsi. Bakı, Qanun nəşriyyatı, 2021,294 s.

13. "Ağdaş rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (11 dekabr 2012-ci il)-Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, №12 (186), 31 dekabr 2012-ci il, s.2408.





14. Astara rayonunun Ərçivan kəndinə qəsəbə statusunun verilməsi haqqında "Azərbaycan Respublikasının Qanunu (11 dekabr 2012-ci il)-Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. №12 (186), 31 dekabr 2012-ci il, s.2409.

15. "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanunu (24 iyun 2005-ci il)- "Azərbaycan", №203 (4122), 2 sentyabr 2005-ci il.

16. "Bakı şəhər inzibati ərazi vahidi tərkibində Pirallahı rayonunun yaradılması haqqında" Azərbaycan Respublikasının Qanunu (21 dekabr 2012-ci il)-Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 1(187), 31 yanvar 2013-cü il, s.73

17. "Bakı şəhər inzibati ərazi vahidi tərkibində Pirallahı rayonunun yaradılması haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli qanunun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (17 yanvar 2013-cü il)-Azərbaycan, № 12 (6287), 19 yanvar 2013-cü il.

18. "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanunu (7dekabr 1999-cu il)-Azərbaycan Respublikasında bələdiyyələrin hüquqi əsasları.II cild.Bakı, Naksuana, 2005.

19. "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nın yeni redaksiyada verilməsi barədə" Azərbaycan

Respublikasının Qanunu (29 may 2009-cu il)-Azərbaycan, № 162 (5266), 29 iyul 2009-cu il.

20. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu (2 iyul 1999-cu il)-Azərbaycan Respublikasında bələdiyyələrin hüquqi əsasları.II cild.Bakı, Naksuana, 2005.

21. "Bələdiyyələrin Dövlət reyestrinin aparılması və onlara şəhadətnamənin verilməsi haqqında Əsasnamə" (Azərbaycan Respublikasının 29 dekabr 2009-cu il tarixli 936-III Q nömrəli Qanunu ilə təsdiq edilmişdir)-"Azərbaycan", № 33 (5434), 12 fevral 2010-cu il.

22. "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (14 aprel 2000-ci il)-"Azərbaycan", N 78 (2764), 22 oktyabr 2000-ci il.

23. "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanunu (13 iyun 2000-ci il) –Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. № 10 (40), 30 noyabr 2000-ci il, s. 4242-4251.

24. "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (17 aprel 2007-ci il)-"Azərbaycan", № 137 (4654), 24 iyun 2007-ci il.

25. "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (12 iyun 2012-ci il)- Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 9 (183), 30 sentyabr 2012-ci il.s.1666-1668.





26. "Ərazi vahidlərinin, habelə ayrı-ayrı milli təhlükəsizlik və ya müdafiə təyinatlı ərazilərin qapalı elan edilməsi və xüsusi rejimli dövlət idarəetmənin tətbiq edilməsi qaydaları" (Azərbaycan Respublikası Prezidentinin 24 avqust 2002-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir)- "Respublika", № 197(1533), 28 avqust 2002-ci il

27. "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunu (8 iyun 20040-cü il)-Azərbaycan Respublikasının hərbi qanunvericiliyi. Bakı, Qanun. 2010, s.108-118.

28. "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanunu (6 yanvar 1994-cü il-Azərbaycan Respublikasının hərbi qanunvericiliyi. Bakı, Qanun.2010, s.90-94.

29. "Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanunu (26 noyabr 1993-cü il)-Azərbaycan Respublikasının hərbi qanunvericiliyi. Bakı, Qanun.2010, s.70-77.

30. "Azərbaycan Respublikasının dövlət sərhəddi haqqında" Azərbaycan Respublikasının Qanunu (9 dekabr 1991-ci il)- Azərbaycan Respublikasının hərbi qanunvericiliyi. Bakı, Qanun.2010, s.13-30.

31. "Gəncə şəhərinin Kəpəz rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (13 dekabr 2011-ci il)- Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 2(176), 29 fevral 2012-ci il, s.138.

32. "Gəncə şəhərinin və Daşkəsən, Goranboy, Göygöl, Samux rayonlarının sərhədlərində qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (21 dekabr 2012-ci il)-"Azərbaycan",№31 (6306), 10 fevral 2013-cü il.

33. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası (29 dekabr 1998-ci il)-Z.Əsgərov. Konstitusiya hüququ. Dərslik. Bakı, Bakı Universiteti nəşriyyatı, 2006, s.638-668.

34. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Qanunu (21 dekabr 2010-cu il)-"Azərbaycan", № 37(5727), 17 fevral 2011-ci il.

35. "Xaçmaz rayonunun Niyazoba və İlxıçı Həsən Əfəndi bələdiyyələrinin tərkibində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (13 dekabr 2011-ci il)- Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, №2 (176), 29 fevral 2012-ci il, s.139.

36. "Xaçmaz rayonunun Xaraxoba kəndinin Palıdlı kəndi adlandırılması haqqında" Azərbaycan Respublikasının Qanunu (22 noyabr 2013-cü il)-"Azərbaycan" № 280 (6555), 19 dekabr 2013-cü il.

37. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanunu (24 mart 2000-ci il)- Azərbaycan Respublikasının Ekologiya Qanunvericiliyi.II cild.Bakı,Qanun 2006, s.343-358.

38. "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanunu (16 iyul 1996-cı il)-Torpaq qanunvericiliyi məcmuəsi.Bakı, Qanun, 2007, s.240-247.





39. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanunu (20 aprel 2010-cu il).

40. "Tovuz rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (7mart 2012-ci il)- Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 4(178),30 aprel 2012-ci il, s.575-576.-"Azərbaycan", N 114 (5515), 27 may 2010-cu il.

41. "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə" (Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 16 iyun tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir)-Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 2 (128), 28 fevral 2007-ci il, s.4-27.

42. "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (19 iyun 2009-cu il)-"Azərbaycan", № 165 (5269), 30 iyul 2009-cu il.

43. "Naxçıvan Muxtar Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanunu (19 iyun 2009-cu il)- "Azərbaycan", № 165 (5269), 30 iyul 2009-cu il.

44. "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanunu (13 fevral 1998-ci il)-Azərbaycan Respublika-

sının Qanunvericilik toplusu, №4(10), 30 aprel 1998-ci il, səh 809-829.

45. "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının Qanunu (14 aprel 2009-cu il)- Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 6(146), s.673-680.

46. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (7 iyul 2021-ci il) – e-qanun.az/framework/41551

## 2. *Beynəlxalq hüquqi aktlar*

47. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi- L.H.Hüseynov.Beynəlxalq hüquq. Dərslik. Bakı, Qanun nəşriyyatı, 2012, s.315-347

48. Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş (3 sentyabr 2010-cu il)- Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 1 (163), 31 yanvar 2011-ci il, s.26-32.

49. Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş (18 noyabr 2010-cu il)-Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, №2 (164), 28 fevral 2011-ci il, s.412-417.

50. Azərbaycan Respublikası, İran İslam Respublikası, Qazaxıstan Respublikası, Rusiya Federasiyası və Türk-





mənistan Prezidentlərinin Birgə Bəyanatı (18 noyabr 2010-cu il)-Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, №2(164), 28 fevral 2011-ci il, s.417-420.

51. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında "Qəbələ radiolakasiya stansiyasının (RLS "Daryal") statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında" Saziş (25 yanvar 2002-ci il)- Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. № 9 (63), 30 sentyabr 2002-ci il, s.1728-1732.

52. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə (3 iyul 1997-ci il)- Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, № 8 (134), 31 avqust 1997, s.310-314.

53. "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiya (Aktau şəhəri, 12 avqust 2018-ci il) – e-qanun.az/framework/41551

54. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı (10 noyabr 2020-ci il) – https://president.az/az/articles/view/45923

55. Конвенция ООН по морскому праву от 10 декабря 1982г. – Собрание законодательства Российской Федерации. № 48, 1997, с.502-514;

56. Европейская хартия местного самоуправления от 15 октября 1985 г. – Собрание законодательства Российской Федерации. № 36, 1998 г; с. 293-298.

57. Заключительный акт Хельсинского Совещания по безопасности и сотрудничеству в Европе от 1 августа 1975 г. – Конституции государств Европы: В 3 т. III том. М. Норма, 2001, с. 780 – 785.

### 3. *Qüvvəsini itirmiş normativ hüquqi aktlar*

58. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanun)-Bakı, AzMİK nəşriyyatı, 1926,25 s.

59. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanun)-Bakı, AzMİK nəşriyyatı, 1927,30 s.

60. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanun)-Bakı, Az partnəşr, 1938, 32 s.

61. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanun)-Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1968, 34 s.

62. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanun)-Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1990, 72 s.

63. "Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində, şəhər rayonlarında, kəndlərində və qəsəbələrində dövlət hakimiyyət və idarəetmə orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (18 oktyabr 1991-ci il)-"Xalq Qəzeti", № 206(21573), 19 oktyabr 1991-ci il.

64. Naxçıvan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu),Bakı, AzMİK nəşri, 1926, 23 s.





65. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu). Bakı, Azərnəşr. siyasi ədəbiyyat şöbəsi, 1939, 25 s.

66. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu). Bakı, Azərnəşr, 1947, 32 s.

67. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu).Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1967,32 s.

68. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu).Bakı, Azərnəşr, 1978, 34 s.

69. Конституция (Основной закон) Союза Советских Социалистических Республик. М., «Юридическая литература», 1989, 47 с.

### 4. *Xüsusi ədəbiyyat*

**a) Azərbaycan dilində**

70. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2004, 440 səh.

71. Azərbaycan tarixi.Yeddi cilddə.V cild (1900-1920-ci illər).Bakı, "Elm", 2008, 696 səh.

72. Azərbaycan tarixi.Yeddi cilddə.VI cild (aprel 1920-iyun 1941), Bakı, "Elm", 2008, 568 səh.

73. Azərbaycan tarixi.Yeddi cilddə.VII cild (1941-2002-ci illər), Bakı "Elm" 2008, 608 səh.

74. XX əsr Azərbaycan tarixi.II cild.Bakı, "Təhsil", 2009, 560 səh

75. Azərbaycan tarixi.Ali məktəblər üçün mühazirələr kursu.II hissə (XIX-XXI əsrin əvvəli).Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2010, 544 səh.

76. Bəhramov C.Bir səhvin acı nəticələri və ya Azərbaycan torpaqlarının ermənilərə güzəşt edilməsi prosesi necə baş vermişdir-"Azərbaycan", 10 yanvar 2013.

77. Cəfərov İ.M. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı, 2010, 724 səh.

78. Cəfərli N.H. Səfəvilərin dövlət quruluşu. Diss...hüq. elm. dokt.,Bakı, 2002, 241 s.

79. Əliyev Ş. Bələdiyyələrin səlahiyyətləri genişlənir-"Xalq Qəzeti",№ 34 (24904), 13 fevral 2005-ci il.

80. Əsgərov Z.A. Konstitusiya hüququ.Dərslik.Bakı, "Bakı Universiteti" nəşriyyatı, 2011, 760 s.

81. Hacalıyev E. Ərazi bütövlüyü məsələlərində heç bir güzəştdən söhbət gedə bilməz.-"Azərbaycan", № 272 (6547), 10 dekabr 2013-cü il.

82. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, Qanun nəşriyyatı, 2012, 368 səh.

83. Həsənov M.B. Azərbaycan tarixi. Bakı, "Bilik" nəşriyyatı, 2012, 440 səh.

84. İrəvan xanlığı.Rusiya işğalı və ermənilərin şimali Azərbaycan torpaqlarına köçürülməsi.Bakı, Azərbaycan, 2010, 588 səh.

85. Nağıyev F.Konstitusiya hüququ. Mühazirə mətnləri. Bakı, Qanun, 2009, 240 səh.

86. Nəzərli T. İrəvan xanlığı əzəli Azərbaycan torpağıdır-"Azərbaycan", 29 yanvar 2008-ci il.





87. Xarici dövlətlərin konstitusiyaları. Bakı, Qanun, 2010, 388 səh.

**b) Xarici dillərdə.**

88. Алиев Шахин. Научно-практический комментарий к Конституции Азербайджанской Республики. Баку, Изд-во «Юридическая литература», 2000, 728 с.

89. Бабурин С.Н. Территория государства: теоретико-правовые проблемы: дисс…докт. юрид. наук. М., 1998, 335 с.

90. Бабурин С.Н. Мир империй. Территория государства и мировой порядок. М., Юрид. Центр Пресс, 2005, 828 с.

91. Барсегов Ю. Г. Территория в международном праве. М., Госюриздат, 1958, 258 с.

92. Барциц И.Н. Правовое пространство России: вопросы конституционной теории и практики. М., Изд-во Московского Университета ,2000, 495 с.

93. Барциц И.Н. Конституционно-правовое пространство Российской Федерации: дисс…докт. юрид. наук. М., 2001.

94. Бобленко Н.А. и др. Основы муниципальной деятельности: в 3 кн. Кн.2, Обнинск, 1999, 374 с.

95. Брэбан Г. Французское административное право. Перевод с французского. М., 1988, 294 с.

96. Буров В.А. Проблемы создания искусственных земельных участков и пребывания на них // Право и экономика, 2009, № 2.

97. Быстрова Д.А. Территория в конституционном праве Российской Федерации. Дисс…канд. юрид. наук. М., 2010, 252 с.

98. Васильев В.И. Муниципальное право России. М., Норма, 2008, 847 с.

99. Васильев В.И. Административно-территориальное устройство региона и территориальное устройство местного самоуправления //Журнал российского права, 2006, №3. с. 82-91

100. Величко В.Л. Кавказ: Русское дело и междуплеменные вопросы. Баку, «Элм», 1990, 224с.

101. Венгеров А.Б. Теория государства и права. М., Проспект, 2000, 520 с.

102. Воронин А.А. Территориальная организация: теоретические и исторические аспекты: дисс..канд. юрид. наук, Ярославль, 2003, 247 с.

103. Горохов Б. Споры, связанные с определением территорий муниципальных образований // Вопросы местного самоуправления, 2004, № 1, с. 54-59.

104. Диреганова А.В. Административно-территориальное устройство субъектов Российской Федерации, находящихся в пределах Южного Федерального округа. Дисс…. канд. юрид. наук, Ставрополь, 2005, 172 с.

105. Доленко Д.В. Политика и территория. Основы политического регионоведения. Саранск, 2000, 259 с.





106. Калинин С.П. Административно-территориальное устройство субъекта Российской Федерации. Омск, 2001, 275 с.

107. Калинин С.П. Правовое регулирование административно-территориального устройства субъекта Российской Федерации: дисс…. канд. юрид. наук. Омск, 2001, с.212.

108. Керимов Д.А., Петров В.С. Общая теория государства и права. Том I. Л., Изд-во ЛГУ, 1968, 428 с.

109. Клименко Б.М. Государственная территория. Вопросы территории и практики международного права. М., 1974, 302 с.

110. Конституция Российской Федерации. М., Юрид. лит., 1993, 96 с.

111. Конституция Российской Федерации: Научно-практический комментарий. Под ред. акад. Б.Н. Топорнина. М., Юристь, 1997, 716 с.

112. Кутафин О.Е. Неприкосновенность в конституционном праве Российской Федерации. М., Юрист, 2004, 474 с.

113. Кутафин О.Е. Муниципальное право Российской Федерации. М., Проспект, 2007, 550 с.

114. Ладыженский А.М. Юридическая природа территориального верховенства. М., Вестник МГУ, 1948, 235 с.

115. Лебедев А.Н. Конституционно-правовой статус территории субъекта Российской Федерации // Конституционный строй России, 2003, № 4, с. 46-55.

116. Левин И.Д. Суверенитет. М., Юридический центр пресс, 2003, 371 с.

117. Лексин И.В. Конституционное и муниципальное право // Конституционный строй России, 2009, № 6, с. 33-41.

118. Лужин А.В. Административно-территориальное устройство Советского государства. М., Право, 1969, 211 с.

119. Максимов А.Н. Территориальная организация местного самоуправления в России: проблемы совершенствования правового регулирования: автореф. дисс…. канд. юрид. наук. М., 2010, 22 с.

120. Мамедов Р.Ф. Международно-правовой статус Каспийского моря: вчера, сегодня, завтра. Баку, 2006.

121. Мамедов Р.Ф. Разграничение Каспийского моря (международно-правовые вопросы). Баку, 2006.

122. Пастухова Н.Б. Проблемы государственного суверенитета. М., Норма, 2006, 287 с.

123. Пешин Н.Л. Государственная власть и местное самоуправление в России: проблема развития конституционно-правовой модели. М., Статут, 2007, 459 с.

124. Постовой Н.В. Муниципальное право России: учебник. М., Спарк, 2000, 398 с.

125. Ромашов П.А. Административно-территориальная единица с особым статусом (конституционно-правовое исследование): автореф. дисс…. канд. юрид. наук. Тюмень, 2008, 24 с.





126. Савранская О.Л. Территориальные основы местного самоуправления. // Городское управление. 1997, № 4, с. 24-31.

127. Советское государственное право: учебник. Отв. ред. Е.И. Козлова. М., 1985, 495 с.

128. Соломаткин А.С. Становление и развитие административно-территориального устройства Российской Федерации. Челябинск, 1995, 178 с.

129. Страшун Б.А. Конституционное (государственное) право зарубежных стран. Т. 1. М., 1993, 508 с.

130. Сысоева Е.А. Категория «территория» в правовой теории и практике законодательного регулирования федеративного устройства современной России: дисс…. канд. юрид. наук. М., 2008, 218 с.

131. Тимофеев Н.С. Территориальные пределы местного самоуправления в Российской Федерации. М., Изд-во МГУ, 2007, 126 с.

132. Тимофеев Н.С. Местное самоуправление в России: основы и пределы: конституционно-правовые аспекты: дисс….докт. юрид. наук. М., 2008, 386 с.

133. Трайнин И.П. Вопросы территории в государственном праве. // Известия АН СССР, 1947, № 4, с. 212-219.

134. Умнова И.А. Конституционные основы современного Российского федерализма. М., 1998, 312 с.

135. Ушаков А.Н. Суверенитет в современном международном праве. М., 1997, 405 с.

136. Фризен О.А. Территориальная организация публичной власти В Российской Федерации: конституционно-правовой аспект: дисс.…канд. юрид. наук. Ростов-на-Дону, 2006, 170 с.

137. Харючи С.Н. Развитие законодательства о защите прав коренных малочисленных народов в Российской Федерации. / Журнал российского права. 2006, №7, с. 80-87.

138. Чернега Ю. Спор воинствующих субъектов. // Власть, 2002, № 15-16, с. 46-68.

139. Чертков А.Н. Российская модель территориального устройства: специфика, содержание, пути развития. // Научно-практические материалы «20 лет кафедре конституционного (государственного) права зарубежных стран. МГЮА им. О.Е. Кутафина».М., 2010, с. 90-100.

140. Чиркин В.И. Государственная власть субъектов федерации. // Государственная власть и местное самоуправление. 2000, № 10, с. 82-94.

141. Шарнина Л.А. Территориальная организация местного самоуправления: дисс.… канд. юрид. наук. Красноярск, 2004, 196 с.

142. Шевцов В.С. Государственный суверенитет (вопросы теории). М., Изд-во «Наука», 1979, 348 с.

143. Шугрина Е.С. Муниципальное право. М., 2009, 664 с.





144. Эбзеев Б.С. Российский федерализм и единство конституционного пространства. // Конституционный Суд РФ: постановления, определения. М., 1997, с. 58-74.

145. Brown E.D. The International Cases on the Sea.Vob.1-2. Dartmouth.1994,p.359/

146. Brownlie I. Prinsiples of Publik International Law.Oxford, 1990, p. 474

147. Baslar K. The Consept of the Common Heritage of Mankind in International Law. The Hague-Boston-London, 1998, p.390

148. Burchi S, Mechiem K. Groundwater in International Law.Rome, 2005, P.425

149. Diederiks-Vershoor L.H. An Introduction to Air Law.8 th ed.The Hague, 2006,P.312

150. Digest of International Cases on the Law of the Sea. United Nations: 2007. P. 538

151. Dinar S. International Water Traeties.London, 2007, p.408

152. Reydams L. Universal Jurisdiction.Oxford.2003, p.468

153. Shaw M. International Law.5th ed. Cambridge, 2003, p. 416

154. Shaw M. N. State Succession Revisited // Finnish Yearbook of International Law, 1994, vol.5, p.34-98

### 5. Elektron resursları

155. URL:http://www.iet.ru/files/text/working papes/121.pdf (дата обращения: 19 апреля 2010)

156. URL:http://restate.ru/material/80537.htm/ (дата обращения :27 февраля 2010)

157. URL:http://restate.ru/material/80537.html (дата обращения: 27 февраля 2010)

158. URL:http://www.vz.ru/societu/2008/4/23/162215.html (дата обращения: 16 декабря 2009)

159.URL:http://www.constitution.qarant.ru/Doc.1200. htm (дата обращения: 15 октября 2009)

160.URL:http//www.constitution qarant.ru/Doc.4000.htm (дата обращения: 18 октября 2009)

161. URL:http://www.kavkaz-uzel.ru/articles/138675/ (дата обращения: 14 февраля 2010)

162 .URL:http://www.e-adres.ru/postcodes/3752199/ (дата обращения: 14 февраля 2010).



SAHİL HÜSEYNOV

# DÖVLƏT ƏRAZİ QURULUŞUNUN HÜQUQİ TƏNZİMLƏNMƏSİ PROBLEMLƏRİ

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 16.05.2022
Şərti çap vərəqi 13,5. Sifariş №
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4